# MÖMİNLƏRİN XOŞBƏXTLİYİ

Onlar iman gətirmiş və Allahdan qorxmuşlar. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur

(Yunis surəsi, 63-64)

HARUN YƏHYA

# MÜNDƏRİCAT


GİRİŞ

CAHİL CƏMİYYƏT BƏDBƏXTDİR

Dünya həyatı onları aldadar

Etdikləri hər şey ehtiraslı “əyləncədir”

Dünya üzərindəki hər şey “bəzəkdir”

Sahib olduqları hər şey “öyünmə” mövzusudur

Hər şeyə “çoxalma” ehtirasıyla bağlanarlar

Allahdan başqa ilahlar qəbul etmişlər

Yanlış qədər inancları vardır

Səmimiyyətsizliyi prinsip etmişlər

BƏDBƏXTLİYİN SƏSİ: ŞEYTAN

Şeytan insanlara vəsvəsə verir

Şeytan ümidsizlik və çarəsizlik təlqini verir

Şeytan duyğusallıq təlqini verir

Şeytanın hiylələri zəifdir

XOŞBƏXTLİYİN SİRRİ: ALLAHIN RİZASI

ƏBƏDİ XOŞBƏXTLİK MÖMİNLƏRİNDİR

Dünyadaykən müjdələnərlər

Allahın rəhməti və ehsanı ilə sevinərlər

Allaha təslimiyyətləri çox güclüdür

ƏN XOŞBƏXT İNSANLAR: PEYĞƏMBƏRLƏRDİR

Hz. İbrahim

Hz. Zəkəriyya

Hz. Yusif və atası hz. Yaqub

## İMANIN GƏTİRDİYİ XOŞBƏXTLİK VƏ QAZANDIRDIĞI GÖZƏLLİKLƏR

Sevinc qazandırar

Güc qazandırar

Şövq qazandırar

Fiziki gözəllik və sağlamlıq qazandırar

Hikmətlə baxan daxili göz qazandırar

## SONSUZ XOŞBƏXTLİK MƏKANI: CƏNNƏT

## NƏTİCƏ

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri

dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

İnsanların həyatları boyunca etmək istədikləri, reallaşdırmağı arzuladıqları bir-birindən fərqli bir çox məqsədləri və planları vardır. İlk baxışda bir-birlərindən fərqli görünsə də, bu məqsədlər təməl bir nöqtədə birləşir. Bu təməl nöqtə, insanların yaşadıqları həyatdan mümkün ola biləcək ən çox mənfəəti əldə edərək, xoşbəxt və hüzurlu bir həyat yaşamalarıdır. Əldə edilən mənfəətlər nə qədər çox olsa, buna bağlı olaraq duyulacaq olan xoşbəxtlik və rahatlıq da o dərəcədə çox olacaq. Buna görə bütün insanlar fərqli yollar və üsullar izləyərək, bu ortaq məqsədə çatmağı hədəfləyir və bunun üçün ömürləri boyunca böyük bir səy göstərirlər. Ancaq Allahın razılığını axtaran və axirəti həqiqi yurd olaraq mənimsəyən saleh möminlərdən başqa insanlar, bütün bu istəklərini reallaşdırıb, hədəflərinə çatsalar da nəticə yenə dəyişmir. Bədbəxtlik və buna bağlı olaraq da sıxıntı dolu, darıxdırıcı bir həyat ...

Dövrümüzdə insanların böyük bir qismi heç cür həqiqi hüzuru tapa bilmədikləri üçün, o qədər cəhdə, çalışmağa və yorğunluğa baxmayaraq heç cür xoşbəxt olmadıqlarından şikayət edirlər. Belə bir nəticə ilə qarşılaşmalarının səbəbi isə, insanların xoşbəxtliyi yanlış yerdə, yanlış insanlardan tapacaqlarına inanmış olmalarıdır. Bəziləri üçün xoşbəxtlik əldə edəcəyi maddi zənginlikdir; beləcə pulunu istədiyi kimi xərcləyəcək, əldə etmək istədiyi şeylərə sahib ola biləcək və hər ötən gün bir əvvəlkinə görə daha çox şey sərf edə biləcək. Bu insanlar üçün xərcləmək, bütün gözəllikləri və zövqləri dadmaq həyatlarının ən böyük xoşbəxtlik qaynağıdır. Bu istəkləri isə dibsiz bir quyu kimidir; heç bir zaman sonu gəlməz. Bunun nəticəsində də ortaya əldə etdikləri heç bir şeydən məmnun olmayan, həmişə daha çoxunu, daha yaxşısını istəyən və bunun sayəsində xoşbəxt olub daha rahat bir həyat yaşaya biləcəklərini zənn edən insanlar çıxar. Ancaq bu səyləri onlara yalnız müvəqqəti bir xoşbəxtlik qazandırar.

Allah Quranda “**Kafirlər Odun qarşısına gətiriləcəkləri gün onlara deyiləcəkdir: “Siz dünya həyatınızda pak nemətlərinizi sərf edib qurtardınız və onlardan zövq aldınız. Bu gün isə siz yer üzündə haqsız olaraq təkəbbür göstərdiyinizə və asi olduğunuza görə alçaldıcı əzabla cəzalandırılacaqsınız!”**“ (Əhqaf surəsi, 20) ayəsiylə, insanların dünya həyatında acgözlük və nankorluqla əldə etdikləri bu saxta xoşbəxtliyi, axirətdə sonsuz bir bədbəxtliyə çevirəcəyini bildirmişdir.

Bəzi insanlar üçünsə xoşbəxtlik, hər kəs tərəfindən tanınmaq, hər kəsin sevdiyi, bəyəndiyi, arxasından qaçdığı bir insan olmaqdır. Hər kəs ona oxsamağa çalışaraq onu təqlid edəcək, etdiyi hər şey ilə insanların heyranlığını qazanacaqdır. Bunu nə qədər çox bacarar, insanların gözünə nə qədər girər, nə qədər diqqətlərini çəkərsə, özünü o dərəcə xoşbəxt hiss edəcək.

Bəzisi üçün də xoşbəxtlik, yaşadığı sıxıntılı və cansıxıcı həyatdan bir az olsun xilas olmaq, problemlərini unutmaqdır. Buna bağlı olaraq, xoşbəxt ola bilmək üçün həyatında bəzi "dəyişikliklər" etməlidir. Qeyri-adi olmalı, fərqli geyinməli, qısacası "marjinal" bir həyat sürərək, fərqli olan hər şeyi sınaqdan keçirər. Ya da fərqli yerlər görməli, gəzməli, yeni insanlar tanımalıdır. Ətrafındakı insanların diqqətini nə qədər üzərinə toplayarsa. özünü o cür fərqli görəcək, bu da ona böyük bir zövq verəcək. Bu şəkildə hərəkət edərək həyatına rəng qatacağını və yaşadığı bədbəxtlikdən xilas olacağını zənn edər. Bu səbəbdən bu insanlar üçün xoşbəxtlik, "dəyişiklik" və ya "fərqli olmaq" deməkdir.

Ancaq bütün bu insanların əldə etdikləri xoşbəxtliklər saxta və keçicidir. Sadəcə yaşanılan o ana məxsusdur; bu an bitdiyində hiss edilən xoşbəxtlik da sona çatar və insan yenə köhnə cansıxıcı və çətin həyatına geri dönər. Dəyişən bir şey yoxdur; insan özünü yalnız qısa bir müddət üçün rahatlaşdırmışdır. Bu müddət istər bir gün, istər bir ay, istər bir il olsun, insanlar xoşbəxtliyin sirrini bilmədikləri üçün, əldə etdikləri nəticə həmişə eynidir. Allah, həyatları boyunca Allahı və axirəti unudaraq, tamamilə öz istək və ehtiraslarına görə yaşayan bu insanların vəziyyətini "**Onların məsəli zülmət gecədə od qalayan kimsənin məsəlinə bənzər. Alov onun ətrafındakıları işıqlandırdığı zaman Allah onların nurunu aparar, özlərini də heç bir şey görə bilməyəcəkləri zülmətlər içərisində buraxar."** (Bəqərə surəsi, 17) ayəsiylə xəbər verir. Allah, ayələrindən uzaq həyat yaşayan bu insanların "görə bilməyəcəkləri zülmətlər içərisində qalacaqlarını" bildirmişdir. İnsanlar özlərini yaradan Allahın əmrlərinə əməl etmədikləri və özlərini yaradan Rəbbimizi unudaraq yaşadıqları üçün, Allah onların xoşbəxtliyə çatma səylərini hər dəfə boşa çıxarır. Peyğəmbərimiz (s.ə.v) dünyanın müvəqqəti bir qazanc təmin etdiyini, həqiqi qazanc təmin etmənin axirətə yönəlməklə olduğunu xatırlatmışdır:

"Ey insanlar! Dünya qabaqcadan verilən bir metadır. Yaxşı da, pis də ondan nəsibini alar. Axirət isə sadiq bir vəddir. Orada Qadir olan Məlik hökm edər. Haqq yerini tapar. Batil isə məhv olar. Ey insanlar, axirət övladı olun, dünya uşağı olmayın. Çünki övlad anaya tabedir. (Yəni dünya uşağı olsanız, dünya kimi məhv olmaya layiq olarsınız.) Allahdan qorxu üzərinə əməl edin. Bilin ki, əməlləriniz sizinlə üzləşəcəkdir. Və yenə sizlər mütləq Allaha mülaki olacaqsınız (qovuşacaqsınız). Kim zərrə qədər yaxşı iş görsə, onu görəcək və kim də zərrə qədər pis iş görsə, onu görəcək. " *(G. Ahmed Ziyaüddin, Ramuz El Hadis, 1-ci cild, Gonca Nəşriyyat, İstanbul, 1997, 184/4)*

Məhz bu kitabda həqiqi xoşbəxtliyin qaynağının nə olduğunu, harada, hansı şəraitdə həqiqətən xoşbəxt və hüzurlu oluna biləcəyini Quran ayələri əsasında izah edəcəyik.

Ancaq bundan əvvəl, Allahın Quran ilə bildirdiyi həqiqətlərdən və Quran əxlaqından uzaq bir həyat sürdükləri üçün "cahil cəmiyyət" olaraq adlandırılan insanların, həmişə çətinlik və bədbəxtlik içində olmalarının səbəblərini qısaca təhlil edək.

# CAHİL CƏMİYYƏT BƏDBƏXTDİR

## Dünya həyatı onları aldadar

İman etməyən insanlar inkarlarına dayaq tapa bilmək üçün, "yalnız bu dünya vardır, axirət yoxdur" şəklində yanlış məntiq irəli sürərlər. Bu düşüncələri istiqamətində, bu dünyada istədikləri hər şeyi edə biləcəklərini düşünərlər.Halbuki Allah axirət günündə bütün insanları dünya həyatında etdiklərindən sorğuya çəkəcəyini bildirmişdir:

**Onlar dedilər: "Dünya həyatımızdan başqa bir həyat yoxdur və biz dirildilməyəcəyik!" Onları Rəbbinin qarşısında dayandırılarkən bircə görəydin! Allah deyəcəkdir: "Məgər bu dirilmə həqiqət deyilmi?" Onlar: "Əlbəttə, Rəbbimizə and olsun ki, bu həqiqətdir!" – deyəcəklər. O buyuracaqdır: "Elə isə inkar etdiyinizə görə dadın əzabı!" (Ənam surəsi, 29-30)**

Ancaq inkar edənlər Allahın bildirdiyi bu həqiqəti gözardı edərlər və həyatlarını yalnız dünya həyatını əldə edə bilmə məqsədi üzərinə qurarlar. Bu dünyada daim güclü olanların qazanacağına inandıqlarından, xoşbəxt və hüzurlu bir həyat üçün mütləq maddi baxımdan güclü olmalarının vacib olduğuna inanarlar. Bu maddi gücü əldə etdiklərində istədikləri hər şeyə çata biləcəklərini zənn edərlər. Halbuki Allah dünya həyatını insanlar üçün imtahan yeri olaraq yaratmışdır. Bu səbəblə Allahın "**Yoxsa insan üçün istədiyi hər şey hazırlanmışdır?**" (Nəcm surəsi, 24) ayəsiylə bildirdiyi kimi, dünya həyatındakı hər şey insanların arzu etdikləri kimi reallaşmaya bilər. İnsanlar bəzən çox istədikləri bir şeyi heç əldə etməyə bilər, ya da sahib olduqlarını, qazandıqlarını ani bir hadisə ilə itirə bilərlər.

İndi cəmiyyətdəki bütün insanların bu psixologiyaya sahib olduğunu düşünün. Belə bir mühitdə insanlar bir-birlərinə bədbəxtlik və çətinlikdən başqa bir şey verə bilməzlər. Hər kəs yalnız öz mənfəətini güddüyü üçün, bu insanların bir-birlərinə gözəl əxlaq göstərib birlik, bərabərlik içində yaşamaları qeyri-mümkündür. Hər fürsətdə mənfəətləri zidd düşdüyü üçün həmişə bir-birləriylə mübarizə halındadırlar. Allah, **"... Sən onların həmrəy olduğunu güman edirsən, halbuki onların qəlbləri dağınıqdır. Bu ona görədir ki, onlar ağlı kəsməyən adamlardır."** (Həşr surəsi, 14) ayəsi ilə bu insanların aralarındakı mənfəət qarşıdurmaları səbəbiylə dost ola bilmədiklərini və "ürəklərinin dağınıq" olduğunu xəbər vermişdir. Bunun səbəbi, Allahın ayədə də ifadə etdiyi kimi insanların ağılla düşünməmələridir. Bəs insanların ağılla düşünməmələri nə deməkdir? Allah, bunun cavabını bir ayədə belə vermişdir:

**Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız? (Ənam surəsi, 32)**

Allah dünya həyatının əyləncədən ibarət olduğunu, əsl həyatın isə axirətdə yaşanacağını bildirmişdir. İnkar edənlərin düşünmədikləri isə budur; bu kəslər həqiqi yurdun axirət həyatı olduğunu qəbul etmirlər. Bundan ötrü də əsl həyatları zənn etdikləri dünya həyatında amansız mənfəət yarışına girir və bu yarış səbəbiylə özləri qədər bir-birlərini də davamlı olaraq zərərə məruz qoyur və bədbəxt edirlər.

Allah dünya hayatınının "oyun və əyləncə" olduğunu bildirmişdir. İnkar edənlərin, Allahın razılığını güdmək yerinə, hər işlərini nəfslərinin onlara əmr etdiyi şəkildə reallaşdırmaları, etdikləri bütün işlərin eynilə bir oyunda olduğu kimi, mənasız və dəyərsiz hala gəlməsinə səbəb olur. Bu insanların hazırladıqları və əldə etdikləri şeylər özləri üçün çox qiymətlidir; amma əslində etdiklərinin həqiqi mənada heç bir dəyəri yoxdur. Çünki bu işləri Allahın razılığını güdərək etməmişlər. Bu səbəbdən əslində o işlərlə yalnız vaxt keçirib əylənmişlər. Allah qatında yalnız Allahın razılığını qazanmaq üçün edilən saleh əməllərin və yaxşılıqların bir dəyəri vardır. Hər hansı bir şeyi dəyərli edən, onu əldə etmək yolunda göstərilən cəhd, sərf olunan güc, ya da pul deyil, bütün bunların edilməsində yalnız Allahın razılığının güdülməsidir. Məsələn, bir iş adamı həyatı boyunca bir çox işlər bacarmış, böyük investisiyalar yatırmış, adını dünyaya eşitdirmiş olsa belə, bütün bunları Allahın razılığını qazanma niyyətiylə etməmişsə, etdiklərinin həqiqi mənada bir dəyəri olduğundan söz edilə bilməz. Bir şeyin dəyəri, onun Allahın razılığına uyğun olub-olmadığı, ya da Allahın razılığını qazanmaq üçün istifadə edilib-edilmədiyinə bağlıdır. Bu səbəbdən insanların etdikləri işin nə olduğu əhəmiyyətli deyil, bunu nə niyyətlə etdikləri əhəmiyyətlidir. Edilən xərclərin miqdarı əhəmiyyətli deyil, nə niyyətlə xərcləndiyi əhəmiyyətlidir. Allah edilən ibadətlərdə əhəmiyyətli olanın insanların niyyətləri olduğunu bir ayədə belə bildirir:

**... Onların nə əti, nə də qanı, Allaha çatmaz. Ona yalnız sizin təqvanız çatar ... (Həcc surəsi, 37)**

Sadəcə, Allah rizası üçün edilən bir işin Allah Qatında keçərliliyi və dəyəri vardır. Cahil cəmiyyətin insanları isə özlərinə Allah rizasını məqsəd etmədikləri üçün, hər nə qədər əhəmiyyətli işlər görən kimi görünsələr də, əslində sərf etdikləri bütün bu cəhdlər boşa gedir. Allah inkar edənlərin bu vəziyyətini bir ayədə belə açıqlayır:

**O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. (Kəhf surəsi, 104)**

Allahın onlara verdiyi imkanları, Allahın razılığını qazanmaq məqsədiylə hərəkət etmədikləri üçün, boş və zərərli şeylər uğruna xərcləyərlər. Dünya malına olan düşkünlükləri səbəbiylə, həmişə sahib olduqlarını itirmənin qorxusunu yaşayarlar. Heç gözləmədikləri bir anda, heç təxmin etmədikləri bu hadisə səbəbiylə zərərə düşə və əllərindəkini itirə biləcəklərini bilmək onları böyük bir narahatlığa salar. Bu səbəbdən nə qədər gözəl işlər etsələr, ya da nə qədər çox mənfəət əldə etsələr də, içlərindəki bu itirmə qorxusu onları həmişə bədbəxt və sıxıntılı edər.

İnkar edənlər sahib olduqlarının həqiqi dəyərinin və özlərinə verilmə məqsədinin şüurunda deyildirlər. Bu səbəblə də əllərindəki imkanları Allahın rizasını qazana biləcəkləri xeyirli işlər üçün istifadə etmək yerinə, yalnız dünya həyatını ölçü alaraq düşüncəsizcə sərf edərlər. Məsələn, qumar oynayıb bir anda bütün mallarını, hətta etibarlarını itirə bilərlər. Ya da daha da zənginləşmək üçün haqsız yollardan gəlir əldə etməyə çalışa bilərlər. Lakin unudulmamalıdır ki, edilən hər səhv və ya ədalətsiz işin sonu mütləq uğursuzluqla nəticələnir. Allah, Öz rizasına uymayan insanların zərərə uğrayacaqlarını, bu insanlar üçün dünya həyatındakı hər şeyin problem və kədər qaynağı ola biləcəyini bu kimi vəsilələrlə insanlara göstərir. Axirət həyatına inanmayan insanların bu kədər və stressi yaşamalarının səbəbi isə, Allahın dinindən üz çevirmələri və dünya həyatına ehtirasla bağlanmış olmalarıdır.

## Etdikləri hər şey ehtiraslı "əyləncədir"

Əvvəlki hissədə izah edildiyi kimi, özünə Allahın rizasını məqsəd etmədən yaşayan hər insan üçün həyat saxtakarlıqdan fərqlənmir. Bu səbəbdən insanlar əslində sonsuz axirət həyatını hədəf alıb, ona istiqamətli olaraq çalışacaqları yerdə, dünyanın qısa müddətli ehtiras və əyləncələrinə dalırlar.

Qəflət gözüylə baxan bu insanlar üçün, dünya həyatında insanları Allahın razılığını qazanmaqdan uzaqlaşdıran və Allahı unutduran bir çox iş var. Əslində bütün bunlar Allahın insanları sınamaq üçün verdiyi nemətlərdir, amma bu kəslər üçün bunlar vaxt keçirəcək və ehtirasla bağlanılan məşğuliyyətlər halına gəlmişdir. Allah Quranda hansı nemətlərin insanlar üçün ehtiras halına gəldiyini belə bildirir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

Bəzi insanlar həqiqi məqsədləri olan Allahın rizası yerinə özlərinə bəzi dünyəvi məqsədlər etdikləri üçün, dünya nemətləriylə ehtiraslı əyləncə içinə girmişlər. Bütün bunlar onları hər keçən gün Allahdan daha da uzaqlaşdırır və daha da şiddətli bir şəkildə dünyaya bağlayır. Allahın rizasını qazanma cəhdində olmadıqları və axirətdə hesab verəcəklərini düşünmədikləri üçün Allahın dünya həyatında onlara verdiyi məhdud müddəti heç düşünmədən boş işlər üçün sərf edirlər. Məsələn, edəcək bir işi olmayan kimsə gün ərzində pəncərəsindən baxaraq evinin qarşısından keçən insanları seyr edər, oxuduğu jurnallara dəfələrlə yenidən baxar, qonşularının dedi-qodusunu edər, faydası olmayan televiziya proqramlarını seyr edər, internet və ya kompyuter oyunlarıyla boş vaxt keçirər, özüylə və ətrafındakı insanlarla məşğul olub gününü keçirər. Dəyərli vaxtını Allahın rizasını qazanacağı işlərə sərf edəcəyi yerdə, özünə və ətrafına fayda təmin etməyən boş işlərə sərf edər. Ondan soruşulsa, "edəcək bir işinin olmadığını, bu şəkildə vaxt keçirib başını qatdığı və ya bunlar onun xoşuna gəldiyini" söyləyə bilər. Amma əslində özü də içində olduğu dəhşətli vəziyyətin, həyatının boş və mənasız bir əyləncə halını aldığının fərqindədir.

Halbuki unutmamaq lazımdır ki, dünya həyatının bütün məşğələləri Allahın insanlar üçün yaratdığı imtahanlardır. Hadisələri bu gözlə dəyərləndirməyən insanlar üçün isə vəziyyət çox fərqlidir. Bu vəziyyətdə belə bir insan üçün dünya nemətləri, insanı Allahın razılığını qazanmaqdan uzaqlaşdıran, onun dünyaya olan sevgisini artıraraq boşuna vaxt sərf etdirən və bunun nəticəsində də sonsuz axirət həyatını itirməsinə səbəb olan məşğuliyyətlər halına gəlir. Bu səbəblə insan bu mövzuda çox diqqətli və etidallı hərəkət etməlidir. Allah dünya həyatında insanlara imtahan olması üçün yaratdığı nemətləri və bütün bunlara qarşı diqqətli davranılmalı olduğunu Quran ayələrində belə bildirir:

**Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir. (Kəhf surəsi, 46)**

**Dünya həyatının məsəli göydən endirdiyimiz suyun məsəlinə bənzəyir ki, onun sayəsində insanların və heyvanların yediyi yer bitkiləri bir-birinə qatışır. Nəhayət, yer öz bərbəzəyinə bürünüb rövnəqləndiyi və onun sakinləri ona (onun məhsulunu yığmağa) qadir olduqlarını güman etdikləri zaman gecə yaxud gündüz əmrimiz yerə yetişər. Biz onu, elə bir biçilmiş sahəyə döndərərik ki, sanki dünən heç bol məhsulu olmamışdı. Biz ayələri düşünən adamlar üçün beləcə izah edirik. (Yunis surəsi, 24)**

**Hər bir kəs ölümü dadacaqdır. Lakin Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Ali İmran surəsi, 185)**

**Həqiqətən, Axirətə iman gətirməyənlərin bəd əməllərini onlara yaxşı kimi göstərdik. Odur ki, onlar azğınlıqları üzündən heç nə anlamadan yer üzündə veyllənirlər. Bunlar əzabı ağır olacaq kimsələrdir; Axirətdə ən çox ziyana uğrayacaq kəslər də elə onlardır. (Nəml surəsi, 4-5)**

İnsanların xoşbəxt və hüzurlu ola bilmələri həyatları boyunca qarşılaşdıqları hadisələrdə "**doğru**" qərarlar verməlerinə bağlıdır. Bunun üçün də "**təmiz ağıla**" və "**dərk etmə gücünə**" ehtiyac vardır. İnsanı doğrulara çatdıran ağıl isə yalnız Allaha iman etməklə və Quran əxlaqına görə yaşamaqla əldə edilə bilər. Ancaq yuxarıda bəhsi keçən, insanlar üçün ehtiras və bağlılıq mövzusu olan məşğuliyyətlər, insanların bu "**təmiz ağıla**" sahib olmalarını və doğruları görmələrinə mane olar. Bu səbəbdən Quran əxlaqına uymayan bu insanlar həyatları boyunca qarşılaşdıqları heç bir şeydə doğru və məntiqli qərarlar verə bilməzlər. Bu da davamlı səhv etmələrinə, bədbəxtlik və kədər içində yaşamalarına yol açar.

Halbuki, dünyada yaşadıqları bu həyat insanların Allahın razılığını qazana bilmələri üçün tək fürsətləridir. Özlərinə verilən bu "fürsət" heç gözləmədikləri bir anda əllərindən alına bilər. Yaşanılan bu həyatın düzəlişi yoxdur. Ölümdən sonra bir daha Allahın razılığını qazana bilmə imkanı mümkün olmayacaq. Bu həqiqətləri gözardı edən insanlar axirət günü böyük bir peşmançılığa qapılacaq və Allahın razılığını qazanmaq məqsədi ilə saleh əməllər etmək üçün dünyaya geri dönmək istəyəcəklər. İnsanların axirət günü bu fürsəti geri istəyəcək olmaları, dünya həyatındakı hər şeyin dəyərsizliyini göstərməsi baxımından olduqca mənalıdır. Ancaq bu istəkləri qəbul olunmaz. Allah insanların axirətdə bu həqiqətləri görərək yaşayacaqları peşmançılıq və kədəri Quranda belə bildirir:

**Kaş ki, günahkarları öz Rəbbi qarşısında başlarını aşağı dikərək: "Ey Rəbbimiz! Biz gördük və eşitdik. Bizi geri qaytar ki, yaxşı işlər görək. Həqiqətən də, biz qətiyyətlə inandıq!" – deyəndə görəydin! (Səcdə surəsi, 12)**

Bu baxımdan "**həyat**" Allahın insanlara vermiş olduğu çox dəyərli bir nemətdir. Qəflət içərisindəki bu insanlar isə, Allahın özlərinə sınaq məqsədli verdiyi dünya nemətlərinə ehtirasla bağlandıqları üçün bu dəyərli vaxtı axirətdə özlərinə heç bir fayda gətirməyəcək mənasız və boş işlərə sərf edərlər. Bir daha əsla əldə edə bilməyəcəkləri bu "həyatı" fərqində olmadan israf edərlər. Səyləri, istəkləri və əməlləri Allahın razılığına və axirət həyatına istiqamətli olmadığı üçün, bu dünyada yalnız əylənib boş vaxt keçirmiş olurlar. Allah onların bu vəziyyətini bir ayədə belə açıqlayır:

**Qoy onlar bir müddət yeyib-içsinlər, əylənsinlər və xam xəyallar onların başlarını qatsın. Tezliklə biləcəklər. (Hicr surəsi, 3)**

İnsanı axirətdə qurtuluşa çatdıracaq olan dünya həyatında Allahın razılığını qazanmaq üçün etdiyi saleh əməllər və yaxşılıqlardır. Allah axirətdə yalnız Öz rizası üçün edilən saleh əməllərin qarşılığını verəcəyini bildirmişdir:

**İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. (Kəhf surəsi, 30)**

Allahın rizasını qazanmaq niyyəti ilə hərəkət etmədiyi təqdirdə, Allah insanın bütün əməllərini puç edəcəkdir; bu səbəbdən bu insanlar çalışmış, ancaq əbəs yerə yorulmuş olacaqlar. (Ğaşiyə surəsi, 3). Həyatı boyunca Allahın rizasını qazanmaqdan və Quran əxlaqından heç güzəştə getməyənlər isə xoşbəxt olacaqlar. Allah bu vədini Quranda belə bildirir:

**İman gətirib saleh əməllər edənlər üçün xoş güzəran və gözəl qayıdış yeri hazırlanmışdır. (Rad surəsi, 29)**

## Dünya üzərindəki hər şey "bəzəkdir"

Dünya üzərindəki hər şeyin bir "bəzək" xüsusiyyətində olduğunu izah etməyə başlamazdan əvvəl, mövzunun daha yaxşı başa düşülməsi üçün bir müqayisə edək.

İki ev düşünün, bunlardan birinin içində heç bir əşya olmasın, qapıları və pəncərələri qoyulmamış, divarları boyanmamış, lazım olan heç bir baxım olmasın və təmir edilməmiş olsun. Digər evin içində isə bir-birindən gözəl estetik divan-kreslo, stol-stullar, xalçalar, mebellər olsun. Divarları ən gözəl rənglərdə boyanmış, bütün baxım və təmiri əksiksiz edilmiş olsun, balkonundan çox gözəl bir mənzərə görünsün, içində hər cür rahatlıq və lüks olsun.

Bu iki ev haqqında daha ətraflı bir məlumata sahib olmayan insanlar, ilk baxışda ikinci evi daha cazibədar görə bilərlər. İçindəki bəzəklər, bir an üçün bu insanları yanılda bilər. Amma əgər bu bəzəklərin insanların sınanmaq üçün xüsusi olaraq bu evə yerləşdirildiyini və həqiqətdə özlərini bir şəkildə zərərə aparacağını biləcək olsalar əlbəttə daha ağıllı bir qərar verəcək və seçimlərini daha cazibədar görünən evdən ötrü istifadə etməyəcəklər. Eyni şəkildə, bir parça əmək verdikləri təqdirdə digər evin özləri üçün çox daha cazibədar və eyni zamanda da qalıcı bir gözəlliyə çevriləcəyini biləcək olsalar da, seçimlərini ilk evdən ötrü istifadə edərlər.

Məhz eyni bu ev nümunəsində olduğu kimi Allah dünya həyatını da xüsusi olaraq insanların xoşuna gələcək bəzəklərlə birlikdə yaratmışdır. Amma əslində bu Allahın sınağıdır. Bu bəzəklər insanı çaşdırmamalıdır; hamısı müvəqqəti və aldadıcıdır. Allah dünya həyatının insanlara cazibədar gələcək şəkildə yaradılmasının bir hikmətini Quranda bu sözlərlə açıqlayır:

**Biz yer üzündə olan bütün şeyləri ona bəzək etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək.** (Kəhf surəsi, 7)

Dünya üzərində olan hər şey, Allahın insanları sınamaq üçün yaratdığı və Allahın rizasını qazanmağa səbəb olacaq nemətlərdir. Hər insan ətrafında gördüyü və ya sahib olduğu bütün bu nemətlərin özünə verilmə səbəbinin, yalnız Allahın bir sınağı olduğunu unutmamalıdır. Sahib olduğu və ya olacağı hər şeylə Allahın razılığını qazanacaq gözəl davranışlar etməlidir. İnsanın həqiqi həyatı axirətdəki həyatıdır və əsl qalıcı olan Allahın saleh qullarına orada verəcəyi nemətlərdir. Allah bir başqa ayəsində dünya həyatına aid hər şeyin bir "bəzək" olduğunu və insanların bu həqiqəti anlaya bilmələri üçün ağıllarından istifadə etmələri lazım olduğunu bu şəkildə nəsihət etmişdir:

**Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha sürəklidir. Məgər başa düşmürsünüz? (Qəsas surəsi, 60)**

Vicdanlarından istifadə etmədikləri üçün həqiqətləri görə biləcək ağıldan məhrum qalan insanlar, dünya üzərindəki bu metaların bəzəyinə və bunların cazibədarlığına qapılarlar. Bu kəslərin cazibədarlığına ən çox aldandıqları mövzuların başında isə malları və uşaqları gəlir. İstədikləri zənginliyə çatdıqlarında, ya da sağlam və gözəl uşaqları olduğunda böyük bir hüzura və sevincə qovuşacaqlarını zənn edirlər. Ancaq bu məqsədlərini reallaşdırdıqlarında yaşadıqları şey yenə bədbəxtlik və sıxıntı olur. Hər gün eyni işlərlə məşğul olmaqdan həyatları cansıxıcı hala gəlir. İçinə düşdükləri bu sonsuz dövr onları həyatlarından bezdirər. İlk əvvəl hər şeyin çox gözəl və zövqlü bir şəkildə davam edəcəyini güman edərlər. Ancaq qısa bir müddət sonra bunların özlərini nə qədər bezdirdiyini, bütün vaxtlarını aldığının fərqinə varmağa başlayarlar. Duyduqları yorğunluq, çətinlik və peşmanlıq bütün danışıqlarına və rəftarlarına da əks olunar. Bədbəxtlikləri hər hallarından aydın olar. Əldə edilən zənginlikdə də vəziyyət eynidir. İnsan, sahib olduğu pulunu və malını özünə zövq verəcəyini sandığı fəaliyyətlərdə istifadə edir. Bütün pulunu bu məqsəd üçün ağılsızcasına xərcləyib israf edər. Bütün bunların özünə dinclik gətirməsini gözləyərkən davamlı olaraq ziyana uğrayar, çətinliyi və əzabı hər dəfə daha da artar. Bu insanların bu vəziyyətə düşmələrinin səbəbi isə dünya həyatının bərbəzəyinə

aldanmaları və bu səbəbdən yalnız bunları əldə etməyə çalışmalarıdır. Bütün bu çətinlikləri, Allahın aşağıdakı ayəsi ilə bildirdiyi həqiqəti gözardı edərək yaşamalarından qaynaqlanır:

**Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir. (Kəhf surəsi, 46)**

Bu insanlar Allahın insanlara vermiş olduğu nemətlərin sadəcə cazibədar yəni aldadıcı tərəfini görür və buna aldanırlar. Bunun nəticəsində də həqiqəti görmələri çətinləşir. Sonsuz axirət həyatını düşünmədikləri üçün yalnız "**Əgər siz dünya həyatını və onun bərbəzəyini istəyirsinizsə**" (Əhzab surəsi, 28). Həqiqi məqsədlərindən xəbərsiz bir şəkildə yaşadıqları üçün "korluq içində çaşqınlıqla gəzən" insanlar halına gəlirlər. Allah onların bu vəziyyətini Quranda bu şəkildə bildirir:

**Həqiqətən, Axirətə iman gətirməyənlərin bəd əməllərini onlara yaxşı kimi göstərdik. Odur ki, onlar azğınlıqları üzündən heç nə anlamadan yer üzündə veyllənirlər. (Nəml surəsi, 4)**

İnsanların həyatları boyunca sahib olmaq istədikləri və bu məqsədlə böyük bir səy və əzmlə çalışdıqları hər şey əslində yaşadıqları bu həyatın bəzəkləridir. Dünya üzərindəki hər şey insana ilk baxışda çox cazibədar və gözəl görünə bilər. Və bütün bunlar insanlar üçün bir nemətdir. Ancaq unudulmamalıdır ki, dünya həyatı insanlar üçün bir sınaqdır. İnsanın əsl məqsədi bütün bu gözəllikləri bizə verən Rəbbimizə qulluq etmək, Ona ən gözəl şəkildə şükür etməkdir. Əksinə, insanın bu həqiqəti unudaraq bu bəzəklərin arxasından getməsi, bunları həyatının əsl məqsədi halına gətirməsi, insanı dünyada və axirətdə böyük bir hüsrana aparacaq.

## Sahib olduqları hər şey "öyünmə" mövzusudur

Allah dünya həyatını, kimlərin gözəl və yaxşı davranışlarda olacağını sınamaq üçün yaratmışdır. Buna bağlı olaraq, Allah müxtəlif hikmətlərlə qullarından istədiyinə rəhmət edər, istədiyindən isə rəhmətini çəkib alar. İnsanların bu həqiqətin şüurunda olmaları və qarşılaşacaqları hər iki vəziyyətdə də Allaha olan bağlılıqlarından və itaətlərindən heç bir şey itirməmələri lazımdır. Məsələn, Allah bəzi insanları zənginliklə sınayır. Bəzən kasıb biri hər hansı bir vəsilə ilə böyük bir sərvətə sahib olduğunda, bu o adamın psixologiyasını və buna bağlı olaraq da ətrafındakı insanlara qarşı olan rəftarlarını və düşüncələrini kökdən dəyişdirə bilir. Bu insanlarda dəyişən ilk şey, hər fürsətdə özlərini ön plana çıxararaq, hər

yerdə özlərindən təriflə bəhs edilməsini təmin etməyə çalışmaq olar. Çünki əldə etdikləri zənginlik səbəbiylə bir çox insanda olmayan bir xüsusiyyətə sahib olduqlarını düşünərlər. Allahın özlərinə nemət olaraq verdiyi şeyləri digər insanlara qarşı üstünlük və fərqlilik mövzusu halına gətirirlər. Etdikləri bütün bu mənasız hərəkətlərin altında nəfslərinin eqoistcə istəklərini həyata keçirmə hissi yatır. Sahib olduqlarını Allahın razılığını qazanmaq üçün istifadə etməyən bir kimsə, bunları yalnız öz nəfsini məmnun etmək üçün istifadə edəcək. Tərifdən xoşlanma, ya da digər insanlara qarşı öz-özünü təriфləmə; məhz bunlar nəfsi məmnun etməyə istiqamətli istəklərdir. Nəfs hər zaman bəyənilmək və öyünmək istəyər. Allahın razılığını qazanmaq məqsədi olmayan kəslər, yalnız digər insanların razılığını axtaracaq, bundan ötrü də əldə etdikləri və ya sahib olduqları hər şeylə öyünüb, qürur duyacaqlar. Axirəti heç düşünməyən bu insanlar üçün, əllərində olanı dünya həyatında bundan daha yaxşı bir şəkildə istifadə etmələrinin başqa bir yolu yoxdur.

Öyünmək, yalnız insanın sahib olduğu maddi zənginlikdən qaynaqlanmaz. İnsan, gözəlliyini, saçını, fiziki quruluşunu, müvəffəqiyyətini, qısacası ətrafındakı insanlardan nə mövzuda fərqli və üstün isə bunu öyünmə mövzusu halına gətirə bilir. Məsələn, uşağı keyfiyyətli bir universitetin yaxşı ixtisasını qazanmış bir ana üçün, bu vəziyyət əhəmiyyətli öyünmə mövzusudur. Etdiyi hər söhbətdə bu mövzunu dilə gətirərək, uşağının çəkdiyi çətinliklərdən, özünün ona verdiyi böyük dəstəkdən "təriflə" bəhs edər. Uşağının müvəffəqiyyətini bəhanə edərək, bu müvəffəqiyyətdən özünə də pay çıxartmağa çalışar. Təbii ki, uşağını dəstəkləmiş və ona hər mövzuda kömək etmiş ola bilər. Ancaq bunu digər insanlara bəhs etməsində təməl səbəb ümumiyyətlə, özündən "təriflə" bəhs edilməsini təmin etmək və təqdir toplamaqdır. Bunu etdiyində isə böyük bir zövq alar. Cahil cəmiyyətdə olduqca geniş yayılan bu davranış çox vaxt "qürur duymaq" adı altında da edilir. İnsanlar həqiqətdə lovğalanmaq məqsədi ilə etdikləri bu davranışın çirkinliyini bu şəkildə örtməyə çalışırlar. "Qürur duyuram" ya da "fəxr edirəm" kimi bəzi sözlərin arxasına sığınaraq səhv olan rəftarlarını məqbul bir zəminə oturtmağa çalışırlar. Halbuki bütün bunlar insanlara göstəriş etmə məqsədi güdən məqamlardır.

Cahil cəmiyyətdə geniş yayılan digər öyünmə mövzusu da "ev"lərdir. Yeni bir ev alan, bunu gözəl bir şəkildə döşəyən insanlar, dərhal yoldaşlarını çağırırlar, çünki evləri artıq sərgilənməyə layiq bir hala gəlmişdir. Evlərini başqalarına göstərərək öyünəcəkləri və təqdir toplayacaqları bir mühit meydana gətirmiş olurlar.

Bütün bunlar insanın sahib olduqlarını necə və nə üçün istifadə etməli olduğunu gərəyi kimi düşünməməsindən qaynaqlanan davranış pozuqluqlarıdır. Allah Quranda dünya həyatının bəzəklərini özləri üçün öyünmə mövzusu edən insanların necə bir son ilə qarşılacaqlarına dair hz. Musanın qövmündən olan Qarun adlı bir adamı nümunə vermişdir. Allah, Qarunun yanına böyük bir "xəzinə verdiyini" ancaq bunun qarşılığında Qarunun "qürrələnib sevincə" qapıldığını bildirmişdir:

**Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir. (Qəsas surəsi, 76)**

Qarun qövmünün ona verdiyi nəsihətə diqqət etməyərək, bu zənginliyin özünə "sahib olduğu bilik" (Qəsas surəsi, 78) səbəbindən verildiyini söyləmiş və sahib olduqlarını qövmünə qarşı üstünlük və öyünmə mövzusu halına gətirmişdir. Qarunun qövmü bu zənginliyə etina edərək belə demişdir:

**Qarun öz zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: "Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir". (Qəsas surəsi, 79)**

Qarunun başına gələn bu ibrət verici son, Qarun kimi düşünən və bu tip insanlara etina edən kəslərin, Allahın verdiyi nemətlərə nankorluq edərək öyünmənin Allah qatındakı qarşılığını görmələri baxımından olduqca əhəmiyyətlidir. Allah, Qarunun qarşılaşdığı sonu bir ayədə belə bildirmişdir:

**Biz onu öz evi ilə birlikdə yerə batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi. (Qəsas surəsi, 81)**

Qarunun başına gələnləri görən xalq isə, insana ruzini verənin və alanın yalnız Allah olduğunu, Allaha qarşı nankorcasına davranmanın necə bir nəticə doğurduğunu çox yaxşı anlamışlar. Allah bu kəslərin Allahdan başqa bir güc olmadığını belə dilə gətirdiklərini bildirmişdir:

**Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: "Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də yerə batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!" (Qəsas surəsi, 82)**

Qarun hekayəsindən də aydın olacağı kimi, insanlar Allahın özlərinə vermiş olduğu nemətləri, digər insanların rəğbətini qazanmaq üçün "öyünmə" mövzusu halına gətirdikləri halda, qarşılaşacaqları son Qarununkundan daha fərqli olmayacaq. Allah nankor əxlaq göstərən insanlara verdiyi nemətləri hər an geri ala bilər. Məsələn, bir insanın, müvəffəqiyyətiylə öyündüyü uşağı anidən pis nəticələr almağa başlaya bilər, ya da sahib olduğu

gözəl eviylə öyünən birisi ani bir zəlzələ nəticəsində evini itirə bilər və ya bir müsadirə nəticəsində bütün qiymətli əşyalarını itirə bilər. Ancaq bu nöqtədə də bəzi insanlar bu yaşadıqlarını bir başqa yanlış baxış aspekti ilə qiymətləndirərlər. Başlarına gələn bütün bu hadisələri öz uydurduqları batil bir anlayış olan "bəd nəzərə" bağlayarlar. İrəli sürdükləri bu yanlış məntiqə görə, özlərinə insanların bəd nəzəri dəymiş və hər şeylərini buna görə itirmişlər. Bu batil inancları çəkdikləri əzabın və duyduqları narahatlığın şiddətini daha da artırar. Halbuki həqiqətdə nəzər deyə bir şey yoxdur. Başlarına gələn bu itki, Allahın onlara etdikləri səhvi görmələri üçün yaratdığı bir xəbərdarlıq ola bilər. Allah bir ayədə belə buyurur:

**Onlar ildə bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi? Yenə də tövbə etmir, ibrət almırlar. (Tövbə surəsi, 126)**

Ancaq bu həqiqətin fərqində olmadıqları üçün yaşadıqları bu sıxıntılar daima təkrarlanır. Bu da onların bədbəxt bir dünyada yaşamalarına səbəb olur. Zərərini gördükləri halda, bu davranışlarına israrla davam etmələri, bu insanların içlərindəki "təqdir edilmə" və "bəyənilmə" istəklərinin böyüklüyünü ortaya qoyur. Allah Quranda bu kəslərin sahib olduqlarıyla öyünmə istəklərinin onları "özlərindən çıxardacaq" qədər güclü olduğunu bildirmişdir:

**Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki, gömülməklə qəbirləri ziyarət etdiniz. (Təkasur surəsi, 1-2)**

İnsanlardakı bu öyünmə psixologiyası o qədər güclüdür ki, yalnız təqdir görmək və tərif olunmaq məqsədiylə, heç etmədikləri bir şeyi etdiklərinə dair yalan söyləyərlər. Allah belə bir rəftarın qarşılığının əzab olacağını bildirərək bu insanları xəbərdar edir:

**Törətdikləri əməllərdən fərəhlənən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlara acılı-ağrılı bir əzab hazırlanmışdır. (Ali İmran surəsi, 188)**

İnsanların sərgilədikləri bu pis davranış, özlərini olduğu qədər, bu kəslərin ətraflarındakı insanlarla olan əlaqələrinə də mənfi istiqamətdə təsir edir. Ümumiyyətlə, insanlar davamlı özünü tərifləməyə və isbat etməyə çalışan insanlarla birlikdə olmaqdan sıxıntı duyarlar. Bu vəziyyət zaman keçdikcə insanın ətrafıyla olan əlaqələrinin soyumasına hətta tək qalmasına səbəb ola bilər. Bu səbəblə, hər insan bu rəftar üzərində düşünməli və öz öyündüyü xüsusiyyətlər də daxil olmaq üzrə hər şeyin Allaha aid olduğu bir dünyada yaşadığını heç

ağlından çıxarmamalıdır. Öyünmənin, istər özünə, istərsə də ətrafındakılara olan mənfi təsirlərini görməyə çalışmalı və Allaha verdiyi nemətlər üçün davamlı şükür edərək bu Qurandan kənar rəftardan özünü təmizləməlidir.

## Hər şeyə "çoxalma" ehtirasıyla bağlanarlar

Cahil insanların inanclarına görə, xoşbəxt bir həyat sürmək, bu həyatdan ən yaxşı şəkildə istifadə edib, ola biləcək ən çox mənfəəti əldə edə bilməklə mümkündür. Allah Quran ayələrində bizə cahil insanların "mallarda və uşaqlarda çoxalma ehtirası" (Hədid surəsi, 20) içərisində yaşadıqlarını bildirir. Bu "çoxalma" istəyi, insanların davamlı olaraq nemətlərin daha yaxşısına, daha üstününə və daha keyfiyyətlisinə sahib olma ehtiraslarından qaynaqlanır. Bir əvvəlkinə görə nə qədər çoxunu və gözəlini əldə etsələr, o dərəcə xoşbəxt ola biləcəklərini ümid edirlər. Məsələn, gözəl bir avtomobil alan biri ilk zamanlar bunu böyük bir zövq və həyəcanla istifadə etməyə başlayır. İstədiyi avtomobilə qovuşmanın sevincini və şövqünü yaşayır. Lakin qısa bir müddət sonra bu sevinci və şövqü yerinə sıxıntı buraxar, çünki daha dəbdəbəli və daha lüks bir avtomobil görər və buna görə əlindəkini bəyənməz. Zamanla tək məqsədi bu yeni avtomobili ala bilmək olacaq. Bu yalnız avtomobil deyil, insanın xoşuna gələn hər şey üçün keçərli ola bilər. Cahil cəmiyyətdə insanlar sevdikləri, xoşlandıqları hər şeyə, ən çox sahib olma arzusu duyarlar. Heç bir zaman azıyla kifayətlənməzlər, xoşbəxt ola bilmələrinin ancaq hər şeyin "ən çoxuna sahib olmalarıyla" mümkün ola biləcəyini güman edirlər.

Halbuki dünyadakı hər şey, əvvəlki hissədə də izah edildiyi kimi, yalnız bir bəzəkdir. Ancaq əgər insan bu bəzəklərin həqiqi olduğunu zənn edər və bütün bunları əldə etmə yarışına girəcək olsa, əsl yaradılış məqsədindən uzaqlaşacaq. Bu nöqtədə artıq əsl məqsədi yalnız nəfsinin istəklərini reallaşdırmaq olacaq. Halbuki dünyadakı hər şey qüsurlu və əskikdir və insanın hər zaman hər şeyin daha yaxşısı, daha gözəli və daha keyfiyyətlisi ilə qarşılaşma imkanı vardır. Bu səbəblə nəfsin istəkləri heç bir zaman sona çatmayacaq, insan da heç bir zaman əlindəkilərlə xoşbəxt ola bilməyəcək. Bu səbəbdən bu şəkildə hərəkət etmələri onları xoşbəxtlik yerinə daha da böyük bir bədbəxtliyə sürüyəcək.

Cahil insanların bu bədbəxt halları, onların Allaha şükür etmələrini də əngəlləyər. Çünki bu ehtiras və hərislikləri üzündən Allahın özlərinə verdiyi nemətlərə qarşı nankorcasına bir rəftar göstərərlər. Onlar üçün bütün bu nemətlərin özlərinə nə məqsədlə və kim tərəfindən verildiyi heç əhəmiyyətli deyil, onsuz da bunu heç düşünməzlər də. Əhəmiyyətli olan, sevdikləri, bəyəndikləri hər şeyə ən qısa zamanda sahib olmaları və bunların sayını davamlı olaraq artıra bilmələridir. Bu insanların vəziyyəti, heç dolmayan altı dəlik su vedrəsinə bənzədilə bilər. Davamlı su töküldüyü halda, dolan su altdakı dəlikdən dərhal axıb gedəcək. Dəlik bağlanılmadığı təqdirdə vedrənin dolması qeyri-mümkündür. İnsan əlindəkilərə şükür

etməsini, bunlarla xoşbəxt olmasını bilmədiyi müddətcə özünə daha nə qədər çox nemət verilirsə verilsin, ruhunda heç bir dəyişiklik olmayacaq. Hər şeyin ən çoxuna da sahib olsa, yenə daha çoxuna tamah etdiyi üçün əlindəki gözəlliklərin qədrini bilməyəcək, bunların zövqünü dada bilməyəcəkdir. Allah bu kəslərin vəziyyətini Quranda bu şəkildə bildirir:

**Məni yaratdığım kimsə ilə tək burax; Mən ona bolluca var-dövlət bağışladım, qayğısına qalan oğullar verdim və onu hər cür imkanlarla təmin etdim. Bunlara baxmayaraq, o, yenə də əlavə etməyimi arzulayır. (Müddəssir surəsi, 11-15)**

Allahın bir başqa ayədə “O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız onu sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, həqiqətən, nankordur.” (İbrahim surəsi, 34) sözləriylə bildirdiyi kimi, Allah insana hər istədiyi şeyi vermişdir. Ancaq insanlardakı nankorluq duyğusu Allaha gərəyi kimi şükür etmələrini əngəlləyir. Allah Quranda ancaq şükür edən qullarına nemətini artıracağını bildirmiş, nankorluq edənləri isə əzabıyla xəbərdar etmişdir:

**Rəbbiniz belə buyurmuşdu: “And olsun ki, əgər şükür etsəniz sizə artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım şiddətlidir.” (İbrahim surəsi, 7)**

İnsanların bir çoxunun dünya nemətlərinə qarşı olan bu hərislikləri, həm özlərinə, həm yaşadıqları cəmiyyətə böyük zərər verir. Daima hər şeyin yenisi və yaxşısı arzulandığından, insanların bu istəkləri reallaşmadığında duyacaqları sıxıntı və narahatlıq da çox olur. Bu kəslər, dünya ehtirasları səbəbiylə, Allahın ayədə bildirdiyi kimi, “Malı yığma ehtirası və hərisliyi ilə sevərlər.” (Fəcr surəsi, 20) Bu şiddətli bağlılıqlarından dolayı özlərindən maddi bir kömək istəndiyində, ya sahib olduqları mallarını paylaşmaları lazım olduğunda, Allahın “həqiqətən o var dövlətə çox hərisdir” (Adiyat surəsi, 8) ayəsində bildirdiyi kimi, olduqca eqoist və sərt bir mövqe sərgiləyərlər. Çox vaxt saxta olaraq yalnız az bir şey verib geri qalanını yenə möhkəm bir şəkildə əllərində tutarlar. Buna bağlı olaraq cəmiyyətdə zəngin olan daha da zənginləşərkən, kasıb olan daha da kasıblaşar. Bu da ictimai əmin-amanlığın və ədalətin təmin edilməsində böyük bir maneə yaradır.

İnsanlardakı bu mal-dövləti çoxaltma ehtirası, Allahın Quranın bir çox ayəsində yanlışlığını bildirdiyi rəftar pozuqluğu olan '“xəsisliyə” gətirib çıxardır. Bu əxlaqı yaşayan insanlar əsas olaraq öz mallarının çoxalmasını məqsəd əldə etdikləri üçün xəsislik etməyi özlərinə prinsip hesab etmişlər. Bu çirkin və eqoist davranışlarına baxmayaraq, bütün yığdıqlarını da özləri üçün bir “xeyir” zənn edərlər. Yığıb saxlamaq bu insanlar üçün ehtiras halını almışdır. Halbuki Allah dünya həyatında bəzi insanları bir imtahan olaraq mal-dövlətli, zəngin edir. Bu səbəbdən qazandıqlarını xeyir üçün istifadə etməyənlər, bunun bir qazanc

olduğunu sanmaqla böyük səhv edirlər, çünki bunlar axirət günü onlara atəş olaraq geri dönəcək. Allah bu həqiqəti Quranda belə bildirir:

**Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edənlər elə güman etməsinlər ki, bu, onların xeyrinədir. Əksinə, bu, onlar üçün pisdir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır. (Ali İmran surəsi, 180)**

Bu kəslərin bir xüsusiyyəti də, Allahın "Onlar xəsislik edərlər, insanlara da xəsislik etməyi əmr edərlər ..." (Nisa surəsi, 37) ayəsiylə bildirdiyi kimi, digər insanları da bu çirkin rəftarı tətbiq etməyə təşviq etmələridir. Bununla bərabər, kimsə özlərindən bir şey istəməsin deyə sahib olduqlarını da ətraflarındakı insanlardan gizlədərlər. Əsl istədikləri, əldə etdiklərini həmişə artırmaq və yığmaq olduğundan, bunları başqaları üçün istifadə etmək istəməzlər.

İnsanların dünya həyatının həqiqi mahiyyətini anlamamaları, onları səhv və pis davranışlar göstərməyə və həmişə mənfəətini düşünməyə sövq edir. Bu yanlış məntiqlə hərəkət etdikləri təqdirdə mənfəətli və qazanclı çıxacaqlarına özlərini inandırmışlar. Amma sıxıntı və narahatlıqdan başqa bir şey qazanmazlar. Buna baxmayaraq bu davranışlarına böyük bir istək və ehtirasla davam edərlər. Dünya həyatına aldandıqları üçün, həyatları boyunca etdikləriylə xoşbəxt və hüzurlu olmağı gözləyirlər. Amma əldə etdikləri bədbəxt və sıxıntılı həyatdan başqa bir şey olmaz. Allah yaşadıqları bu həyatın həqiqi üzünü görüb anlaya bilmələri üçün, insanların dünya həyatında qazandıqlarını yağan bir "yağışın" təsirinə bənzətmiş və insanları bu şəkildə xəbərdar etmişdir:

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. Kimisini axirətdə şiddətli əzab, kimisini də Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

## Allahdan başqa ilahlar qəbul etmişlər

İnsanların bədbəxt olmalarının ən əhəmiyyətli səbəblərindən biri də Allaha şirk qoşmaları, Allahdan başqa ilahlar qəbul etmələridir. Bir qisim insanlar Allaha şirk qoşmağın Qurandakı qarşılığının tam olaraq şüurunda deyildirlər. Şirk qoşmaq, Allahın Zatına aid

olan sifətləri başqa cisim və varlıqlar üzərində varmış kimi görmək və bu səbəblə yalnız Allaha qarşı hiss edilməli və göstərilməli olan hörməti, rəftar və hərəkətləri bu cisim və varlıqlara göstərməkdir. Şirk, Allahın Zatına qarşı edilən böyük bir "böhtan" və "nankorluq"dur. Allaha qarşı edilən bu böyük "böhtan" və "nankorluğun" qarşılıqsız qalacağını düşünmək böyük bir aldanış olar. Allaha şərik qoşmaq bir insanın edə biləcəyi ən böyük qəflət və səhvdir. Allah Quranda, Özünə şərik qoşulmasını "böyük bir zülm" olaraq təsvir edir və əsla bağışlamayacağını buyurur. Buna görə şirk çox diqqət edilməli və şiddətlə çəkinilməli olan bir davranışdır:

**Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür.** (Nisa surəsi, 116)

Allahın şirk qoşan insanlara dünya həyatında verdiyi qarşılıqdan biri də bədbəxtlikdir. Yaxşı, şirk insanı necə sıxıntıya salar, ya da insan yalnız Allaha qarşı hiss etməli olduğu duyğu və düşüncələrini başqa varlıqlara yönəldərsə nə olar?

Cavab aydındır. Belə bir vəziyyətdə insanın həyatında minlərlə saxta ilah meydana gələr. Məsələn, insan qorxu hissini bir başqa insana yönəltdiyində qarşısındakı insana Allahdan müstəqil bir güc və iradə vermiş olar. Bu vəziyyətdə qarşısındakının ona pislik və ya zərər verə biləcəyini sandığından, onun dediyi hər şeyi etməyə, ona itaət etməyə hətta onun razılığını və məmnuniyyətini qazanacaq şəkildə davranmağa çalışacaq. Göründüyü kimi, bu duyğunun Allahın Zatı yerinə bir insana edilməsi, insan üzərində formalaşdırıcı təsir meydana gətirir. Bu da insanın özündən fərqli olmayan bir başqasını Allaha şirk qoşmasına səbəb olar. Halbuki qorxu duyulmağa, itaət edilməyə layiq olan yalnız Allahdır. Rəbbimiz bir ayəsində bu şəkildə buyurmuşdur:

**Məgər Allah Öz qulunu qane etmirmi? Onlar isə səni Ondan başqaları ilə qorxudurlar. Allahın zəlalətə saldığı kimsəyə isə doğru yol göstərən olmaz.** (Zumər surəsi, 36)

Bu səbəbdən insan yalnız Rəbbimizin əmr və qadağalarına əməl etməli, Onun razılığını və sevgisini qazanmağa çalışmalıdır. Əks halda, böyük bir sıxıntı və narahatlıq yaşayacaq. Allah qorxusu, insanı Allaha daha da yaxınlaşdıran, Allah sevgisiylə birlikdə inkişaf edən, Allahın razılığını daha çox qazanma istiqamətində təşviq edən "faydalı" bir qorxudur. Şirk qoşmanın gətirdiyi qorxu isə insanı sıxıb narahat edən, şirk qoşması səbəbiylə insanı cəhənnəmə sürükləyə biləcək "zərərli" bir qorxudur. Allah, haqqında heç bir dəlil nazil etmədiyi şeylərə şirk qoşan bu insanların ürəklərinə qorxu salacağını Quranda belə bildirmişdir:

**Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə, kafirlərin qəlblərinə qorxu salacağıq. Onların sığınacaqları yer Oddur. Zalımların məskunlaşacağı yer necə də pisdir! (Ali İmran surəsi, 151)**

Cahil cəmiyyətlərdə yanlış şəkildə istiqamətləndirilən bir başqa duyğu da sevgidir. Sevgi Allahın insanların ürəklərinə vermiş olduğu çox gözəl bir duyğudur. Lakin bu gözəl duyğu doğru bir şəkildə istiqamətləndirilmədiyi təqdirdə, insanın özü üçün tamamilə dərd və acı mənbəyindən başqa bir şey olmayacaq. Belə ki, insanların mənfəət ehtirasları bütün əxlaqi dəyərlərin önünə keçdiyindən, sevgi hissi də bu insanlar üçün mənfəət əldə etmə vasitəsi halına çevrilmişdir. Qarşılıqsız bir şəkildə sevmələri mümkünsüzdür. Belə bir mühitdə insanlar bir-birlərini, o adamdan əldə edə biləcəkləri mənfəətlərə görə sevərlər. Ancaq bundan ötrü də davamlı olaraq zərərə məruz qalarlar. Sevgi, şüursuz bir şəkildə, yanlış yerlərə və yanlış kəslərə göstərildiyi müddətcə, insan məyus olmaqdan heç vaxt xilas ola bilməz.

Sevgiyə və sevilməyə əsl layiq olan isə sonsuz güc sahibi olan Allahdır. İnsanı yoxdan var edən, istədiyi hər şeyi ona verən, onu yaradan, yedizdirən, içirdən, geyindirən, qoruyan və ona müxtəlif gözəlliklər verən Allahdır. Məqbul olan sevgi Allahı və Onun təcəllilərini əks etdirən, Onun göstərdiyi yola tabe olan varlıqları sevməkdir.

Lakin şirk qoşan bir kimsə üçün bu mümkün deyil. İçində olduğu şüursuzluq onun sevilməyə layiq olmayan varlıqlara kor-koranə bir sevgi bəsləməsinə səbəb olur. Allah inkarçıların bu vəziyyətini Quranda belə bildirir:

**İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər. (Bəqərə surəsi, 165)**

Şirk qoşmağın bir başqa növü isə, insanın ən çox özünü sevməsi, özünün ən güclü, ən ağıllı və ən gözəl olduğuna inanmasıdır. Belə bir insan öz düşüncələrinin doğru olduğunu müdafiə edərək, bunların ardınca gedər. Qısacası, özünü nəhəng aynasında görər. Bu insanın ilahı isə özüdür; öz özünü ilah qəbul etmişdir (Allahı tənzih edirik). Allah bu insanların vəziyyətini bir ayədə belə xəbər verir:

**Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən? (Furqan surəsi, 43)**

Şirk qoşan insan, insanları və varlıqları ilah qəbul etdiyindən təbii olaraq həyatını bunların istəklərinə görə müəyyənləşdirəcəkdir. Çünki bu şəkildə xoşbəxt və hüzurlu ola biləcəyini zənn edir. Həmçinin bu saxta ilahların məmnuniyyətini, təqdirini və sevgisini qazanması da çox əhəmiyyətlidir. Xoşbəxtliyi bu saxta ilahların məmnuniyyətinə bağlı olduğundan, hər biri üçün ayrı bir hissəyə bölünər. Özünə birdən çox saxta ilah qəbul etdiyi üçün, hər biri üçün ayrı bir şəxsiyyət inkişaf etdirər. Bu, insana dözülməz bir sıxıntı verdiyi kimi, etmək istəmədiyi şeyləri də etmək məcburiyyətində buraxar. Halbuki yalnız Allahı ilah qəbul edən bir insan isə, yalnız Onun sözünə uyacaq, yalnız Onun razılığını, sevgisini qazanmağa çalışacaq, bütün gücünü və ağlını bunun üçün istifadə edəcək. Bu iki insan tipi arasındakı fərqi Allah Quranda çox hikmətli bir örnəklə açıqlamışdır:

**Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bunu bilmir. (Zumər surəsi, 29)**

**Bir zaman o, atasına demişdi: "Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? (Məryəm surəsi, 42)**

Allahın ayədə ifadə etdiyi kimi, şirk qoşan insan həm özünə sıxıntı verən bu psixologiya içində yaşamaq məcburiyyətində qalır, həm də etdiyi heç bir şeyin tam qarşılığını ala bilməyərək, gözlədiyi maraq və təqdiri görə bilmir. Bunun səbəbi də insanların bir-birlərinə olan davranışlarında təməl olaraq öz mənfəətlərini və maraqlarını ön planda saxlama istəkləridir. Bir insanın kömək gözlədiyi, hər dediyini etdiyi, sevgisini, məmnuniyyətini qazanmağa çalışdığı kəslər, mənfəətləri və istəkləri gərəyi, istədiyi heç bir şeyi ona vermir və ya verə bilmirlər. Hətta yeri gələndə ona düşmən olub onun pisliyini istəyə biləcək qədər dəyişə bilirlər. Bu da insanın içində olduğu narahatlığı və sıxıntını daha da ağırlaşdıran başqa bir amildir. Şirk və onun gətirəcəyi bədbəxtlikdən xilas olmanın yolu şirki dərin düşünmək və Allahdan başqa bir güc olmadığını görərək yalnız Onun razılığına yönəlməkdir.

İnsanın şirk qoşduğu heç bir şeyin əslində özünə aid bir gücü, gözəlliyi, qabiliyyəti və ağlı yoxdur; bütün bunların tək sahibi Allahdır. Buna görə insan çətinlik içində qalıb kömək istədiyi zaman, əslində ona kömək edən Allahdır. "Düşünürəm" dediyi zaman düşündüyü şeyi ona ilham edən Allahdır. Hər hansı bir hərəkət etdiyi zaman əslində ona bu hərəkəti etdirən Allahdır. Yediyi gözəl bir yeməyi, ruzini və ləzzəti yaradan Allahdır. Yeməyin qarşısına gəlməsini təmin edən, ona süfrə hazırladan yenə Allahdır. Xəstələndiyində onu xəstə edən əslində mikrob deyil, Allahdır. Ona şəfa verib yaxşılaşdıracaq olan da həkim deyil, Allahdır. Çaxmaqla bir kağız yandırdığı zaman, kağızı yandıran çaxmaqdakı atəş deyil, Allahdır. Gözəl bir paltar geydiyində ona bu gözəlliyi verən Allahdır. Bu nümunələri çoxaltmaq mümkündür. Səhv başa düşülməməli olan bir nöqtə daha vardır. Əlbəttə ki, insan xəstələndiyində həkimə

gedəcək. Ancaq özünü sağaldanın həkim olmadığını da çox yaxşı qavramalıdır. Ya da evində yemək bişirən adam insanın anası ola bilər. Ancaq yeməyi bişirdən və özünə yedizdirən səbəbləri yaradan Allahdır. Hadisələr arasında səbəb nəticə əlaqəsi vardır. Ancaq Allah nəticəni və nəticəyə vəsilə olan səbəbləri də tək-tək yaradır. İnsanın bu əhəmiyyətli həqiqəti çox yaxşı düşünməsi və qavraması lazımdır. Heç kimsənin Allahdan müstəqil olaraq hər hansı bir şeyi edəcək gücü, qabiliyyəti və ağlı yoxdur. Hər şeyin sahibi Allah olduğu üçün, hər şeyi edən və etdirən də yalnız Allahdır. Allah, insanın saxta ilah qəbul etdiyi varlıqların əslində heç bir güclərinin olmadığını bir çox ayəsi ilə bizlərə bildiir:

**Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri Allaha şərik qoşurlar? Bütlər nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər. Siz onları doğru yola çağırsanız, sizin ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da onlar üçün fərqi yoxdur. (Əraf surəsi, 191-193)**

**Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: "Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! (Əraf surəsi, 194-195)**

Allah bir başqa ayəsində bu insanların axirət günündə bu həqiqəti öz ağızları ilə etiraf etdiklərini belə bildirir:

**Sonra da onlara deyiləcəkdir: "Haradadır şərik qoşduqlarınız - Allahdan başqa ibadət etdikləriniz?" Onlar deyəcəklər: "Onlar bizi qoyub qaçdılar. Xeyr, biz öncə də heç bir şeyə ibadət etmirdik!" Allah kafirləri beləcə azğınlığa salar. (Mömin surəsi, 73-74)**

Bu səbəbdən insanın heç bir gücü olmayan bu varlıqlardan kömək istəməsi, onların istəkləri və məmnuniyyəti üçün səy göstərib, bütün həyatını onlara görə nizamlaması, həqiqətən də şirk qoşan bir insanın nə qədər böyük bir qəflət və aldanış içində olduğunun ən açıq dəlilidir. Yaxşı o zaman bu insanlar nəyə tabe olur və nəyə görə hərəkət edirlər? Bu problemin cavabını Allah Quranda bizə belə bildirir:

**Bilin ki, göylərdə və yerdə olanların hamısı Allahındır. Allahı qoyub başqa şəriklərə yalvaranlar nəyin ardınca gedirlər? Onlar yalnız zənnə uyur və ancaq yalan uydururlar. (Yunis surəsi, 66)**

Görüldüyü kimi, bu insanlar həqiqətə deyil, tamamilə öz zənn və təxminlərinə uyur və bunlara görə hərəkət edirlər. Bütün bu saxta ilahlarını ortaya çıxaran öz zənn və təxminləridir. Bu zənn və təxminləri haqdan yana heç bir fayda təmin etmədiyi kimi, onların itkilərini daha da artıracaq və Allahın "**Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan."** (Zumər surəsi, 65) ayəsiylə bildirdiyi kimi, etdikləri hər şey və göstərdikləri bütün səy boşa çıxacaq. Peyğəmbərimiz (s.ə.v.) də insanların Allahdan başqalarından mədət ummalarının özlərinə heç bir faydası olmayacağını xəbər vermişdir:

**"... Bir şey istədikdə Allahdan istə. Kömək istəyəcəksənsə, Allahdan kömək dilə. Çünki qullar, Allahın yazmadığı bir məsələdə sənə faydalı olmaq üçün bir yerə gəlsələr, bu faydanı təmin etməyə qadir ola bilməzlər. Allahın yazmadığı bir zərəri sənə vermək üçün bir yerə gəlsələr, buna da qadir ola bilməzlər."** *(*Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16-cı cild, Akçağ Nəşrləri, Ankara, 1992, s. 314*)*

Ancaq bəzi insanlar şirk qoşmağın nə qədər böyük bir təhlükə və aldanış olduğunun fərqində deyillər. Həyatları boyunca Allaha şirk qoşaraq yaşayan bu insanlar, şirk qoşduqları bütün varlıq, ya da cisimlərin özlərini necə üz üstə buraxıb getdiklərini, boş vədlərlə aldatmaqdan başqa bir şey olmadıqlarını və heç bir gücləri olmadığını axirət günü anlayacaqlar. Allah bu kəslərin axirətdə yaşayacaqları peşmanlığı və psixoloji çöküntünü Quran ayələrində belə bildirir:

**O zaman, tabe olunmuş başçılar tabe olanlardan uzaqlaşacaq, hamısı əzabı görəcək və aralarındakı əlaqələr kəsiləcəkdir. Tabe olanlar deyəcəklər: "Əgər bizim üçün dünyaya dönüş olsaydı, indi onlar bizdən uzaqlaşdıqları kimi biz də onlardan uzaqlaşardıq!" Beləcə, peşman olsunlar deyə Allah onlara özlərinin əməllərini göstərəcək və onlar heç vaxt Cəhənnəm odundan çıxa bilməyəcəklər. (Bəqərə surəsi, 166-167)**

Şirk qoşan, özlərinə Allahdan başqa vəlilər qəbul edən insanlar həyatları boyunca boş bir xoşbəxtlik gözləyəcəklər. Allahı vəli və dost qəbul etmədikləri üçün həyatları boyunca həqiqi mənada rahatlığı, hüzuru və xoşbəxtliyi yaşayamayacaqlar. Allah bu kimi insanlara, etdikləri nankorluğun qarşılığını bədbəxtlik olaraq verir. Bu əsla dəyişməyəcək bir həqiqətdir. İnsanın bu vəziyyətə düşməsinin səbəbi isə yalnız özüdür. İnsan bədbəxtliyini səbəbini özündə axtarmalı və düşünməlidir. Allah bir ayəsində, insanların öz əməllərinə görə bədbəxt olduqlarını xatırladır:

**Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər. (Yunis surəsi, 44)**

İnsan şirkdən xilas ola bilmək üçün Allaha könüldən yönəlməli, vicdanıyla düşünməli, Allahın gücünü və qüdrətini təqdir etməlidir. Hz. İbrahimin vicdanına uyaraq Allaha yönəlməsi, Allahın gücünü və qüdrətini dərk etməsi, bu mövzuda bütün insanlara nümunə ola biləcək xüsusiyyətdədir. Allah Quranda hz. İbrahimin bu rəftarını belə bildirir:

**Beləcə, Biz, İbrahimə göylərin və yerin səltənətini göstərdik ki, yəqinliklə inananlardan olsun. Gecənin qaranlığı onu bürüdükdə o, ulduz görüb: "Bu mənim Rəbbimdir!" – dedi. O batdıqda isə: "Mən batanları sevmirəm!" – dedi. Doğan ayı gördükdə: "Bu mənim Rəbbimdir!" – dedi. O batdıqda isə: "Əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən azmış adamlardan olardım" – dedi. Doğan günəşi gördükdə: "Bu mənim Rəbbimdir, bu daha böyükdür!" – dedi. O batdıqda isə dedi: "Ey qövmüm! Həqiqətən, mən sizin Allaha şərik qoşduqlarınızdan uzağam! Doğrudan da mən, hənif olaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm" (Ənam surəsi, 75-79)**

Əgər insan, həyatı boyunca Allahın razılığını qazanmaq üçün çalışar, hər şeyi Allahdan istəyər, məsuliyyətlərini səmimi olaraq yerinə yetirərsə, Allahın hər işində ona kömək edəcəyini və onu hər cür çətinlikdən qurtaracağını mütləq görəcək. Allah Quranda möminlərə olan köməyini belə müjdələmişdir:

**De: "Ondan və bütün başqa sıxıntılardan sizi Allah xilas edir. Sonra siz yenə də şərik qoşursunuz". (Ənam surəsi, 64)**

**... Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir. (Həcc surəsi, 40)**

**Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Əgər O, sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər? Qoy möminlər Allaha təvəkkül etsinlər! (Ali İmran surəsi, 160)**

## Yanlış qədər inancları vardır

Dövrümüzdə insanlara, “Qədər nədir?” deyə bir sual yönəldilsə çox az adamdan doğru cavab gələcəkdir. Bu vəziyyət insanların qədərin tam olaraq nə mənanı verdiyini bilmədiklərini göstərir. Qədərin həqiqi mənasını bizə hər mövzuda doğrunu göstərən Qurandan öyrənməmələri, qədər anlayışının onlara qazandıracağı rahatlıq və hüzurdan da məhrum qalmalarına səbəb olur.

Qədər, Allahın yaratdığı hər canlının keçmişdə etdiyi və gələcəkdə edəcəyi hər şeyi, hər hərəkəti, düşüncəni, danışmağı ən incə təfərrüatına qədər bilməsi və nəzarət etməsidir. İnsanlar daha doğulmadan, həyatları boyunca görəcəkləri və yaşayacaqları hər şey Allah qatında təyin edilmiş və planlanmışdır. Allah, hər şeyi bir qədər daxilində yaratdığını **“Heç şübhəsiz, Biz hər şeyi qədər ilə yaratdıq”** (Qamər surəsi, 49) ayəsiylə bildirir. İnsan həyatı boyunca Allahın onun üçün istədiyi və istəmədiyi hadisələrlə qarşılaşdığında, tamamilə Allahın dilədiyi bir şəkildə həyatını davam etdirir. Allah bu gerçəyi bizə belə bildirir:

**Onların etdiyi hər şey əməllərinin yazıldığı kitablarındadır. Hər bir kiçik və böyük əməl yazılmışdır. (Qamər surəsi, 52-53)**

Allahın ayədə ifadə etdiyi kimi, bütün insanlar tamamilə Allahın nəzarəti və hakimiyyəti altında yaşayırlar. Bir başqa ayədə isə Allah, bütün insanların Rəbbimizin təyin etdiyi qədər istiqamətində həyat sürdüklərini bu sözlərlə xəbər verir:

**Onları siz öldürmədiniz, Allah onları öldürdü. (Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı ki, möminləri Öz tərəfindən yaxşı bir sınaqdan keçirtsin. Həqiqətən, Allah Eşidəndir, Biləndir. (Ənfal surəsi, 17)**

Bu səbəblə, insanın dilədiklərini dəyişdirməsi, taleyindən kənara çıxması mümkün deyil. İnsanların qədərləri, qədərləri daxilində qarşılaşdıqları hər şey və verdikləri hər reaksiya, Allahın əmridir. Allah bu həqiqəti **“... Allahın əmri əzəldən müəyyən edilmiş bir hökmdür”** (Əhzab surəsi, 38) ayəsiylə bildirmişdir. Buna görə bütün insanlar qədərə təslim olmaq vəziyyətindədirlər. İnsan daxil bütün canlılar Allahın təyin etdiyi qədərə görə həyatlarını yaşayırlar.

Bu izah etdiklərimiz, insanın xoşbəxt ola bilməsində, hər şərtdə hüzurlu və rahat bir şəkildə davranaraq, sabit bir ruh halına sahib olmasında əhəmiyyətli rol oynayır. Qədərə təslim olmanın insana verəcəyi rahatlıq və hüzuru daha dəqiq görmək üçün, qədərə inanıb təslim olan və qədərə iman gətirməyən iki insanın, bir hadisə qarşısında verəcəkləri reaksiyaları müqayisə edərək araşdıraq. Bu əhəmiyyətli hadisənin bütün gənc insanların, həyatlarının dönüş nöqtəsi olaraq gördükləri universitet imtahanları olsun. Bəhs etdiyimiz iki adamın da bu imtahana girəcəyini fərz edək. Bu iki adamın da qədərə olan baxış aspektləri bir-birlərindən çox fərqli

olduğu üçün, yaşayacaqları imtahan psixologiyasının da bu iki adam üzərindəki təsiri olduqca fərqli olacaq. Allahın onun üçün yaratdığı qədərə təslim olan adam, imtahan əsnasında edəcəyi səhvlərin və nəticənin, daha imtahana girmədən Allah qatında müəyyən olduğunu və Allahın bütün bunları bir hikmət üzərinə yaratdığını bildiyindən, imtahanın səbəb ola biləcəyi stress və gərginlikdən uzaq olacaq. Çünki imtahan əslində qədərində olub bitmişdir. İnsan sadəcə imtahana girərək bunun nəticəsini görməyi gözləyəcək. İmtahan nəticəsinə müdaxilə edə biləcək Allahdan başqa bir güc olmadığının şüurundadır. Alacağı imtahan nəticəsi yaxşı, ya da pis də olsa, Allahın hər şeyi xeyirlə yaratdığını bilməsi imtahandan ötrü sıxıntı, ya da stressə qapılmasını əngəlləyər. Allaha olan təvəkkül və təslimiyyəti səbəbiylə imtahandan çıxacaq yaxşı, ya da pis hər nəticəyə könüldən razı olar. Çünki bunu Allah diləmişdir.

Belə bir insan həyacanlanmayıb, stressə girmədiyi üçün, bütün bunların özünə verəcəyi zərər və itkilərdən da uzaq qalar. Çünki həyəcanlı və stressli bir insan rahat ola bilməz, diqqətini toplaya bilməz, biliyini yaxşı istifadə edə bilməyib, asanlıqla səhv edə bilər. İnsanın əhəmiyyətli bir imtahanda bu kimi bir ruh halı içərisində olmasının, imtahanındakı müvəffəqiyyətinə də mənfi istiqamətdə təsir edəcəyi açıqdır. Bu kimsə qədərə olan etibarı sayəsində həm imtahan psixologiyasının gətirdiyi mənfi yükdən uzaq qalacaq, həm də imtahanda müvəffəqiyyətli olma ehtimalı artacaqdır.

Digər adamın vəziyyətinə baxdığımızda, qarşılaşdığımız mənzərənin olduqca fərqli olduğunu görərik. Bu adamın qədərə qarşı təslimiyyəti və etibarı olmadığı üçün, hər şeyi edənin özü olduğunu, hər şeyin öz nəzarəti altında baş verdiyini düşünəcək. Belə əhəmiyyətli bir imtahanda bunu düşünmənin gətirəcəyi yük isə olduqca ağır olacaq. Bu səbəbdən bu ağır yük altından qalxa bilməyərək, böyük bir stress və gərginliyə qapılar. Öz düşüncəsinə görə bu imtahanı qazanıb qazanamaması tamamilə onun əlindədir. İmtahanı qazanmaq üçün aylarla çalışıb vaxt sərf etdiyindən, əgər imtahanı itirsə, bütün bunların boşa gedəcəyi qorxusu və çətinliyi də bu adama ayrı bir kədər qaynağı olar. Qədərə inancı olmadığından, hiss edəcəyi gərginlik və stress, imtahanına mənfi istiqamətdə təsir edəcək. Diqqətini yığa bilməyəcək, bəlkə bildiyi sualları edə bilməyəcək, etsə belə cavab kağızına səhv işarələyəcək. Özü üçün zəruri əhəmiyyət daşıyan bu imtahanı bəlkə də yalnız stress və çətinliyə görə itirəcək. Belə bir vəziyyətə düşən bir kimsənin, hadisələrə iman gözü ilə baxmadığı müddətcə, kədərə qapılıb, pessimist olmaması qeyri-mümkündür. Hətta adam belə bir vəziyyətdə ciddi depressiyalara belə düşə bilər. Baş verən bütün hadisələrin səbəbinin özü olduğunu düşündüyü üçün, çətinliyi və əzabı daha da artacaq. Qədərə tabe olmayıb, Allaha təvəkkül etmədiyi üçün, Allahın onun ürəyinə verəcəyi rahatlıq və etibardan da məhrum qalar. Buna görə, Allahın aşağıdakı ayədə ifadə etdiyi kimi, qədərə tam mənasıyla təslim olmuş insanların sahib olduqları sabit və sakit ruh halını heç bir zaman yaşaya bilməz:

**Allah bunu əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə həddindən artıq sevinməyəsiniz deyə... (Hədid surəsi, 23)**

İnsanların içərisinə düşdükləri digər yanılma isə, özləri üçün nəyin yaxşı, nəyin pis olduğunu tam olaraq bilməmələri və bunun nəticəsində qatlandıqları sıxıntıdır. İnsanın ağlı və mühakimə gücü zəif olduğundan, Qurana tabe olmadığı müddətcə, özü üçün nəyin yaxşı, nəyin pis ola biləcəyini tam olaraq bilməz. Bu baxımdan da, qarşılaşdığı mənfi kimi görünən bir hadisənin əleyhinə olduğunu düşünməklə səhv etmiş olacaq. Çünki Allah, imtahanın gərəyi olaraq insanları həm xeyirlə, həm də şərlə sınayır. Allah, bütün bu hadisələri insanları sınamaq üçün xüsusi olaraq hikmət üzərinə yaradır. Allah bu sirri, **"... Biz sizi sınamaq üçün şər və xeyirlə imtahan edirik və siz Bizə qaytarılacaqsınız**" (Ənbiya surəsi 35) ayəsi ilə qullarına xəbər vermişdir. Bu həqiqətə iman gətirib Allahın rizasına uyğun hərəkət edən insan üçün, qarşılaşdığı hər hadisə xeyirli bir nəticəyə səbəb olar. Allah bir başqa ayəsində hər hadisəni insanın görə bildiyi və bilmədiyi bir çox hikmətlə birlikdə yaratdığını belə bildirir:

**... Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz. (Bəqərə surəsi, 216)**

Ayədə də görüldüyü kimi, insanın sevdiyi və ya sevmədiyi, xoşlandığı ya da bəyənmədiyi hər şeydə əslində insanın özü üçün bir yaxşılıq gizlidir. Çünki insanın başına gələn hər hadisəni, hər şeyi bilən Allah planlamışdır. İnsanı yaradan Rəbbimiz, əlbəttə insanın özü üçün yaxşı və pis olan hər şeyi bilir. Bunun əksini düşünmək Allahın qədrini haqqı ilə təqdir edə bilməmək olacaq ki, bu da insana itkidən və bədbəxtlikdən başqa bir şey qazandırmaz. Bu səbəblə insanın etməli olduğu, özünü daim yaxşıya yönəldəcək olan, Allahın özü üçün təyin etdiyi qədərə təslim olmaqdır.

Başlarına gələn hər şeyin özləri üçün sınaq olduğunun və Allahın hər şeyi xeyirlə yaratdığını bilməyən insanlar isə böyük bir itkiyə məruz qalacaqlar. Bu kəslər, hadisələri Quran əxlaqına görə qiymətləndirmədikləri zaman, qarşılaşdıqları hər şeyə mənfi baxış aspekti ilə yaxınlaşaraq ümidsiz və pessimist bir quruluşa bürünərlər. Bundan xilas olmanın tək yolu isə qədərə tam mənasıyla təslim olmaq, hər hadisədəki hikmətli istiqamətləri görə bilməyə çalışmaqdır. Bu, cahil cəmiyyətin insanları üçün, xoşbəxt ola bilmənin heç bilinməyən bir yoludur.

Allaha və qədərə təslimiyyət içərisində olmayan insan, xoşuna gəlməyən hadisələrlə qarşılaşdığı zaman üsyankar bir ruh halına bürünər. Bu da bu kəslərin çətinliklərini və narahatlıqlarını daha da artırar. Qaynağını bilmədikləri, səbəbini anlaya bilmədikləri hadisələrlə qarşılaşmaq, bu insanlara çətinlik verər. Bu çətinlik Allahın inkar edənlərə dünya həyatında verdiyi qarşılıqdır. Beləcə Allaha üsyan edən, Ona ibadət etməkdən çəkinən insanların əzabı daha dünyadaykən yavaş-yavaş başlamış olar. Allah Quranda bu həqiqəti belə bildirir:

**Ən böyük əzabdan əvvəl Biz onlara mütləq kiçik əzabdan (dünya əzabından) daddıracağıq ki, bəlkə doğru yola qayıtsınlar. (Səcdə surəsi, 21)**

Qədərə gərəyi kimi təslim olmayan kimsənin dünyada qazanacağı tək şey bədbəxtlik və sıxıntı olacaq. İnsanın qədərə olan inancı, etibarı və Allaha olan təslimiyyəti nə qədər güclüdürsə, duyacağı rahatlıq, hüzur və güvən də o dərəcə böyük olacaq. Beləcə həm sabit bir ruh halına sahib olacaq, həm də qarşılaşdığı hadisələrin xeyir və hikmətlərini daha yaxşı görə biləcəkdir.

## Səmimiyyətsizliyi özlərinə prinsip etmişlər

Səmimiyyət, qısaca insanın düşündükləri və hiss etdikləri ilə uyğun formada davranması olaraq təyin oluna bilər. Həqiqi mənada səmimi olan biri özünü kimsəyə isbat etmək, qəbul etdirmək məcburiyyətində hiss etmədiyi üçün hər mühitdə, rahat və təbii hərəkət edər. Bu şəkildə yaşayan biri üçün səmimiyyət rahatlıq və hüzur qaynağı halına gələr.

Ancaq zəmanəmizdə bir çox insanın ətrafındakı insanlarla olan əlaqələrindəki səmimiyyətdən uzaq quruluş intensiv şəkildə hiss edilir. Cahillik əxlaqını yaşayan insanların bir çoxu yalançılığı, ikiüzlülüyü, saxtakarlığı vərdiş halına gətirmişlər və əlaqələrini də tamamilə bu ünsürlər üzərinə qurmuşlar. Hər kəs müəyyən bəzi mənfəətlər güddüyündən, bir-birlərinə qarşı səmimiyyətsiz rəftar göstərərlər. Təbii ki, bu vəziyyət tək tərəfli deyil, qarşılıqlıdır. Hər iki tərəf də bir-birindən istifadə edərək, bir-birindən ən çox şəkildə faydalanmağa çalışır. Belə bir mühitdə güvən deyə bir anlayış qalmaz. Çünki kimin nə edəcəyi, necə davranacağı, nə düşündüyü qətiyyən müəyyən deyil. Onsuz da insanların bir-birləriylə olan əlaqələrində bədbəxt olmalarının, depressiyaya girmələrinin, bir-birlərinə olan sevgi və bağlılıqlarının çox qısa olmasının səbəbi, yaşadıqları bu səmimiyətsizlikdir. Allah, **"Elə isə qazandıqlarının cəzası olaraq az gülüb çox ağlasınlar."** (Tövbə surəsi, 82) ayəsiylə din əxlaqından uzaq yaşayan insanların bədbəxt olacaqlarını bildirmişdir.

Səmimiyyətsizlik bu insanlarda başqa mənfi rəftarların da meydana gəlməsinə səbəb olar. Bunlardan biri, özlərinə edilən yardımlara və yaxşılıqlara qarşı nankor bir rəftar sərgiləmələridir. Quran əxlaqından uzaq bir həyat sürdükləri üçün özlərinə edilən kömək və yaxşılıqları tez unutmağa, pislikləri isə heç unutmamağa uyğun bir xarakter göstərirlər. Ən kiçik bir münaqişədə, ya da anlaşılmazlıqda dərhal bir-birlərinin mənfi istiqamətlərini ortaya qoyur və bir-birlərini tənqid edərlər. Bir-birlərinin yaxşı və gözəl istiqamətlərini görməz, ya da

görmək istəməzlər. Qısaca, insanlar özlərinə edilən yaxşılıqları, yardımları və gözəllikləri gərəyi kimi dəyərləndirməzlər.

Bir-birlərinə qarşı belə bir əxlaq göstərən kəslər Allaha və dinə qarşı da səmimiyyətsiz bir yanaşma içərisindədirlər. Bu kəslərin Allaha olan imanları olduqca zəifdir və ən kiçik çətinlik və ya gərginlikdə Allahı unutmağa çox meyillidirlər. Allah aşağıdakı Quran ayəsində bu insanların **"Allaha bir ucundan ibadət edən"** kəslər olduqlarını, bundan ötrü də dünyada və axirətdə böyük itkisi olacaqlarını bildirmişdir:

**İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib küfrə qayıdar. O adam dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur.** (Həcc surəsi, 11)

Allahın, bu kəslərin inanclarındakı səmimiyyətsizliyi xəbər verdiyi digər ayə belədir:

**İnsana bəla üz verdikdə uzananda da, oturanda da, ayaq üstə olanda da Bizi çağırar. Bu bəlanı ondan sovuşdurduqda isə sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi keçib gedər. Həddi aşanlara etdikləri əməllər beləcə gözəl göstərildi.** (Yunis surəsi, 12)

Bu insanların səmimiyyətsizliklərinin bir başqa göstəricisi də, bir şeyi etmək istəmədikləri zaman bu davranışlarını doğru göstərmək üçün bəzi bəhanə və səbəbləri qarşıya sürmələridir. Özlərinə Allaha qarşı məsuliyyətləri xatırlandığında, bu məsuliyyətlərdən qaçmaq və ömürlərini nəfslərinin istəkləri istiqamətində hərisiliklə yaşamaları üçün saysız bəhanələri vardır. Hər vəziyyətdə ibadət etmələrinə, Allahın əmrlərinə uymalarına, öz ağıllarına görə əngəl təşkil edən süni səbəblər çıxararlar. Bu hər insanın istəklərinə və gələcəyə istiqamətli planlarına görə fərqlilik göstərir. Bəzisi etməli olan işlərinin olduğunu, bəzisi heç vaxtının olmadığını, bəzisi də ibadətlərini yaşlandığında edəcəyini söyləyir.

Allahın, Özü daxil hər şeyi əhatə etdiyini, hər şeyi görüb eşitdiyini, bəhanələrini söylədiyində, əslində o an ağlından nələr keçdiyinə şahid olduğunu bilən bir insan bu cür bir davranış göstərə bilməz. Bu şəkildə hərəkət etdiyi təqdirdə necə bir əzabla qarşılaşacağının və özünü aldatmasının dünyada və axirətdə ona heç bir fayda gətirməyəcəyinin şüurundadır.

Allaha qarşı səmimi olan, Onun əmr və qadağalarını dəqiqliklə yerinə yetirən insanlar Allahın vədi olaraq səmimi möminlərlə bir yerdə olacaq və onlarla birlikdə yaşayaraq səmimiyyətin gətirəcəyi rahatlığı, gözəlliyi, hüzuru ən gözəl şəkildə yaşayacaqlar. Bu Allahın səmimi qullarına dünyada və axirətdə verdiyi mükafat və çox gözəl bir nemətdir. İnsanın etməli olduğu isə içərisində olduğu bu gözəl mühit üçün Allaha şükür etməsidir.

# BƏDBƏXTLİYİN SƏSİ: ŞEYTAN

## Şeytan insanlara vəsvəsə verir

Şeytan insanın yaradıldığı gündən bəri heç dəyişməyən, ən təhlükəli düşmənidir. Şeytanın məqsədi insanları Allahın rizasından, sevgisindən, Qurandan uzaqlaşdırmaq, insanlara vəsvəsə verərək bir-birlərinə düşmən etmək, qısacası özünə bənzədərək, onları çaşdırıb yollarından azdıqmaqdır. Allah bir ayəsində, **"Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşməninizdir."** (Yasin surəsi, 60) şəklində bildirərək, şeytanın açıq bir düşmən olduğu mövzusunda insanları xəbərdar etmişdir.

Bəzi insanlar, belə təhlükəli və eyni zamanda da hiyləgər bir düşmənlə qarşı-qarşıya olmalarına baxmayaraq, bu həqiqətdən uzaq böyük bir qəflət içində yaşayırlar. Çünki şeytanın varlığından, onun nə qədər hiyləgər bir düşmən olduğundan xəbərsizdirlər. İnsanların bəziləri isə şeytanı mistik, varlığıyla yoxluğu bir olan, bir növ işarə və ya simvol olaraq görərlər. Məhz insanların şeytan haqqındakı bu yanlış düşüncələri, onun insanları nə kimi ciddi zərərlərə və bəlalara məruz qoya biləcəyini fərq etməmələrinə səbəb olar və insanı şeytan qarşısında tamamilə müdafiəsiz bir hala gətirər. Bu vəziyyət, şeytanın qəflət içərisindəki insanları Allahdan və dindən rahatlıqla uzaqlaşdıra bilməsinə imkan yaradar. Şeytanın qarşısında onu tanımayan milyardlarla insan var. Bu da bu insanların içində olduqları təhlükənin nə cür ciddi olduğunu göstərir.

Şeytanı təhlükəli edən, insanları Allahın yolundan azdırmaq istəyindəki qətiyyəti və bunun üçün and içmiş olmasıdır. Bu yolda əlindən gələn hər cür səyi göstərəcək, hər yolu sınayacaq. Allah Quranda şeytanın bu mövzudakı qətiyyətini bizə belə bildirir:

**İblis dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən". (Əraf surəsi, 16-17)**

Şeytanın digər təhlükəli bir istiqaməti isə bütün bunları edərkən çox hiyləgər hərəkət etməsidir. Şeytan hər insanın çatışmazlıqlarına, zəif tərəflərinə görə müxtəlif üsullardan istifadə edərək hər insana fərqli istiqamətlərdən yaxınlaşar. Hər insan üçün fərqli bir üsulu, taktikası var. Bütün fəaliyyətlərini insanlara hiyləgərcə pıçıldadığı vəsvəsələrlə həyata keçirir. Onları şübhəyə salar, görünməmiş boş xülyalara daldırar və boş işlərlə başını qataraq zaman

itirdər. Allah şeytanın insanları aldadıb yoldan çıxara bilməsi üçün səy sərf etdiyini Quranda belə bildirmişdir:

**Mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır.** (Nisa surəsi, 119-120)

Şeytan insanlara daim zərər-ziyan, pislik və itki verməyə çalışır. İnsanların heç bitməyən bədbəxtliklərinin, çətinliklərinin və bunlardan qaynaqlanan fiziki xəstəliklərinin qaynağı məhz şeytanın verdiyi bu vəsvəsələr və boş sözlərdir. Çünki şeytan insanların bədbəxt olmalarını istəyər. Allah Quranda şeytana uyan insanların daim qaranlığa və çıxılmaz yola doğru gedəcəyini bildirmişdir:

**Allah iman gətirənlərin Himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar.** (Bəqərə surəsi, 257)

Ancaq üzərində dayanılmalı olan əhəmiyyətli bir mövzu daha var. Bir çox insan içində yaşadığı bu psixologiyanı mənimsəmiş, bunu həyatın bir parçası olaraq qəbul etmişdir. Bu şəkildə yaşamadığı təqdirdə həyatın bir dadı və zövqü olmayacağını zənn edər. Davamlı bu ruh halı içərisində olmanın özünə verəcəyi çətinliyi və zərəri düşünmədən yaşamağa davam edər. Bu isə şeytanın aldanışından başqa bir şey deyil. Şeytan insanları içinə saldığı bu vəziyyəti onlara cazibədar və bəzəkli göstərərək bu insanların dərk etmələrini və həqiqəti görmələrini əngəlləyir. Allah insanların içərisinə düşdükləri bu vəziyyəti Quranda belə bildirir:

**... Şeytan onlara etdikləri əməlləri gözəl göstərib onları haqq yoldan çıxartdı. Halbuki onlar gözüaçıq adamlar idilər.** (Ənkəbut surəsi, 38)

Göründüyü kimi şeytan, iman etməyən insanların bədbəxt olmalarında və sıxıntılı həyat yaşamalarında böyük rol oynayır. Şeytan verdiyi vəsvəsələrlə, insanları aldadır və onları böyük çətinliklərə salır. Özünə uyan insanları, verdiyi bədbəxtliklə Allahdan və Onun ayələrindən davamlı uzaqlaşdırır və onları Allaha üsyan edən kəslər halına gətirir.

## Şeytan ümidsizlik və çarəsizlik təlqini verir

Əvvəlki hissədə də ifadə edildiyi kimi, şeytan insanı Allahın yolundan azdırmaq, onu dindən uzaqlaşdırmaq, boş işlərlə başını qataraq Allahı və axirəti düşünməsini əngəlləmək üçün hər fürsəti ən yaxşı şəkildə dəyərləndirməyə çalışır. Şeytanın fürsət bildiyi vəziyyətlərdən biri də, insanın pessimizmə və ümidsizliyə düşdüyü anlardır. İnsan həyatı boyunca bir-birindən fərqli müsbət, ya da mənfi kimi görünən bir çox hadisə ilə qarşılaşır və bu hadisələrlə harada, nə zaman və hansı şərtlər altında üz-üzə gələcəyini bilməz. Heç gözləmədiyi bir anda ölümcül bir xəstəliyə tutula bilər, təbii bir fəlakətlə bütün malını, sevdiklərini itirə bilər, işindən çıxarıla bilər, uzun bir müddət yaşayış çətinliyi çəkə bilər və daha bunlara bənzər kiçik-böyük bir çox mənfi kimi görünən vəziyyətlə qarşılaşa bilər. Dünya həyatının bir imtahan olaraq yaradıldığını düşünməyən, Allahın hər şeyi bir hikmət üzərinə yaratdığına iman etməyən insanlar bu cür vəziyyətlərdə pessimizmə qapılar və bütün ümidlərini itirərlər. Bu Allaha təvəkkül etməmələrindən qaynaqlanar.

Halbuki insanın həyatı boyunca qarşılaşdığı heç bir şey təsadüfi, özbaşına və mənasız deyil. Allahın **"... Onun xəbəri olmadan heç bir meyvə toxumundan cücərib çıxmaz, heç bir dişi hamilə qalmaz və doğmaz ..."** (Fussilət surəsi, 47) ayəsiylə bildirdiyi kimi, meydana gələn hər şey Allahın məlumatı, istəyi və idarəsi daxilində reallaşır. Buna görə insanın başına gələn heç bir şey təsadüfi və mənasız deyil. Tam tərsinə bir çox hikmət və məna ehtiva edir. Əgər insan bu həqiqəti görmək yerinə, başına gələn hər şeyi "şans", ya da "kor təsadüflər yığını" kimi batil məntiqlə qiymətləndirəcək olsa, bu onda bir narahatlıq, sıxıntı və çarəsizlik yaradacaq. Təbii ki, bu şeytanın işini asanlaşdıran bir vəziyyətdir. Çünki bu sirdən xəbərsiz bir şəkildə yaşayan belə bir insanı, verdiyi vəsvəsələrlə Allahdan və dindən uzaqlaşdıracaq hətta düşmən mövqeyinə daxil edəcəkdir. Və təbii ki, adamın belə bir anda pessimizmə və ümidsizliyə qapılaraq daha da pis bir vəziyyətə düşməsi və özünə zərər verməsi də şeytanın eyni anda digər hədəfinə çatdığını da göstərir. Allah Quranda insanların çətinlik və sıxıntılarla qarşılaşmalarının səbəbini və bunun qarşılığında insanların göstərdikləri yanlış rəftarı belə açıqlamışdır:

**Səndən əvvəl də ümmətlərə elçilər göndərmişdik. Biz onları sıxıntıya və xəstəliyə düçar etdik ki, bəlkə boyun əyələr. Nə üçün əzabımız onlara gəldiyi zaman boyun əymədilər? Onların qəlbləri sərtləşdi, şeytan da onlara etdikləri əməlləri gözəlləşdirdi. (Ənam surəsi, 42-43)**

Allah çətinlik və sıxıntını insanlara Allahdan başqa sığınılacaq bir güc olmadığını görmələri və doğru yolu tapmaları üçün verir. Ancaq şeytan insanların bu hikməti görmələrini əngəlləyər və onların ürəklərini həssaslıqdan məhrum buraxaraq qatılaşdırır. Əslində insanların başına gələn bu vəziyyət Allahın rəhmətidir. Belə bir vəziyyətdə Allahın razı olacağı hərəkət,

dərhal Onu xatırlamaq, Allaha yönəlib Ondan kömək tələb etmək və üz verən müsibətə qarşı səbir etmək olmalıdır. Allah, səmimiyyətlə Özünə sığınan qullarını köməyiylə dəstəkləyəcəyini bildirmişdir. Hz. Məhəmməd (s.ə.v)-in yoldaşıyla birlikdə, arxasına düşən inkarçılardan gizlənmək məqsədi ilə mağaraya sığındığı anda göstərmiş olduğu üstün rəftar bu mövzuda bütün insanlar üçün gözəl bir nümunə təşkil edir. Allah Quranda Peyğəmbərimiz (s.ə.v)-in bu rəftarını belə bildirmişdir:

**Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 40)**

Hz. Məhəmməd (s.ə.v), başına gələn bu hadisənin Allahın bir sınağı olduğunu anlamış və Allaha olan təslimiyyətini və təvəkkülünü ən gözəl şəkildə göstərmişdir. Ən çətin anda belə xilas olma ümidini əsla itirməmiş, hətta onu müşayiət edən yoldaşına da Allahın rəhmətini və köməyini xatırlatmışdır. Allah bu səmimi davranışına qarşılıq Peyğəmbərimiz (s.ə.v)-in ürəyinə "hüzur və təhlükəsizlik hissini" endirmiş və Onu qurtarmışdır.

Mövzuyla əlaqədar bir başqa parlaq nümunə də, Firon ordusu tərəfindən təqib edilən hz. Musanın göstərmiş olduğu təslimiyyətli rəftarıdır:

**İki dəstə bir-birini görüncə Musanın səhabələri: "Biz yaxalanacağıq!" - dedilər. Musa dedi: "Xeyr, Rəbbim mənimlədir. O mənə doğru yol göstərəcəkdir!" Biz Musaya: "Əsanla dənizə vur!" - deyə vəhy etdik. Dəniz dərhal yarıldı, on iki yol açıldı və hər biri nəhəng bir dağ kimi oldu. O birilərini də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O birilərini isə suya qərq etdik. Şübhəsiz ki, bu hekayətdə bir ibrət vardır. Lakin onların çoxu iman gətirmədi. (Şuəra surəsi, 61-67)**

Bu ayələrdən də aydın olduğu kimi, hz. Musanın yanındakı bəzi kəslər bu vəziyyətdə dərhal ümidsizliyə qapılaraq "yaxalandıq" demişlər. Ancaq hz. Musa, Allaha nümunəvi bir təvəkkül və bağlılıq göstərmiş və yanındakılara da Allahın mütləq onlara kömək edəcəyini xatırlatmışdır. Onun bu təslimiyyətli və səmimi davranışından dərhal sonra, Allah böyük bir möcüzə ilə onları Firondan xilas etmişdir.

Allaha könüldən iman etməyən insanlar ümidsizliyə qapılmağa meyillidirlər. Quran əxlaqını yaşamadıqları üçün həmçinin unutqan və nankor bir xarakter də göstərirlər. Allah bu

insanların nankorluqlarını **“Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar.”** (Hud surəsi, 9) ayəsiylə xəbər vermişdir.

“...**Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər.”** (Yusif surəsi, 87) ayəsiylə isə Allah, insanları Özündən qətiyyən ümid kəsməmələri mövzusunda xəbərdar etmişdir. Allah, dünyada var olan hər şeyi insanlar üçün yaratmış və bütün bunları onlara bir nemət olaraq təqdim etmişdir. İnsan hər şeyini Allaha borcludur. Allah, ruzini verənin və alanın Özü olduğunu, “**Məgər onlar görmürlərmi ki, Allah istədiyinin ruzisini bol edir, istədiyininkini də azaldır? Həqiqətən, bunda iman gətirən adamlar üçün ibrətlər vardır.”** (Rum surəsi, 37) ayəsiylə insanlara bildirmişdir.

İnsanın etməli olacağı, “**Darda qalan kimsə yalvardığı zaman ona cavab verən...”** (Nəml surəsi, 62) ayəsini bilərək, hər nə vəziyyətdə olursa olsun Allaha güvənməsi və Allaha səmimiyyətlə dua etməsidir. Allah bu əxlaqı göstərən qullarını çətinlikdən xilas edəcəyini vəd etmişdir. **“... Lakin siz onların ummadıqlarını Allahdan umursunuz...”** (Nisa surəsi, 104) ayəsiylə də Allah, insanlara Allahın rəhmətindən ümid kəsməmələrini nəsihət etmişdir. Ümid bəsləmənin davamlılığı, onun qaynağına bağlıdır. Cahil insanların özlərinə daimi olaraq ümid verəcək, möhkəm bir dayaqları yoxdur. Bu səbəblə, hər an ümidsizliyə qapıla bilərlər. İman edənlər sonsuz güc sahibi olan Rəbbimizə olan etibarlarına görə, ən çətin anlarda belə ürəklərində güclü bir ümid bəsləyirlər. Həmişə ümidli ola bilən kəs isə, ümidsizlik və pessimizmin səbəb olduğu stress, sıxıntı və bunların səbəb ola biləcəyi səhhət pozğunluqlarından və fiziki pozğunluqlardan da qorunmuş olar. Yorğun və sönük ruh halından uzaqlaşıb canlı və diri bir görünüşə sahib olar. Bu canlı və diri ruh halı onun hərəkətlərinə də əks olunar; onu şən, rahat, normal və sabit bir quruluşa qovuşdurar.

Ümidinin qaynağı sonsuz güc sahibi Allah olan bir kəs, ümidini və buna bağlı olaraq hiss edəcəyi hüzuru və sevinci Allahın izni ilə heç vaxt itirməyəcək.

## Şeytan duyğusallıq təlqini verir

İnsanı bədbəxt edən digər amil də, insana heç təxmin etmədiyi bir yerdən gəlir. Bu, insanın öz duyğularıdır. Zərərsiz kimi görünən bu duyğular necə zərərli hala gələ bilir?

Dindən uzaq yaşayan cəmiyyətlərdə bütün anlayışlar bir-birinə qarışmış olduğu üçün, insanların nəyin doğru, nəyin səhv olduğunu bilmələri olduqca çətindir. Hər kəs özünə görə nəyi məntiqli və doğru kimi görsə onu edir, bunda da olduqca qərarlı və istəkli davranır. Yanlış olan bir çox anlayış təşviq edilir, bəyənilir, doğrular isə tam tərsinə səhv olaraq görülüb, tənqid edilir və şiddətlə qarşı çıxılır.

Məhz duyğusallıq mövzusu da bu qarışdırılan mövzuların başında gəlir. Duyğusallıq ümumi olaraq insanın hər şeyi duyğularıyla qiymətləndirməsi və həyatını buna görə şəkilləndirməsi olaraq təyin oluna bilər. Bu şəkildə yaşayan birinin həqiqi, ağıllı, rahat və hüzurlu həyat sürməsi üçün duyğularının onu həmişə yaxşıya və doğru olana yönəltməsi lazımdır. Ancaq bu o qədər də mümkün olmaz, çünki duyğusal bir insan ümumiyyətlə hadisələri doğru olaraq qiymətləndirməkdə çətinlik çəkər. Çünki ağlı və məntiqi ilə deyil, duyğuları ilə hərəkət edir. Qərar vermə mərhələsində duyğularıyla hərəkət etdiyi üçün, hadisələrin və insanların həqiqi üzlərini görməsi çətinləşər. Ya da tam əksinə, qəzəblənməməli olan bir vəziyyətdə, özünə hakim ola bilməyərək həm özünə, həm də ətrafına asanlıqla zərər verə bilər. Kiçik bir müzakirəni anidən böyük bir mübahisəyə çevirə biləcəyi kimi, yoldaşlarıyla əylənib çox şən və xoşbəxt bir haldaykən, dinlədiyi bir mahnı ilə qəflətən ağlaya bilər. Ani və gözlənilməz davranışlar göstərərək, sabit olmayan bir ruh halına sahib olduğunun siqnallarını verir. Bəzi insanlarda isə duyğusallıq, içinə qapalılıq, küsəyənlik kimi fərqli şəkillərdə özünü göstərir.

Görüldüyü kimi bu nümunələr çoxaldıla bilər. Ancaq diqqət edilsə hamısının ortaq bir nöqtəsi vardır: İnsanın ağılla düşünmə qabiliyyətini itirməsi və ağlını örtməsi. Bu isə insanı azdırmağa qətiyyətli olan şeytanın tamamilə istədiyi və gözlədiyi vəziyyətdir. Şeytan bu gizli silahı gözəl bir şəkildə istifadə edərək insana heç fərq etdirmədən, onun doğruları düşünməsinə, görməsini mane olar. İnsanı Allahın ayələrindən və gözəl əxlaqdan uzaqlaşdırar. İnsanın ağlının önünə sanki görünməz bir pərdə çəkər.

İnsanın bu vəziyyətdən xilas olması üçün şeytanı yaxşı tanıması lazımdır. İnsan, hər hansı bir mövzunu doğru baxış aspekti ilə dəyərləndirməsi üçün doğru və sağlam məlumatlara sahib olmalıdır. Ancaq bu şəkildə özü üçün nəyin doğru, nəyin səhv, nəyin zərərli, nəyin faydalı olduğunu anlaya bilər. Məhz insan, həyatı boyunca ehtiyac duyacağı bu ağılı və məlumatları Allahın insanları doğru yola yönəltmək üçün endirdiyi Quranda tapa biləcək və beləcə həqiqi bir ağıla sahib ola biləcək. Allahın Quranda möminlərin bir xüsusiyyəti olduğunu bildirdiyi "təmiz ağıl", insanı şeytanın bu hiyləgər oyununa qarşı qoruyacaq güclü bir silahdır. Əksinə, insan istək və duyğularına görə hərəkət etdiyi təqdirdə bədbəxt olacaq.

Allah, **"...De: "Mən sizin nəfsinizin istəklərinə uymaram. Əks halda mən haqq yoldan azar və doğru yola yönəlmişlərdən olmaram""** (Ənam surəsi, 56) ayəsiylə, nəfsani duyğulara görə yaşamanın, insanı Allahın yolundan azdıracağını bildirmişdir. Bunun qaçınılmaz nəticəsi də insanın yaşayacağı xəyal qırıqlıqları, uzunmüddətli depressiyalar, sıxıntı və stressdir. Bu isə insana dünyada bədbəxtlikdən başqa bir şey gətirməyəcək.

## Şeytanın hiylələri zəifdir

Əvvəlki hissələrdə şeytanın, dindən uzaq qalmış, bu səbəbdən həyatı boyunca Allaha iman etmənin verdiyi şüurdan uzaq yaşayan insanlar üzərindəki təlqinlərini və bu yolla insanları necə bir sıxıntı içinə apardığını araşdırdıq. Ancaq insanın, şeytanın bu azdırıcı tələləri və vəsvəsələri qarşısında unutmamalı olduğu əhəmiyyətli bir nöqtə var. Bu da şeytanın insan üzərində nə dərəcədə təsiredici bir gücə sahib ola biləcəyidir. Əvvəla, şeytan Allahdan müstəqil bir güc deyil. Şeytanı da Allah yaratmışdır və ancaq Allah dilədiyi üçün insanlara düşmən olmuşdur. Allah diləmədikcə də insanlar üzərində müstəqil gücü qətiyyən ola bilməz. Allah şeytanı da insanlar üçün bir imtahan vəsiləsi olaraq yaratmışdır. Ona uyanlar doğru yoldan uzaqlaşacaq, vicdanlarının səsinə uyub Allahın rizasına uyğun hərəkət edənlər isə qurtuluşa çatacaqlar.

Bununla yanaşı şeytanın bu təsiri, insanın Allaha olan yaxınlığı, bağlılığı qısacası imanı kamilliyi ilə yaxından əlaqəlidir; Şeytan Allahın səmimi qullarına təsir edə bilmir. Onun təsiri ancaq Allaha şirk qoşan və inkar edən kimsələr üzərindədir. Bunu daha yaxşı görə bilmək üçün, Allahın şeytanı hansı məqsədlə yaratdığını bilmək lazımdır. Allah şeytanı “**...Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün şeytana belə bir fürsət verdik...**” (Səba surəsi, 21) ayəsiylə bildirdiyi kimi, möminlərlə, inkarçıları bir-birindən ayırd etmək məqsədiylə yaratmışdır. Bu nöqtədə şeytanın kimlər üzərində təsirinin daha qüvvətli olacağı, kimləri asanlıqla Allahın yolundan azdıra biləcəyi açıq bir şəkildə ortaya çıxır.

Allah, **“Həqiqət budur ki, şeytan sizin düşməninizdir, elə isə sizdə onu düşmən sayın. O, öz tərəfdarlarını Od sakini olmağa çağırır”**. (Fatir surəsi, 6) ayəsiylə, şeytanın insanların açıq bir düşməni olduğunu və insanların da şeytanı düşmən qəbul etməli olduqlarını bildirmişdir. İnsanın düşməninə qarşı müvəffəqiyyətli ola bilməsi, ona məğlub olmaması, düşmənini nə qədər yaxşı tanıdığına, onun necə üsullar və taktikalar izlədiyini yaxşı təsbit etməsinə bağlıdır. Qısacası, insan düşməni haqqında çox yaxşı məlumata sahib olmalıdır. Məhz möminlər, Allahın özlərinə nazil etdiyi Quran sayəsində şeytanı çox yaxşı tanıyır və onunla necə mübarizə aparacaqlarını çox yaxşı bilirlər. Bu isə, şeytanın möminlər üzərindəki gücünün nə qədər zəif və təsirsiz olacağının göstəricisidir. Şeytan, bütün insanları olduğu kimi, səmimi möminləri də azdırmağa çalışacaq ancaq bunda heç bir zaman müvəffəqiyyətli ola bilməyəcək. Möminlər həyatlarını Allahın Quranda bildirdiyi həqiqətlər üzərinə qurduqları üçün, şeytanın tələlərini, özlərinə hansı yollarla yaxınlaşacağını da çox yaxşı görə bilirlər. Şeytana əsla fürsət verməz, hər zaman hər mövzuda vicdanlarına görə hərəkət edərlər. Möminlərin bu mövzudakı qətiyyətli və səmimi rəftarlarını Allah Quranda belə bildirir:

**Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər. (Əraf surəsi, 200-201)**

Allahın "... **Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir**" (Nisa surəsi, 76) ayəsiylə də bildirdiyi kimi, şeytanın hiylələri möminlər üçün çox zəifdir. Ancaq eyni şeyi Qurandan üz çevirən, Allahı unudaraq yaşayan insanlar üçün söyləmək mümkün deyil. Qurana tabe olmayan və Allaha olan bağlılıqları çox zəif olduğundan, Allahın Şuəra surəsinin 223-cü ayəsində bildirdiyi kimi, asanlıqla **"şeytanlara qulaq verərlər"**. Vicdanlarını tamamilə kənara qoyduqlarından şeytanın hər dediyini eynilə tətbiq edərlər. Bu insanlar Allahın zikrini unutmuş və tamamilə şeytanın nəzarəti altına girmişlər. Digər bir ifadəylə, şeytanı ilah etmişlər (Allahı tənzih edirik). Buna görə, şeytanın bu kəsləri öz yoluna çəkməsi və onlara Allahdan və Qurandan uzaq bir həyat yaşatdırması çox asandır. Allah, şeytanın, onu dost və vəli əldə edən insanlar üzərindəki azdırıcı təsirini və iman edənlər üzərində heç bir məcburedici gücü olmadığını belə bildirir:

**Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir. (Nəhl surəsi, 99-100)**

# XOŞBƏXTLİYİN SİRRİ: ALLAHIN RİZASI

Bəzi insanlar, içində yaşadıqları cəmiyyətə, digər insanlarla olan münasibətlərinə, hətta özlərinə çox yaxın olan, hər fürsətdə özlərini çox sevdiklərini söylədikləri yoldaşlarına, qardaşlarına və qohumlarına belə mənfəət gözüylə baxmaqdan heç çəkinmirlər. Kiçik, ya da böyük hər hansı bir mənfəət qarşıdurması baş verdiyində, aralarındakı gözəl olan hər şeyi bir anda unudaraq, dəyər verdikləri, sevdikləri insanları bir anda həyatlarından çıxara bilirlər. Bu insanların, xoşbəxt ola bilmələri, hüzurlu və rahat bir həyat yaşaya bilmələri öz ağıllarına görə əldə edəcəkləri mənfəətlərə bağlıdır. Etdikləri ən kiçik bir yaxşılıq və kömək üçün belə mütləq qarşılıq gözləyərlər. Hər hansı bir qarşılıq gözləmədən, bir şey etməyi isə, itki olaraq qiymətləndirirlər. Bu şəkildə davranan yaxşı niyyətli insanları isə hər fürsətdə pisləyib, lağ edərək özlərinin guya çox daha ağıllı və daha üstün olduqlarını göstərməyə çalışırlar. Mənfəətlərindən söz getmədiyi müddətdə fədakarlıq etməyi düşünməz, mənfəətlərindən əsla güzəştə getməzlər. Tək məqsədləri, bu həyatdan olduqca ən yaxşı şəkildə istifadə edə bilmək və buna bağlı olaraq da rahat və xoşbəxt bir həyat yaşaya bilməkdir. Buna görə bu insanlar üçün, öz mənfəətlərindən daha əhəmiyyətli bir mövzu yoxdur. Hər zaman, hər yerdə, hər şərtdə yalnız özlərini düşünər və daim öz maraqlarını qorumağa çalışarlar. Burada səhv başa düşülməməli olan bir nöqtə vardır; hər insan əlbəttə rahat və xoşbəxt bir həyat yaşamaq istəyir, ancaq burada yanlış olan, bu kəslərin bu istəklərini reallaşdırmaq üçün izlədikləri yoldur.

Bu kəslərin mənfəətlərinə bu cür bağlı olmalarının səbəbi isə, Allahın insanlar üçün "hidayət və öyüd" olaraq endirdiyi Quran əxlaqını yaşamamaları və Quranın onlara yüklədiyi məsuliyyətləri gözardı etmələridir. Həyatları boyunca, Allahın **"Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər."** (Rum surəsi, 7) ayəsiylə bildirdiyi kimi, axirətdən xəbərsiz bir həyat sürərlər. Ölümü, ölümdən sonra nələrlə qarşılaşacaqlarını, həyatları boyunca bütün etdikləri üçün Allaha hesab verəcəklərini, bunun nəticəsində də cənnət, ya da cəhənnəmdə -Allahın diləməsi xaricində sonsuza qədər qalacaqlarını ağıllarına gətirməz, ya da gətirmək istəməzlər. Bu insanları bu şəkildə əhəmiyyətli hesab etməz və ağılsız davranmağa təhrik edən ən əhəmiyyətli amil isə, axirəti özlərindən uzaq görmələridir. Öz ağıllarına görə hələ yaşayacaq vaxtları vardır, buna görə heç düşünmədikləri, ya da düşünsələr belə reallaşacağına çox ehtimal vermədikləri bir şey üçün bütün həyatlarını, mənfəətlərini və qurduqları planlarını fəda etmək istəməzlər. Bunu çox böyük bir itki olaraq xarakterizə edərlər. Dünya həyatını və dünya mənfəətlərini, axirətdə qazanacaqlarına nisbətlə çox daha yaxın və asan görərlər. Buna görə, dünyaya bağlanıb axirəti gözardı edərlər. Bütün istəklərini bu qısa dünya həyatına sığdırmağa çalışırlar. Bütün həyatlarını Allahın razılığından uzaq, Allahı razı edəcək davranışlardan, gözəl əxlaq göstərməkdən uzaq keçirər, öz dünyəvi ehtiras və hərislikləri ilə bütün vaxtlarını sərf edərlər.

Əvvəlki hissələrdə də izah edildiyi kimi, dünya həyatına olan sevgi, insanları bədbəxt edir. Allah, hər fürsətdə Allahın zikrindən üz çevirən bu insanların, dünya həyatlarında da xoşbəxt ola bilməyəcəklərini, davamlı çətinlik içində yaşayacaqlarını Quranda belə bildirir:

**Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz qiyamət günü onu məhşərə kor olaraq həşr edəcəyik. (Taha surəsi, 124)**

Bu kəslərin yanında Allahı xatırlamaq, onlara Qurandan məsul tutulacaqlarını, axirət günü, dünya həyatında bütün etdiklərindən Allaha hesab verəcəklərini xatırlatmaq bu kəslərə böyük bir narahatlıq verir, hətta qəzəblənmələrinə səbəb olur. Allah inkar edənlərin bu xüsusiyyətini bu sözlərlə bildirir:

**Allah tək olaraq xatırlandığı zaman Axirətə inanmayanların qəlbini nifrət bürüyür. Ondan qeyriləri yad edildiyi zaman isə onlar sevinirlər. (Zumər surəsi, 45)**

Allahın saleh qulları olan möminlər üçün isə, "**Allahın rizası**" həyatlarının əsl məqsədidir. Möminlər, özlərini yoxdan var edib, istədikləri hər şeyi özlərinə verənin, hər şeyin həqiqi sahibinin və tək hakiminin Allah olduğunu, bütün hadisələrin Onun istəyi ilə reallaşdığını, Onun həm rəhmət, həm də əzab verən olduğunu çox yaxşı bilən insanlardır. Buna görə möminlərin Allaha olan bağlılıqları, təvəkkül və sevgiləri çox güclüdür.

Möminlər həyatları boyunca yalnız Allaha ibadət edər, yalnız Ondan kömək diləyərlər (Fatihə surəsi, 4) və Ondan başqa heç kəsdən qorxmazlar. Allaha qarşı duyduqları bu güclü sevgi və bağlılıqlarından ötrü Allaha qarşı daima şükür edici bir rəftar içərisində olar və Ona qulluqda əsla zəiflik göstərməzlər. Allahın razılığını qazanmaq üçün çox şövqlü və diqqətli davranarlar. Cahil insanların uğruna həyatlarını həsr etdikləri bütün dünya mənfəətlərindən və dəyərlərindən, Allahın razılığına və cənnətinə qovuşmaq üçün imtina edə bilirlər. Bundan ötrü də heç bir sıxıntı və narahatlıq hiss etməzlər. Çünki onlar **"Allahın razılığını axtarıb qazanmaq məqsədiylə nəfislərini satın alanlar**" (Bəqərə surəsi, 207) və "**Şübhəsiz ki, mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allaha məxsusdur"** (Ənam surəsi, 162) deyərək Allah yolunda "doğru" bir yol tutanlardır. Məsələn, cahil insanların həyatında mal-mülk anlayışı olduqca əhəmiyyətli bir yer tutur. Bu kəslərin bütün səyləri malını çoxaltmaq və insanlar arasında etibar və hörmət görəcək bir mövqe əldə etmək üçündür. Allah Quranda bu insanlar üçün daha bir çox mövzunun ehtiras halına gəldiyini belə xəbər verir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar,**

**dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır.** (Ali İmran surəsi, 14)

Cahil cəmiyyət üçün məqsəd halına gəlmiş olan mal anlayışı, möminlər üçün yalnız Allahın razılığını qazanmaq üçün istifadə ediləcək bir vasitədir. Bu səbəblə möminlər bunların heç birini ehtiras halına gətirməz və bunlara ehtirasla bağlanmazlar. Möminlər üçün mal çoxalıb, zənginləşmək, ya da yüksək mövqe tutmaq heç bir zaman məqsəd deyil. Onlar Allahın onlara verdiyi hər şeyin bir nemət olduğunu və Ona şükür etmələri lazım olduğunu bilirlər. Heç bir zaman kiçik və müvəqqəti dünyəvi mənfəətlər üçün Allahın razılığını gözardı etmirlər. İnsan əgər əlindəki bütün imkanları və bacarıqları Allahın razılığını qazanmaq üçün istifadə edəcək olsa, Allahın "...**Yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq**" (Nəhl surəsi, 97) ayəsiylə bildirdiyi kimi, dünyada da, axirətdə də gözəl bir qarşılıq alacaq.

Cahil insanları bədbəxt edən, onlara narahatlıq verən digər mövzu isə, qarşılaşdıqları çətin və sıxıntılı anlardır. Bu insanların xoşbəxtliyi tamamilə dünyəvi mənfəət və qazanclara bağlı olduğundan, çətin anlarında bu mənfəətlərini də itirmə vəziyyəti ilə qarşı-qarşıya qalırlar. Hər şeyləri buna bağlı olduğundan heç bir məna verə bilmədikləri bir hadisə ilə bunları itirəcək olmaları, onları böyük bir bədbəxtliyə düçar edir. Əldə etdiyi bir parça sevinci də bu yolla tamamilə itirərlər. İçindən çıxa bilməyəcəkləri pessimizmə və ümidsizliyə düşərlər.

Möminlərin xoşbəxtliyi isə, çətinlik və sıxıntı anlarında göstərmiş olduqları Quran əxlaqı ilə daha da qalıcı bir hala gəlir. Möminlər, həmişə Allahın rizasını düşündükləri, ağıllarından və vicdanlarından həmişə bu istiqamətdə istifadə etdikləri üçün, mənfi vəziyyətlərdən əsla inkar edənlər kimi neqativ istiqamətdə təsirlənməzlər. Əksinə çətin anlarda göstərdikləri gözəl və təslimiyyətli rəftarla Allahın razılığını qazana biləcəklərini ümid etdikləri üçün, belə bir anda belə xoşbəxtliklərindən heç bir şey azalmaz.

Möminlər Allahın bəyənməyəcəyi bir rəftar göstərməkdənsə, Allahın razılığına uyğun hərəkət edə bilmək üçün, lazım olduqda bilərək çətinlik içərisinə girməkdən də çəkinməzlər. Bu üstün əxlaqın ən gözəl nümunələrindən birini hz. Yusifin rəftarında görərik. Qardaşları hz. Yusifə tələ qurmuş və onu bir quyuya atmışlar. Daha sonra burada onu tapan bir karvan onu misirli əzizə satmışdır. Allah, hz. Yusifi Misirdə məskun etmiş, ona sözlərin izahını öyrətmiş və ona hökm və hikmət vermişdir.

Allah burada hz. Yusifi əhəmiyyətli bir sınaqdan keçirmişdir. Hz. Yusifin yanında qaldığı vəzirin arvadı ondan murad almaq istəmiş, hz.Yusif isə onun bu rəftarından Allaha sığınmışdır. Qadının ona qurduğu hiylədən çəkinmək və Allahın rizasına uyğun bir rəftar göstərə bilmək üçün zindan kimi yerə girməyi, daha xeyirli görmüşdü. Allah, hz. Yusifin onu qurulan bu tələdən qurtarması üçün Allaha etdiyi duanı, Quranın Yusif surəsində belə bildirilir:

**Yusif dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən mən onlara meyl edər və cahillərdən olaram". Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, Eşidəndir, Biləndir. Bu qədər dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər. (Yusif surəsi, 33-35)**

Hz. Yusif üstün bir əxlaq nümunəsi göstərmiş və Allahın rizasına uyğun hərəkət edə bilmək üçün zindana girməyi üstün tutmuşdur. Hz. Yusifin zindan kimi yeri xoş görməsi, Allahın rizasına uyğun bir rəftar göstərmiş olmasının verdiyi xoşbəxtliyin və rahatlığın ifadəsidir. Hz. Yusifin, Allahın rizasını qazanmaqdakı bu qətiyyəti və şövqü bütün möminlər üçün əhəmiyyətli bir nümunədir. Hər səmimi mömin, eynilə hz. Yusifin etdiyi kimi, əgər Allahın razılığını və sevgisini qazandıracaqsa, çətinliyi və sıxıntını sevərək seçər. Məhz iman etməyənlərin heç bir zaman anlaya bilmədikləri bu üstün əxlaqi rəftar, onların həyatları boyunca heç cür çata bilmədikləri xoşbəxtliyin də sirridir.

Möminlərin qəlbində Allahın rizasını qazanma ümidinin, bu yolda əlindən gələn bütün səyi sərf etməyin verdiyi sevinc və hüzur vardır. Yaşadıqları bu sevinc onları həm dünya həyatında xoşbəxt və rahat edir, həm də Allahın rizasını daha çox qazanmalarını təmin edəcək olan şövqlərini artırır. Bu sevinc və xoşbəxtlik, cahil insanların iman etmədikcə əsla çata bilməyəcəkləri və təqlid edə bilməyəcəkləri bir sevincdir. Çünki bu Allahın yalnız möminlərə hiss etdirdiyi və Allahın rizasını, rəhmətini və sonsuz cənnətini ümid etmənin verdiyi xoşbəxtlik və rahatlıqdır. Allah Quranda yalnız möminlərə aid olan bu neməti belə müjdələyir:

**Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 16)**

Cahil insanlar isə Allahın rizasının, alına biləcək bütün qarşılıqlardan, əldə edilə biləcək bütün dünya mənafelərinin ən gözəli və ən qiymətlisi olduğunun şüurunda deyildirlər. Bu səbəblə, həyatları boyunca Allahın rizasını qazanmanın özlərinə gətirəcəyi qalıcı xoşbəxtlik və sevincdən məhrum bir şəkildə yaşayarlar.

# ƏBƏDİ XOŞBƏXTLİK MÖMİNLƏRİNDİR

## Dünyada ikən müjdələnərlər

Cahil cəmiyyətdəki insanlar ətraflarına qarşı hər nə qədər şən və xoşbəxtmiş kimi görünsələr də, əvvəlki hissələrdə vurğulanan səbəblərdən ötrü, əslində içlərində təsvir edə bilmədikləri bir sıxıntı və narahatlıq yaşayır, buna görə də həmişə saxta bir xoşbəxtlik görünüşü göstərirlər. Nə edərlərsə etsinlər, bu bədbəxtlikdən qurtula bilmirlər. Allahın nemətlərinə qarşı nankorluq etmələri, Allahın zikrindən üz çevirmələri, Quran əxlaqından uzaq bir həyat sürmələri, onları dünyada başlayan və axirət günü daha da şiddətlənəcək bir bədbəxtliyə sürükləyir.

Möminlər isə, içində olduqları şərtlər nə olursa olsun, daim Allaha güvənən, həmişə Ona yönəlib dönən, həmişə Onu razı etməyi düşünən və Quran əxlaqından əsla güzəştə getməyən insanlar olduqlarından, Allahın heç bitməyən rəhməti, fəzli və sevgisi həmişə onların üzərindədir. Allah onları heç bir zaman tək və köməksiz buraxmayacağını vəd etmişdir. Allah öz yolunda səmimi bir şəkildə səy göstərən, heç bir şübhəyə qapılmadan mallarını və canlarını Allahın razılığını qazanmaq üçün sevə-sevə xərcləyən bu sadiq qullarını, etdiklərinə gözəl bir qarşılıq olaraq içində sonsuza qədər qalacaqları, nemətlərlə təchiz edilmiş cənnətlərlə müjdələmişdir:

**Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 64)**

**Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan Cənnət bağları ilə müjdələyir. (Tövbə surəsi, 21)**

Ayələrdən də aydın olduğu kimi, Allah möminləri cənnətlə müjdələmiş, etdikləri bütün saleh əməlləri qəbul edəcəyini və qovuşacaqları gözəlliyin və xoşbəxtliyin isə çox yaxın olduğunu bildirmişdir. İnsanın Allahın sonsuz rəhmətinin və sevgisinin həmişə üzərində olduğunu bilməsi, Allahın cənnətiylə mükafatlandırmasını umması mömininin qəlbinə böyük bir rahatlıq və hüzur verər. Allah Quranda möminlərin həmçinin mələklər vasitəsiylə də müjdələnəcəklərini bildirmişdir:

**Həqiqətən də: "Rəbbimiz Allahdır!" – deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub deyirlər: "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! (Fussilət surəsi, 30)**

Möminlərin bu tərifsiz xoşbəxtliyi sadəcə cənnətlə müjdələnmələriylə məhdud deyil. Bu müjdə ilə yanaşı, Allah saleh qullarını dünya həyatında da **"...Bu dünyada yaxşılıq edənlərə gözəllik vardır; axirət yurdu isə daha xeyirlidir..."** (Nəhl surəsi, 30) ayəsi ilə gözəl bir həyatla müjdələmişdir.

Allah möminlərin dünya həyatında xoşbəxt və gözəl bir həyat yaşayacaqlarını bir başqa ayədə belə bildirir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Allahın möminlərə verdiyi bu müjdənin Quranda izah edilən bir çox peyğəmbər üzərində də təcəlli etdiyi görülür. Məsələn, Allah, hz. Süleymanın **"Ey Rəbbim, məni bağışla və məndən sonra heç kimə nəsib olmayan bir səltənət ver. Həqiqətən, Sən Bəxşedənsən**" (Sad surəsi, 35) şəklindəki duasına razılıq vermiş və ona dünyada böyük bir mülk vermişdir. Allah, **"Kasıb olduğun zaman səni varlandırmadımı?"** (Duha surəsi, 8) ayəsi ilə də, hz. Məhəmməd (s.ə.v)-in də zəngin olduğunu bildirmişdir. Allah həmçinin hz. Davuda, hz. İbrahimə, hz. Zülqərneynə böyük bir mülk və imkan verildiyini Quranın müxtəlif ayələrində bizlərə bildirir. Allah, Özündən mükafat və bir lütf olaraq, cənnətdə varis etdiyi bir çox nemətin və gözəlliklə bərabər, dünya həyatında da möminlərə nemətini verərək, onların Özünə olan yaxınlıqlarını, cənnətə qovuşma istəklərini və şövqlərini artırır.

Allah möminlərin bu dünyada daim xoşbəxt və təhlükəsizlikdə olacaqlarını, onları "güc və iqtidar sahibi" edərək Quran əxlaqını hakim edəcəyini belə vəd etmişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Bu, Allahın möminlərə olan vədidir. Möminlərin etməli olduğu isə, Allahın bənzərsiz lütfünə qarşılıq Ona şükür etmək və daim Onu zikr etməkdir.

## Allahın rəhməti və ehsanı ilə sevinərlər

Əvvəlki hissələrdə də vurğulandığı kimi, cahil cəmiyyətdəki insanların sevincli və xoşbəxt olmaları, dünya həyatından nə dərəcə faydalana bildiklərinə bağlıdır. Bütün dəyər ölçüləri, bir-birlərinə olan hörmətləri, sevgiləri və əlaqələri tamamilə maddiyyata əsaslanır. Bu şəkildə xoşbəxt və rahat bir həyat yaşayacaqlarına özlərini inandırmışlar. Ancaq hər dəfə unutduqları və ya gözardı etdikləri bir şey vardır: İnsanın xoşbəxt olması maddi baxımdan rahatlığına deyil, mənəvi rahatlığına və hüzuruna bağlıdır. İnsan istər kasıb, istərsə də zəngin olsun, mənəvi olaraq özünü hüzurlu və rahat hiss etmirsə xoşbəxt ola bilməyəcək. Cahil cəmiyyətin bu maddiyat ehtirası, onlar üçün sıxıntı qaynağı halına gələrək, onları sonu gəlməyən bir boşluğa doğru sürükləyir. Allah Quranda bu vəziyyəti belə açıqlayır:

**Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla, dünya həyatında onlara əzab vermək və onların canlarının kafir kimi çıxmasını istəyir. (Tövbə surəsi, 55)**

Allahın Quranda bildirdiyi kimi, inkar edənlər nə qədər mal və mülk yığıb toplasalar, mövqeyi nə qədər yüksələrsə də, qazandıqları şeylər onlara əzab və bədbəxtlikdən başqa bir şey qazandırmayacaq. Quran əxlaqının özlərinə qazandıracağı gözəllikləri və rahatlığı heç bilmədikləri üçün, mənəvi boşluqlarını müvəqqəti olan bu dünya mənfəətləriylə doldurmağa çalışırlar. Möminlər bu mənəvi həzzi, Allaha səmimi bir şəkildə iman edib, yalnız Ona ibadət etdikləri üçün təbii olaraq yaşayarlar. Allah bir Quran ayəsində möminləri **"Rəbbinə qəlbləri məmnun qalmış olaraq bağlanan"** kəslər olaraq tanıtmış və onları cənnətlə müjdələmişdir:

**Sözsüz ki, iman gətirib saleh əməllər edənlər və Rəbbinə boyun əyənlər Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. (Hud surəsi, 23)**

Allah bir başqa ayəsində isə, möminlərin qəlblərinin yalnız Allahı zikr etməklə hüzur tapıb rahatladığını və bütün qəlblərin yalnız Allahın zikriylə hüzur tapa biləcəyini bildirmişdir:

**Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rad surəsi, 28)**

Möminləri xoşbəxt edən, onlara hüzur və rahatlıq verən, Allaha qarşı duyduqları dərin sevgi və bağlılıqları və qəlblərinin hər an Allah ilə birlikdə olmasıdır. Bu isə, Allahın səmimi imanlarına qarşılıq möminlərə lütf olaraq verdiyi neməti və mərhəmətidir. Dua etdiklərində Allahın dualarına qarşılıq verəcəyini, bir səhv etdikləri zaman, səmimi bir şəkildə tövbə etdikləri təqdirdə onları bağışlayacağını, hər zaman Allahın onlara kömək edəcəyini, mütləq bir çıxış yolu göstərəcəyini, etdikləri hər şeyin qarşılığını tam olaraq hətta daha artığını alacaqlarını və Allahın onları sonsuz rəhmətinə qovuşduracağını bilmənin xoşbəxtliyini yaşayırlar. Məhz möminlərin sevinc və xoşbəxtlik qaynağı Allahın onlar üzərindəki sərhədsiz rəhməti və ehsanıdır. Allah möminlərin bu sevincini Quranda belə bildirir:

**De: "Bunlar Allahın lütfü və mərhəməti sayəsindədir!" Qoy onlar buna sevinsinlər. Bu ki, onların yığdıqlarından daha xeyirlidir. (Yunus surəsi, 58)**

Allahın rəhməti və bol ehsanı möminlər üzərində heç dayanmadan, həyatlarının sonuna qədər təcəlli edər. Allahın rəhməti və ehsanı, Allahın möminlər üçün hazırladığı nemətlərlə təchiz edilmiş cənnətlərdə əbədi olaraq onların üzərində olacaq.

## Allaha təslimiyyətləri çox güclüdür

Möminlər həyatları boyunca qarşılaşdıqları hər şeyin Allahın məlumatı və nəzarəti daxilində reallaşdığına qəti olaraq iman edərlər. İnsanın həyatının hər anı, söylədiyi hər söz, düşündüyü hər şey, başına gələn hər hadisə, harada və nə zaman öləcəyi o hələ dünyaya gəlmədən təyin olunmuşdur. İnsan yaşadığı müddətcə Allahın onun üçün dilədiklərini yaşayır. Məhz möminlərə böyük bir hüzur və rahatlıq verən də budur; başlarına gələn hər şeyi Allahın planladığını və hər şeyin mütləq özləri üçün xeyir olduğunu bilmələridir. Bundan ötrü möminlər, başlarına gələn hər hadisədə həmişə Allaha sığınar, Ona yönələr və Ondan kömək diləyərlər. Allah möminlərin bu güclü təslimiyyətlərini belə dilə gətirdiklərini bildirir:

**De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!" (Tövbə Surəsi, 51)**

Möminlər hər mövzuda Allaha təvəkkül edib, Onun özləri üçün yaratdığı hər şeydən razı olduqları üçün, qarşılaşdıqları heç bir hadisədə qorxuya və narahatlığa düşməzlər. Allaha olan təslimiyyəti, onları hər cür dünyəvi qorxu və sıxıntıdan uzaq tutar. Cahil cəmiyyətdə yaşayan insanlar isə Allaha təvəkkül etmədikləri üçün bir çox qorxuları və narahatlıqları var. Gələcək

qorxusu, kasıblıq qorxusu, ölüm qorxusu bunlardan ən əhəmiyyətliləridir. Davamlı bunları düşünür və bütün bunların yükünü üzərlərinə götürərək, bunlara həll gətirməyə çalışırlar. Bir insanın Allahın köməyi və rəhməti olmadan bir çıxış yolu tapa bilməsi isə qeyri-mümkündür. Məhz Allaha səmimi iman gətirib, Ona könüldən təslim olmaq, möminləri bütün dünyəvi təlaş və qorxuların yaratdığı bu çətinliklərdən uzaq tutur, onları həmişə dinc, nəşəli və ümidli edir.

Möminləri xoşbəxt və hüzurlu edən digər əhəmiyyətli mövzu da, onlara isabət edən hər cür mənfi kimi görünən hadisənin həqiqətdə özləri üçün "xeyir" olduğunu bilmələridir. Cahil insanlar qarşılaşdıqları çətinliklər qarşısında böyük sıxıntı və narahatlıq duyar, bunların yükü altında əzilər. Allaha qarşı təslimiyyətli olmadıqları üçün bütün bunların özləri üçün xeyirlərə vəsilə ola biləcəyini ağıllarına belə gətirməzlər. Mənfi kimi görünən bir hadisədə, Allahın onlar üçün diləmiş olduğu "yaxşılığı" və xeyiri fərq edə bilməzlər. Buna görə həmişə pessimist və ümidsiz bir quruluşa sahibdirlər. Bu da onları hər dəfə Allahdan uzaqlaşdırır. İnsanların düşdükləri bu vəziyyət, onların əzabını və sıxıntısını daha da artırır. Allah inkar edənlərin yaşadığı bu sıxıntının davamlı olaraq artacağını belə bildirmişdir:

**Ayələrimizi yalan sayanları, özlərinin də bilməyəcəkləri bir yerdən tədricən tovlayıb məhvə aparacağıq. (Əraf surəsi, 182)**

Allah, ayədəki "bilməyəcəkləri bir yerdən" ifadəsiylə, inkar edənlərin dünya həyatında heç təxmin etmədikləri bir şəkildə sıxıntı və bədbəxtlik duyacaqlarını bildirmişdir. Özlərinə həqiqətdə nəyin bədbəxtlik və sıxıntı verdiyinin şüurunda deyildirlər. Qurana tabe olmadıqları müddətcə də bədbəxtliklərinin qaynağını təsbit edə bilməyəcək və bu sıxıntını yaşamağa davam edəcəklər.

Möminlər isə hər şeyi xeyir gözüylə dəyərləndirər və içində olduqları şərtlər nə olursa olsun, Allahın onlar üçün yaxşılıq diləmiş olduğunu heç vaxt ağıllarından çıxarmazlar. Bu səbəbdən möminləri üzəcək və ya onlara sıxıntı verəcək hər hansı bir şey yoxdur. Çox çətin və mənfi bir vəziyyətlə qarşılaşmış olsalar belə, Allaha yönələr və yenə Onun köməyini istəyərək səbir edərlər. Möminlər üçün bu bir xeyirdir. Rahatlıq və bolluq zamanlarında da yenə Allaha yönələr, Ona şükür edərək, Ona yaxınlaşmağa çalışırlar. Möminlər üçün bu vəziyyət də xeyirlidir.

Məhz möminlərin qədərə olan bağlılıqları, Allaha olan güclü təslimiyyəti onları hər şərtdə xoşbəxt və hüzurlu olmağa sövq edir, onlara Allahın razılığını qazandırır. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v), möminlərin bu əxlaqını çox "heyrətverici" olaraq tərifləmiş və belə demişdir:

"Mömin adamın vəziyyəti nə qədər heyrətvericidir. Çünki hər işi onun üçün bir xeyirdir. Bu vəziyyət, yalnız möminə xasdır, başqasına deyil: Ona məmnun olacağı bir şey

gəlsə şükür edər, bu isə xeyirdir; bir zərər gəlsə səbir edər, bu da xeyirdir.” (Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, 2-ci Cild, s. 208)

Peyğəmbərimiz (s.ə.v)-in də ifadə etdiyi kimi, hər şey mömin üçün bir xeyirə vəsilə olur. Bu vəziyyətin də yalnız möminlərə xas olması, Allahın möminlərə olan rəhmətinin bir təcəllisidir. Allah Quranda möminlərə olan rəhmətini belə müjdələyir:

**İman gətirib yaxşı işlər görənlərə gəlincə, Rəbbi onları Öz mərhəmətinə nəsib edəcəkdir. Bu, açıq-aşkar müvəffəqiyyətdir. (Casiyə surəsi, 30)**

Möminlərin Allaha olan güclü təslimiyyəti, onları hər şərtdə Allaha yaxınlaşdırar və onların həmişə xoşbəxt və hüzurlu olmalarına vəsilə olar.

# ƏN XOŞBƏXT İNSANLAR: PEYĞƏMBƏRLƏR

Peyğəmbərlər insanlara dini təbliğ edib, onları haqq yola dəvət etməsi üçün Allahın göndərmiş olduğu mübarək kəslərdir. Allah peyğəmbərləri, insanlara dini izah etmələri, gözəl əxlaqları ilə onlara ən yaxşı şəkildə nümunə olmaları və axirətin varlığını izah edərək onları xəbərdar edib qorxutmaları üçün göndərmişdir. Bir insanın yer üzündə Allahı təmsil etməsi, çox böyük və əhəmiyyətli bir məsuliyyətdir. Peyğəmbərlərin, Allahın xüsusi olaraq vəzifələndirdiyi kəslər olması, onları digər insanlardan ayırır. Peyğəmbərlər qəlblərində imanı çox möhkəm bir şəkildə yaşayan insanlardır. Allah yolunda göstərmiş olduqları üstün və nümunəvi davranışlarla da onsuz bu açıq bir şəkildə görülür. Hər peyğəmbər, azğınlıqda, əxlaqsızlıqda və ictimai degenerasyiyada sərhəd tanımayan bir çox qövmə və hökmdara göndərilmişlər. Allahın dinini izah edərək, qövmlərini içində yaşadıqları çirkinlikləri və əxlaqsızlıqları tərk etmələri mövzusunda xəbərdar etmiş və onları Allaha iman etməyə dəvət etmişlər. Bu vəzifəni yerinə yetirmək üçün, həyatlarının sonuna qədər özlərinə isabət edən heç bir əzabdan, sıxıntıdan, çətinlikdən, edilən təhdidlərdən və atılan böhtanlardan qorxmayaraq səbir və bu yolda göstərdikləri hər cür rəftarla, əxlaq və düşüncələri ilə özlərinə inanan və dəstəkləyən möminlərə ən mükəmməl nümunələri meydana gətirmişlər. Allah Quranda, iman edənlər üçün peyğəmbərlərin həyatlarında gözəl nümunələr olduğunu bu şəkildə xəbər verir:

**Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir. (Əhzab surəsi, 21)**

Peyğəmbərlər bütün insanlar üçün "nümunə" olan insanlardır. Möminlər üçün Peyğəmbərimiz (s.ə.v)-in göndərilməsinin, böyük bir rəhmət və lütf olduğunu Allah Quranda belə bildirir:

**Allah möminlərə, öz aralarından onlara Allahın ayələrini oxuyan, onları günahlardan təmizləyən, onlara Kitabı və Hikməti (Sünnəni) öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər. (Ali İmran surəsi, 164)**

Saleh möminlər Allahın ayələrdə bildirdiyi şəkildə, həyatları boyunca peyğəmbərləri nümunə alaraq, ən gözəl əxlaqa çatmağa çalışırlar.

Peyğəmbərlər həyatları boyunca inkarçılara qarşı mübarizə aparmalarına baxmayaraq olduqca xoşbəxt və hüzurludurlar. İnsanları "hidayətə yönəldən rəhbərlər" olduqları üçün imanı ən möhkəm və ən dərin şəkildə yaşayan insanlardır. Allahın onların qəlblərinə hiss etdirəcəyi xoşbəxtlik, hüzur və əmin-amanlıq da imanları ilə düz mütənasib olaraq o dərəcədə güclüdür.

Sonrakı sətirlərdə Allahın Quranda yer verdiyi peyğəmbərlərdən bəzilərinin həyatlarına və gözəl əxlaqlarına toxunacağıq.

## Hz. İbrahim

Allah, Quranın bir çox ayəsində hz. İbrahimin həyatından və qarşılaşdığı hadisələrdə göstərdiyi gözəl rəftarlardan nümunələr vermiş və ondan təriflə bəhs etmişdir.

Hz. İbrahim, rəftarlarıyla bir möminin nə qədər ağıllı və diqqətli olması, həmişə vicdanı ilə hərəkət etməsi və Allah yolunda çox cəsarətli olmasını ən gözəl şəkildə göstərmişdir. İbrahim Peyğəmbər, Allaha olan bağlılığı, təslimiyyəti və yaxınlığıyla da möminlər üçün hikmətli bir nümunə olmuşdur. Allah, Nisa surəsinin 125-ci ayəsində hz. İbrahimi "dost" seçdiyini ifadə edərək, onun Öz Qatında nə qədər qiymətli və üstün bir mövqeyə sahib olduğunu möminlərə bildirmişdir. Şübhəsiz ki, Allahın bir qulunu dost seçməsi bir insanın çata biləcəyi ən yüksək dərəcələrdən biridir. Əlbəttə hər mömin üçün Allaha dost qədər yaxın ola bilmənin, buna bağlı olaraq Allahın onun üzərindəki köməyini, rəhmətini və qorumasını yaxından hiss etmənin, Onun daima özüylə hər zaman hər yerdə birlikdə olduğunu, onu eşitdiyini, hiss etdiyini bilmək möminə xoşbəxtlik, hüzur və təhlükəsizlik verir.

Allah Quranın Məryəm surəsində, hz. İbrahimin, bütə tapınan atasına Allaha iman etməsi üçün etdiyi təbliğə yer vermişdir. Allah hz. İbrahim ilə atası arasında gedən söhbəti belə bildirmişdir:

**Bir zaman o, atasına demişdi: "Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? Atacan! Həqiqətən, sənə gəlməyən bir elm mənə gəlmişdir. Arxamca gəl ki, səni doğru yola yönəldim. Atacan! Şeytana ibadət etmə! Həqiqətən, şeytan Mərhəmətli Allaha çox asi oldu. Atacan! Qorxuram ki, Mərhəmətli Allahdan sənə bir əzab toxunsun və beləcə, şeytana yoldaş olasan". Atası dedi: "Sən mənim məbudlarımdan üzmü çevirirsən, ey İbrahim!? Əgər buna son qoymasan, səni mütləq daşqalaq edəcəyəm. Uzun müddət məndən uzaq ol!" (Məryəm surəsi, 42-46)**

Hz. İbrahim atasına şirk qoşduğu şeyləri buraxması mövzusunda öyüd verərkən çox rahat və hörmətli bir üslub istifadə etmişdir. Ancaq atasının, oğlunun göstərdiyi bu gözəl əxlaq qarşısında duyduğu narahatlıq o qədər böyük olmuşdur ki, öz oğlunu öldürməklə təhdid edə biləcək və onu görmək istəməyəcək bir hala gəlmişdir. Atasının içində olduğu qəflət halı, onun həqiqətləri görməsinə maneə törədərək, vicdanını və ağlını örtmüşdür. Göstərmiş olduğu təcavüzkar və çirkin rəftar, Allaha iman etməməsindən, din əxlaqını yaşamamasından qaynaqlanır.

Hz. İbrahim isə atasının bu çirkin davranışına baxmayaraq ondan gözəl bir şəkildə ayrılmış və belə demişdir:

**Mən sizi və Allahdan başqa sitayiş etdiyiniz bütləri tərk edir və öz Rəbbimə dua edirəm. Ola bilsin ki, mən Rəbbimə dua etməklə heç vaxt bədbəxt olmayım". (Məryəm surəsi, 48)**

Şübhəsiz ki, bir insanın sevdiklərindən, xüsusilə də anasından, atasından, ailəsindən ayrılmaq məcburiyyətində qalması, ya da onlarla arasının pozulması xoş bir vəziyyət deyil. Özünə ən yaxın olan ailəsini buraxıb getmək insanı olduqca narahat edən və sıxan bir vəziyyətdir. Bu baxımdan, heç kim ailəsi, atası, ya da bir yaxını ilə tərs düşmək istəməz. Ancaq əgər bu insan Allahı tanımayan, hətta düşmən olan bir kafir isə, ona qarşı sevgi bəsləməsi, onu dost və vəli etməsi, Allahın razılığına tamamilə zidd bir davranış olacaq. Məhz hz. İbrahim də atasının özünə göstərmiş olduğu təcavüzkar rəftar qarşısında onun özünə dost ola bilməyəcəyini anlamış və atasının getmə istəyini qəbul etmişdir. Bu hadisədə hz. İbrahim üçün əhəmiyyətli olan, "Allah rizasına ən uyğun olan rəftarı" göstərmək olduğundan heç tərəddüd etmədən atasından ayrılmışdır. Allah rizasına uyğun hərəkət etdiyi üçün də bu davranışından sonra, "Allaha dua etməklə heç vaxt bədbəxt olmayacağını" ifadə etmişdir. Əlbəttə ki, bu, Allah rizasına uyğun hərəkət etmiş olmanın verdiyi hüzur və xoşbəxtlikdir. Allah hz. İbrahimə, hz. İshaqı və hz. Yaqubu bəxş etmiş və onu Öz rəhmətindən hədiyyələrlə mükafatlandırmışdır:

**İbrahim onları və onların Allahdan başqa yalvardıqlarını tərk etdiyi zaman Biz ona İshaqı və Yaqubu bəxş etdik. Biz onların hər ikisini peyğəmbər etdik. Biz onlara öz mərhəmətimizdən əta etdik və gələcək nəsillər həmişə yada salsın deyə onlara yaxşı ad qismət elədik. (Məryəm surəsi, 49-50)**

Allahın bu qissə ilə xatırlatdığı kimi, insan əgər Allah rizasına uyğun şəkildə hərəkət edirsə, hər nə şərtdə olursa olsun, Allah onu bütün çətinliklərdən təmizləyəcək, ürəyindəki xoşbəxtliyi və hüzuru daimi edəcək.

## Hz. Zəkəriyya

Hz. Zəkəriyya da Quranın müxtəlif hissələrində zikr edilən peyğəmbərlərdən biridir. O da digər bütün peyğəmbərlər kimi, həyatı boyunca Allahın razılığını qazanmaqdan və bu yolda göstərməli olduğu əxlaqdan heç bir şəkildə güzəştə getməmişdir. Allaha ibadətdə

qətiyyətli olmuş və Ona qarşı olan sədaqətini və təslimiyyətini daim mühafizə etmişdir. Hz. Zəkəriyyanın göstərmiş olduğu bu səmimi sədaqət və bağlılığa qarşı, Allah ona həmişə rəhmət etmişdir. Allah Quranda hz. Zəkəriyyanın yaşlandığında, öz nəslinin davamı üçün, Allahdan saleh bir uşaq istədiyini və belə dua etdiyini bildirmişdir:

**Demişdi: "Ey Rəbbim! Artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə etdiyim dua sayəsində heç vaxt bədbəxt olmamışam. Mən özümdən sonra gələn qohumlarımdan dinə etinasız yanaşacaqlarından qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir övlad bəxş et ki, o həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Elə et ki, o Sənin razılığını qazanmış olsun! (Məryəm surəsi, 4-6)**

Allah, hz. Zəkəriyyanın bu duasını qəbul etmiş və onu adı "Yəhya" olan bir uşaqla müjdələmişdir. Allah, ana olmağa əlverişli olmayan bir qadını ana ola biləcək hala gətirmiş və hz. Zəkəriyyanı duyduğu bu narahatlıqdan möcüzəvi bir şəkildə qurtarmışdır. Allah, bu örnəklə də, şərtlər nə qədər mənfi, hətta qeyri-mümkün kimi görünsə də, saleh qullarını qarşılaşdıqları hər cür çətinlikdən qurtaracağını və onları həmişə məmnun edəcəyini göstərmişdir.

## Hz. Yusif və atası hz. Yaqub

Allah Quranın Yusif surəsində bizlərə hz. Yusifin həyatı haqqında məlumat verir. Hz. Yusif qarşılaşdığı çətinliklərdə, ona atılan böhtanlarda, qurulan tələlərdə hər zaman Allaha səmimi bir şəkildə dua edərək mübarizə aparmış və Rəbbimizə olan sədaqətindən heç zaman güzəştə getməmişdir. Allahın rizasını qazanmaq və harama girməmək üçün həbsə girməyi gözə almışdır. Göstərdiyi ixlas, səmimiyyət və şərəfli davranışlar səbəbiylə ətrafındakı insanlarda hz. Yusifə qarşı sevgi və hörmət meydana gəlmişdir. O da insanlara verdiyi nəsihətlərlə onları doğru yola çağırmışdır. Yusif surəsində ən az hz. Yusif qədər zikr edilən və Allaha olan sədaqəti və təslimiyyətiylə təriflənən bir başqa insan da var ki, o da hz. Yusifin atası olan hz. Yaqubdur.

Hz. Yaqub, oğlu hz. Yusifin, gələcəkdə seçilmiş bir insan olacağını ona danışdığı yuxudan anlamış, buna görə də hz. Yusifi öz gücü nisbətində qorumağa və ona dəstək olmağa çalışmışdır. Ancaq hz. Yusifin qardaşları atalarının ona olan sevgisini və marağını qısqanaraq ona bir tələ hazırlamışlar. Öz aralarında danışaraq hz. Yusifi quyuya atıb ondan xilas olmağa qərar vermişlər. Hz. Yusifi quyuya atdıqdan sonra da atalarına yalan söyləyərək, onu qurdun yediyini irəli sürmüşlər və dəlil olaraq da üzərinə yalandan qan sürtülmüş köynəyini gətirmişlər. Hz. Yaqub, bu kədərli vəziyyət qarşısında üstün bir əxlaq

göstərmiş, Allahın rizasına uyaraq, həm oğullarına öyüd vermiş, həm də bu vəziyyətdən səbirlə və Allahın köməyi ilə xilas olacağını bildiyindən səbir etməyi üstün tutmuşdur. Allah Quranda hz. Yaqubun bu rəftarını belə bildirir:

**Qardaşları onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. Yaqub dedi: "Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır". (Yusif surəsi, 18)**

Qardaşlarının hz. Yusifə qurduqları tələ hz. Yaqub üçün Allahdan gələn bir sınaq olmuşdur. Hz. Yaqub, Allahın rizasına uyğun əxlaq göstərdiyi təqdirdə, Allahın onun bu kədərini, xoşbəxtliyə və sevincə çevirəcəyini ümid edərək təvəkkül etmişdir.

Hz. Yusif atıldığı quyudan bir karvan tərəfindən xilas edilərək misirli bir vəzirə satılmışdır. Allah, beləcə hz. Yusifi Misirdə məskun etmiş, ona hökm və hikmət vermiş və yuxuların izahını öyrətmişdir. Hz. Yusif daha sonra vəzirin arvadı tərəfindən atılan bir böhtan nəticəsində zindana düşmüş burada illərlə qaldıqdan sonra, hökmdarın gördüyü, kimsənin mənasını başa düşmədiyi bir yuxunu, özünə verilən elmlə açıqlamış və hökmdarın diqqətini çəkmişdir. Ardından da hökmdar tərəfindən Misirə rəhbər təyin olunmuşdur. Allah onu rəhməti və köməyiylə dəstəkləmiş, zindandan xilas edərək ölkə xəzinələrinin başına keçirmişdir.

Bu əsnada hz. Yusifin digər qardaşları, kim olduğunu bilmədən, ondan pul qarşılığı ərzaq almaq üçün bir neçə dəfə onun yanına gəlmişlər. Hz. Yusif bu sırada atasından olan digər qardaşını da pis niyyətli digər qardaşlarından qurtarmaq üçün bir plan hazırlamış və onu da öz yanında saxlamağı bacarmışdır. Hz. Yusifin qardaşları bu vəziyyəti atalarına dediklərində, hz. Yaqubun göstərmiş olduğu təslimiyyətli rəftarı Allah Quranda belə bildirir:

**Yaqub dedi: "Xeyr, sizin nəfsiniz sizi bu işə sövq etdi. Mənə isə yaxşı səbir gərəkdir. Ola bilsin ki, Allah onların hamısını mənə qaytarsın. Həqiqətən də, O, Biləndir, Müdrikdir" (Yusif surəsi, 83)**

Digər oğlunu da itirdiyini eşitmək hz. Yaqubun kədərini daha da artırmışdır, ancaq o yenə də Allahın rizasına uyğun hərəkət etmiş, gözəl əxlaqından güzəştə getməmişdir və yenə səbir edərək onlara qovuşacağı günü ümidlə gözləmişdir. Allah hz. Yaqubun bu üstün əxlaqına və təvəkkülünə qarşılıq onu hər iki oğluna da qovuşdurmuşdur. Allah, göstərmiş olduğu səmimi sədaqətə və Öz rizasına qazanmaqda güzəştə getməməsinin qarşılığı olaraq, hz. Yaqubun çətinliyini xoşbəxtliyə və sevincə çevirmişdir.

Hz. Yaqub nümunəsində olduğu kimi, şərtlər nə olursa olsun, Allaha təslimiyyətini və Onun razılığını qazanmaqdan əsla güzəştə getməyən hər insan Allahın diləməsiylə mütləq xoşbəxt olacaq. Bu Rəbbimizin bizə vədidir.

# İMANIN GƏTİRDİYİ XOŞBƏXTLİK VƏ QAZANDIRDIĞI GÖZƏLLİKLƏR

## Sevinc qazandırar

Möminlər Allaha və Onun yaratdığı qədərə iman etdikləri üçün sevincləri daimidir. Bu vəziyyət onların gündəlik həyatlarına da əks olunar və möminlərin xarakterinin təməl qaynağını meydana gətirər. İnkarçılar isə tam tərsinə, Allahdan və Onun ayələrindən xəbərsiz bir şəkildə yaşamağın qarşılığı olaraq həmişə bədbəxt olurlar.

Möminlərin Allaha qarşı duyduqları sevgi, bağlılıq və qədərə olan təslimiyyətləri, onları maddi və mənəvi olaraq narahat edə biləcək hər cür səbəbi ortadan qaldırar. Çünki mömin üçün həyatı boyunca "pis" olaraq xarakterizə edəcəyi heç bir şey yoxdur. Quran əxlaqı ilə Allahın bütün "pis" kimi görünən şeyləri, özü üçün "xeyirə" və "yaxşılığa" çevirəcəyini çox yaxşı bilir. Bu da möminin hər zaman imani sevincə sahib olmasını təmin edər. Hər kəsin kədərləndiyi, pessimist olduğu bir mühitdə, onu üzəcək hər hansı bir səbəb mövcud olmadığından, sevincindən heç bir şey əksilməz.

Cahil cəmiyyətdəki insanlar isə hər nə qədər cəhd edərlərsə etsinlər, imana sahib olmadıqları üçün, heç bir zaman bu xoşbəxtliyi yaşaya bilməzlər. Çox istəsələr belə, heç cür səmimi və qəlbən sevinc ilə hərəkət etməyi bacara bilməzlər. İmanın özlərinə gətirəcəyi hüzurdan uzaq qaldıqları üçün həqiqi mənada rahat və hüzurlu ola bilməz, qarşılarındakı insanlara da narahatlıq verərlər.

Möminin reaksiyaları isə, imani sevincə sahib olduğu üçün hər zaman dərin və səmimi olur. Hər zaman Allaha təvəkkül etdiyi üçün hərəkətləri və rəftarları qarşısındakı insana da böyük bir hüzur və sevinc verir. Bu baxımdan hər kəs bir möminlə danışmaqdan və yoldaşlıq etməkdən böyük zövq alır. Çünki həqiqi mənada səmimiyyətə və sevincə yalnız möminlər sahibdir. Onsuz da ətrafındakı hər kəs də onun bu halını çox açıq bir şəkildə fərq edər. Mömin, Allahın özünə verdiyi bu bənzərsiz nemət sayəsində yaşamaqdan zövq alan, həqiqi mənada əylənən və gülən insandır, çünki möminlər hər şeyin idarəsinin Allahın iradəsində olduğunu bilirlər. Allah bu mövzunu bir ayədə belə bildirir:

**De ki: "Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim ixtiyar sahibimizdir. Və möminlər yalnız Allaha təvəkkül etsinlər." (Tövbə surəsi, 51)**

Cahillik əxlaqının səbəb olduğu, insana əzab və sıxıntı verən mühitlərdə yaşayan insanlar isə duyduqları mənəvi narahatlıqdan ötrü, əylənmənin və sevincin zövqünü heç bir zaman əsl

mənasıyla yaşaya bilməzlər. Bu insanlar əylənir və ya gülürmüş kimi görünsələr də, yalnız əyləndiklərini zənn edirlər. Gündəlik həyatlarında qarşılaşdıqları problemləri və çətinlikləri heç ağıllarından çıxara bilmədiklərini, hər an onları düşündükləri üçün getdikləri hər yerdə, olduqları hər mühitdə doğru dürüst əylənib gülə bilməz, saxta bir "sevinc" və "xoşbəxtlik" tablosu göstərərlər. Bu insanların bədbəxtlikləri o qədər dərindir ki, ətraflarında səmimi bir şəkildə gülə bilən birini gördüklərində, özləri belə ola bilmədikləri üçün bu vəziyyətdən də böyük bir narahatlıq hiss edə bilərlər. Başqalarının sevinci və rahatlığı bu insanlar üçün yenə əzaba çevrilir və bədbəxtlikləri daha da artır. Bu səbəblə, öz bədbəxtliklərini ətraflarındakılara da aşılaya bilmək üçün əllərindən gələn hər cür pis və əks davranışı göstərməkdən də çəkinməzlər. Ətraflarındakı insanları da özlərinə bənzətməyə çalışarlar. İnkarçıların göstərmiş olduqları bu sabit olmayan davranışlar, onların "sevinc" kimi gözəl bir nemətin zövqündən də məhrum qalmalarına səbəb olar. Hər nə edərlərsə etsinlər, hara gedərlərsə getsinlər, -səmimi bir şəkildə iman etmədikləri müddətcə- imanın qazandıracağı "nəşə"-dən məhrum qalacaq və həyatlarını mənəvi bir əzab içərisində keçirəcəklər.

Bu insanların qəlblərini içi tüstü ilə örtülü qaranlıq bir evə bənzədə bilərik. Allaha iman etmədikləri üçün bu evin qapısı, pəncərəsi yoxdur. Rəbbimizə iman etmədikləri üçün də, evlərinin içindəki pis və dumanlı hava heç vaxt çölə çıxmaz, içəriyə də heç bir zaman təmiz hava girməz.

Möminlər isə Allaha səmimi bir şəkildə iman etmələrinin qarşılığı olaraq, Allahın onlara hiss etdirdiyi "həqiqi" sevinclə əylənib güldükləri üçün, aldıqları həzz və xoşbəxtlik ən üst səviyyədədir. Rəbbimiz bu mövzunu Quranda belə müjdələyir:

**... Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, böyük uğurdur. (Maidə surəsi, 119)**

Bir başqa ayədə isə Allah, möminlərin qəlblərinin Allahın zikriylə rahatlıq tapdığını bildirərək, iman edənlərin yaşadığı bu hüzur və xoşbəxtliyin həqiqi qaynağının Allaha olan imanları olduğunu bildirmişdir:

**Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rad surəsi, 28)**

## Güc qazandırar

Cahil cəmiyyətdə güclü ola bilmək və buna bağlı olaraq insanlara hökm edə bilmək olduqca əhəmiyyətli görülür. İnsanlar zəngin olaraq, ya da ətraflarındakı insanların özlərinə hörmət göstərəcəkləri bir mövqe əldə edərək güc sahibi olacaqlarına inanırlar.

Məsələn, pulun gücünə ya da pulla istədiyi hər şeyi edə biləcəyinə inanan bir insan, pulu əldə etmək üçün əlindən gələn hər şeyi edər. Ancaq çox əhəmiyyətli bir şeyi həmişə gözardı edir: mənəvi güc. İnsanın mənəvi gücü isə Allah ilə olan yaxınlığına bağlıdır. Cahil cəmiyyətdə yaşayan insanlar, hər nə qədər maddi baxımdan güclü olsalar belə, ən kiçik bir çətinlik anında dərhal ümidsiz və pessimist bir ruh halına bürünər və bundan ötrü də sahib olduqları həyat sevinclərini o anda itirə bilərlər. Həyat sevinclərini və əzmlərini itirdikləri üçün, qarşılaşdıqları çətin vəziyyətlərdə güc və dəstək ala biləcəkləri heç bir şeyləri qalmamış olur. Ruhlarında meydana gələn bu güc itkisi təbii olaraq onların gündəlik həyatlarına, hərəkətlərinə və davranışlarına da mənfi bir şəkildə əks olunur. Hər hansı bir yerə gedəcək, hər hansı bir işi edəcək gücü və istəyi özlərində tapa bilmədikləri üçün tənbəl və halsız bir quruluşa bürünər. Hər hansı bir səy göstərməkdən çəkinər, özlərinə fayda təmin edəcək fəaliyyətlərdən həmişə üz çevirərlər. Hətta öz mənfəətləri olsa belə, yenə üstlərinə çökən bu ağırlıq və tənbəllik səbəbiylə, bir şey etmə arzusu hiss etməzlər. Bu insanları, çox yaşlı bir insanın vəziyyətinə bənzədə bilərik. Görüntüləri gənc belə olsa, bu güc çatışmazlığından, ruhları bədənlərini yaşlı bir insanın bədəni kimi hərəkət etdirər. Bədən cəhətdən deyil, amma ruh olaraq qocalmışlar. Yaşlı bir insanın əldən düşməsi, özünü yorğun hiss etməsi, həmişə istirahətə ehtiyac duyması çox normaldır. Hətta, bəzən yaşlı insanların belə eynilə gənclər kimi dinamik və aktiv olduğuna şahid olarıq. Bədənləri qocalmış olsa belə, ruhları aktiv və dinamik qalar. Bu insanlar isə, tam tərsinə, gənc olduqları halda bu təsvir edilən vəziyyətə düşmüş və mənəvi olaraq yaşlı bir insandan fərqsiz hala gəlmişlər.

Görüldüyü kimi bu insanlar iman etməmələri səbəbiylə Allahın qəlblərinə verəcəyi mənəvi gücdən məhrum olaraq yaşayırlar. Allah bu insanların göstərdikləri əxlaqa qarşılıq olaraq qəlblərindəki gücü çəkib almışdır. Buna görə bir mənada, yaşayarkən ölmüş ruh halı içərisində yaşayarlar. Bu mənfi halları onların hər hallarından, hər davranışlarından rahatlıqla aydın ola bilər.

İnkarçıların bu vəziyyətlərinə qarşılıq möminlər, güclü imanlarının onlara qazandırdığı xoşbəxtlik ilə mənəvi güclərinə güc qatırlar. Daima Allahı vəli və dost etmələrinin və Onun rizasına uymalarının qarşılığında, Allahın onlara nemət olaraq verdiyi mənəvi güc sayəsində həmişə canlı və diridirlər. Heç bir zaman tənbəl və keyimiş bir hala bürünməz; bunun özlərinə gətirəcəyi zərəri və itkini yaxşı bildiklərindən bu vəziyyətdən çəkinərlər. Duyduqları bu mənəvi güc onları Allahın razılığını daha çox qazanmağa, hər zaman bir əvvəlkinə görə daha ciddi səy sərf edərlər. Allah yolunda qarşılaşacaqları çətin vəziyyətlərdə səbir etdiklərinin də təməl qaynağını meydana gətirər. Beləcə heç bir işdə və heç bir yerdə Allahın bəyənməyəcəyi bir rəftar içərisinə girməzlər. Hər zaman irəlidə, həmişə qabaqda və həmişə nümunə ola bilmək üçün daim sürətli və aktiv olmağı seçərlər. Bu səyləri onların hər keçən gün cənnət əxlaqına bir az

daha yaxınlaşmalarını təmin edər. Allahın razılığını və cənnətini ümid etmənin verdiyi güc, hər dəfə daha artar və Allahın Quranda təsvir etdiyi üstün əxlaqa çatarlar. Saleh əməllər etməyin verdiyi xoşbəxtlik, başqa saleh əməllər də etməyə istək yaradır. Göstərmiş olduqları bu səy nə qədər çox olursa olsun bundan ötrü yorğunluğa da düşməzlər. Allah Öz rizası üçün səmimi səy göstərən qullarının imanına iman qataraq, onların güclərini daimi edər. Allah Quranda möminlərə dayanmadan səy göstərməyə davam etmələrini bu sözlərlə bildirir:

**İşlərini qurtaran kimi Allah yolunda çalış! Ancaq Rəbbinə üz tut! (İnşirah surəsi, 7-8)**

Allahın bu əmrinə uyan və bütün həyatlarını Allahın razılığını qazana bilmək üçün davamlı bir səy içərisində keçirən möminlər, həm dünyada, həm də axirətdə xoşbəxt bir həyat sürərlər. Allah möminlərin dünya və axirət xoşbəxtliyi ilə müjdələndiyini Quranda belə bildirir:

**O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu hazırlanmışdır. (Rad surəsi, 22)**

## Şövq qazandırar

Şövq, bir işi və ya bir məqsədi reallaşdırmaq üçün duyulan möhkəm istək və arzudur. Görülən işdə nə qədər ixlaslı olunarsa, hiss ediləcək şövq də o dərəcədə böyük olar. İnkar edənlərin isə etdikləri işlərdə -hər hansı bir mənfəətləri olmadığı müddətcə- şövqlü hərəkət etmələri demək olar ki, qeyri-mümkündür. Onlar sadəcə nəfslərinin istəklərini təmin etmək üçün şövq duyar və bunun üçün də hərisliklə hərəkət edərlər. Edilən bu işin nəticəsində isə insanın yalnız özünün qazanması vacibdir. Bundan başqa, özləri üçün mənfəət təmin etməyəcəkləri işlərdə, son dərəcə istəksiz və şövqsüz olarlar. Bu rəftarları da etdikləri işlərə mənfi bir şəkildə əks olunur. Şövq və istəyin gətirdiyi diqqət olmadığı üçün, ortaya çıxan nəticə də səmərəsiz və bərəkətsiz olar. Çox vaxt başladıqları işləri yarım buraxarlar, hətta başlaya bilməzlər belə. Bu səbəblə başladıqları bir şeyi sona çatdırmaları, onlar üçün böyük bir müvəffəqiyyət, hətta təqdir edilməli olan bir vəziyyətdir. Allah Quranda bu insanların könülsüz etdikləri işlərin tamamilə boş bir səydən ibarət olduğunu və bundan ötrü də hüsrana uğrayacaqlarını bildirmişdir:

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. (Kəhf surəsi, 103-104)**

Möminlər isə, imanlarının onlara verdiyi xoşbəxtliyə görə, heç bitməyən enerji, şövq və istəyə sahibdirlər. Hər keçən gün Allahın razılığını daha çox qazanmaq üçün, daha çox saleh işlər görmək istəyərlər. Bitirdikləri bir işlə kifayətlənməz, əksinə bu onları daha da şövqləndirər, yeni saleh işlər görmələrinə vəsilə olar. Etməli olduqları işləri ən yaxşı, ən gözəl və insanlara ən faydalı olacaq şəkildə edə bilmək üçün Allaha dua edər, düşünər və bu istiqamətdə səmimi cəhd göstərər. Bütün bunların nəticəsində ortaya çıxan nəticə, edə biləcəklərinin ən yaxşısı olar. Bu, Allahın möminlərə verdiyi müvəffəqiyyətin əhəmiyyətli bir sirridir.

Bu qısa dünya həyatında Allahın razılığını qazana biləcəkləri nə qədər çox saleh işlər görərlərsə, axirətdə görəcəkləri gözəl qarşılığın o cür böyük olacağını bildiklərindən heç bir zaman azıyla kifayətlənməyib, həmişə daha çoxuna etməyə cəhd edərlər, Allaha, **"... Sənin razı qalacağın saleh iş görməyi mənə ilham et ...**" (Əhqaf surəsi, 15) şəklində dua edərlər. Allah möminlərin bu ixlaslı davranışına cavab olaraq ürəklərinə "təhlükəsizlik və hüzur" duyğusunu endirərək onların imanlarını hər keçən gün daha da artırar. Allah möminlərə olan bu rəhmətini Quranda bu şəkildə bildirmişdir:

**Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur... (Fəth surəsi, 4)**

## Fiziki gözəllik və sağlamlıq qazandırar

Möminlərlə kafirlər arasında hər mövzuda böyük fərqlər vardır. Ümumiyyətlə, insanların ruh halları və xarici görünüşləri arasında çox möhkəm əlaqə vardır. Əksər hallarda, hərəkət və rəftarlarından necə ruh halı içində olduqları rahat şəkildə aydın ola bilər. Quran əxlaqından uzaq yaşayan insanların çətinliklər qarşısında duyduqları təvəkkülsüzlük, üzlərinə yorğun və ümidsiz ifadə olaraq əks olunar. Qəlbləri, kədərlənəcək və ya sıxılacaq bir şey olmadığı zamanlarda belə həmişə dar və sıxıntılıdır. Yaşadıqları hər şeydən şikayət edər, heç bir şeydən asanlıqla məmnun olmazlar. Ümumiyyətlə əks və tərs davranışlar sərgiləyərlər. Əlbəttə ki, belə ruh halına sahib bir insanın üzünün gülməsi, şən rəftarlar sərgiləməsi və buna bağlı olaraq gözəl, təmiz və etibarlı bir üz ifadəsinə sahib olması da mümkün deyil. Bu səbəblə üzləri qaranlıqdır, sevinc və xoşbəxtliyin verəcəyi aydınlıqdan məhrum olaraq yaşayarlar. Allah iman gətirməyənlərin düşdükləri vəziyyəti bir ayədə bu şəkildə açıqlamışdır:

**“Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik”. (Taha surəsi, 124)**

İman etmədikləri üçün doğru ilə yanlışı, yaxşı ilə pisi bir-birindən ayırd edə biləcək anlayışa sahib deyillər. Bundan ötrü də, düşdükləri vəziyyətin özlərinə nə qədər zərər verdiyini də görə bilməzlər. Narahat olmaları, bu vəziyyətdən xilas olmaq üçün səy göstərmələri lazım ikən, yaşadıqları həyatın doğruluğunu müdafiə etmələri, onların bu vəziyyəti mənimsədikləri açıq şəkildə göstərilir. Şeytan bütün bunları onlara “cazibədar və bəzəkli” göstərərək, içində yaşadıqları bu vəziyyətin zərərini görmələrini əngəlləyir. Özlərinə içində olduqları vəziyyətin zərərləri izah edilib, düzəltmələri üçün nəsihətlə xatırlatma edildiyində isə, Allahın **“Allahdan qorxanlar öyüd-nəsihət götürərlər. Ən bədbəxt kimsələr isə onu qulaqardına vurarlar.”** (Əla Surəsi, 10-11) ayələriylə bildirdiyi kimi, verilən öyüd-nəsihət və tövsiyələrdən üz çevirirlər. Bədbəxt olduqlarının fərqində olmalarına baxmayaraq, bunu etiraf etməkdən çəkinir və bu vəziyyətin müxtəlif səbəbləri olduğunu irəli sürürlər. Bu hallarını doğru göstərməyə çalışaraq özlərini aldadırlar. Əslində irəli sürdükləri bəhanələrin heç biri doğru deyil. Çünki həyatları boyunca kədərlənmələrinə yol açan, onları xoşbəxt edən hər şey əslində Allahın onlar üçün yaratdığı imtahanın bir hissəsidir. Bütün bunların Allahdan hikmət üzərinə özlərinə verildiyinin şüurunda olmadıqları üçün, xoşlarına gəlməyən hadisələr onları üzüb, bədbəxt edir. Bu, həqiqətdən, nə qədər xəbərsiz qalsalar, bədbəxtlikləri də o cür artmağa davam edəcək.

Allah, Özünə iman etməyən, bu səbəbdən ağılla düşünə bilməyən bu insanların üzərinə “ağırlıq” çökdürəcəyini bildirmişdir:

**Allahın icazəsi olmadan heç kəs iman gətirə bilməz. Allah anlamayanları qəzəbə uğradar. (Yunis surəsi, 100)**

İnkarçıların ağılla düşünməmələrindən qaynaqlanan pis halları onları çirkinləşdirdiyi kimi ruh və bədən sağlamlıqlarına da mənfi istiqamətdə təsir edir. Sabit ruh halına sahib ola bilməzlər. Yaşadıqları stress və sıxıntı bu insanların psixologiyalarının ayrılmaz hissəsi halına gəlmişdir. Nə zaman qəzəblənəcəkləri, nə zaman güləcəklərini anlaya bilmək, nəyə, necə bir reaksiya verəcəklərini əvvəldən bilmək mümkün olmaz. Bu qaranlıq ruh halı hər fürsətdə özünü müəyyən edər. Rahatlığı və hüzuru, həmişə özlərinə narahatlıq və bədbəxtlik verəcək şeylərdə axtararlar. Qarşılaşdıqları problemi aşmaq üçün, Allaha dua edəcəkləri, səbir edib Ondan kömək diləyəcəklərinin əvəzinə, bunu öz ağılları ilə həll etməyə çalışırlar. Ancaq problemlərini həll edə bilmədikləri kimi, bu səbəbdən duyduqları sıxıntı və stresslə bədbəxtlikləri daha da artar. Az da olsun rahatlamaları üçün, özlərinə

daha çox zərər verəcək müxtəlif üsullara üz tutarlar. Bunlardan ən məşhur olanları isə içki, siqaret və narkotikdir. Yaşadıqları pis psixologiya o qədər ağır və dərindir ki, bədənlərinə və orqanlarına zərər verən bu maddələri belə istifadə etməkdən heç çəkinməzlər. Həyatları boyunca yaşadıqları daimi bədbəxtlik səbəbiylə, bir növ ağıllarının itməsi və ya şüursuzluq yaşadıqlarından, bütün bunların düşdükləri vəziyyəti daha da ağırlaşdıracağının fərqinə vara bilməzlər. Həmişə bu psixologiya ilə yaşayan insanın sağlam və dözümlü olması isə mümkün deyil. Bədəni normaldan çox daha qısa zamanda yaşlanacaq və müxtəlif şəkillərdə bunun siqnallarını verəcək. Daimi baş ağrısı, erkən yaşlarda saçların tökülməsi və iştahsızlıqla başlayan narahatlıqlar, daha sonralar baş qaldıracaq olan daha ağır və ciddi xəstəliklərin xəbərçisi olacaq.

Duyduqları sıxıntı, həyatlarını davam etdirə bilmələri üçün ehtiyac duyduqları ən əhəmiyyətli nemətlərdən biri olan sağlamlıqlarını təhlükəyə salar. Xoşbəxt olmaq, sıxıntıdan bir az olsun xilas olub rahatlamaq üçün, daha böyük problemləri və bunların gətirəcəyi çətinlikləri dəvət etdiklərinin fərqində belə deyillər.

Möminlər isə, hər zaman Allaha səmimi bir şəkildə iman etməyin, yalnız Onu dost və vəli qəbul etməyin hüzurunu yaşayarlar. Heç bir şəkildə sağlamlıqlarını təhlükəyə atacaq şəkildə hərəkət etməz, bunu Allahın özlərinə verdiyi nemət olaraq görərlər. Bundan ötrü də özlərinə mümkün olduğu qədər yaxşı baxar və beləcə sağlam və dözümlü olarlar. Sağlam olmağın nə cür əhəmiyyətli və gözəl bir şey olduğunu bilir və bunun qarşılığında həmişə Allaha şükür edərlər. İnkarçılar kimi, qarşılaşdıqları problemi görməzlikdən gəlməz, dərhal bununla maraqlanaraq, irəlidə yarana biləcək daha əhəmiyyətli problemlər üçün tədbir almış olarlar.

Allah, möminlərin göstərmiş olduğu bu gözəl əxlaqa və Özünə olan dərin bağlılıqlarına qarşılıq, onları dünyada da gözəl həyat ilə müjdələmişdir. Təbii ki, bu gözəl həyat, həm maddi, həm də mənəvi mənadadır. Duyduqları mənəvi xoşbəxtlik, onların sağlam və gözəl görünmələrinin ən əhəmiyyətli və ən böyük mənbəyidir. Möminlərin sahib olduğu gözəllik, Allahın onlara vermiş olduğu nurudur. Bu nur sayəsində möminlərin üzləri həmişə aydın və təmizdir. Allah, möminlərə vermiş olduğu nuruyla, onları inkarçılardan fərqli və üstün etmiş və onlara təsiredici mənəvi gözəllik və imani heybət vermişdir. Bütün möminlər Allahın lütfü olaraq təmiz və təsiredici görünüşə sahibdirlər. Allah, **“...Əlamətləri isə üzlərində olan səcdə izidir...”** (Fəth surəsi, 29) ayəsiylə, möminlərin üzlərindəki imanlı ifadənin, cəmiyyətdə onları fərq etdirəcək bir xüsusiyyət olduğunu buyurmuşdur.

İnkar edənlər ilə möminlər arasındakı bu fərq dünyada olduğu kimi axirət günündə də ortaya çıxacaq. Allah bu vəziyyəti bu ayələrlə xəbər verir:

**O gün neçə-neçə üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır. O gün neçə-neçə üzlər də tutulub qaralacaq, və yəqin edəcək ki, onlara müsibət artıq üz vermişdir. (Qiyamət surəsi, 22-25)**

**O gün neçə-neçə üzlər parlayacaq, güləcək və fərəhlənəcəkdir. O gün neçə-neçə üzlərə toz-torpaq hopacaq, onları zülmət bürüyəcəkdir. Məhz onlar kafirlər, günahkarlardır! (Əbəsə surəsi 38-42)**

## Hikmətlə baxan daxili göz qazandırar

İnsan özünü, bütün canlıları və kainatı yaradan Allahı tanıya bilmək, Onun gücünü qavraya bilmək üçün Rəbbimizin yaratdığı hər şey üzərində düşünməli və Onun sonsuz ağlının və sənətinin təcəllilərini görməyə çalışmalıdır. Ancaq bunun sayəsində gördüyü hər şeyin yaradılmış olduğunu, hər şeyin mütləq gücün və ağılın məhsulu olduğunu qavraya bilər. Bunun sayəsində, Allahın ağlını, gücünü və sənətinin müxtəlifliyini anlayaraq Allaha yaxınlaşacaq və Ona iman etməli olduğunu anlayacaq.

Ancaq insanın bütün bunları görüb anlaya bilməsi üçün, "hikmətlə baxan daxili gözə" ehtiyacı vardır. İnsanların ətraflarındakı hər şeyə "hikmətlə" baxmaları, Allahın **"Bunu, Allaha üz tutan hər bir qul üçün ibrət və öyüd-nəsihət olsun deyə belə etdik."** (Qaf surəsi, 8) ayəsiylə bildirdiyi kimi, hər an Allahı zikr etməyə və Onu xatırlamağa gözəl bir vəsilə olacaq. İnsan istədiyi qədər dünya üzərindəki yaradılış dəlillərinə baxsın, bunlar üzərində günlərlə, həftələrlə, illərlə tədqiqatlar apararaq bunların insanı heyrətləndirən xüsusiyyətləri olduğunu görsün, iman gözüylə qiymətləndirmədiyi müddətcə, bütün bunların əslində nə mənaya gəldiyini və bunlarla özünə nə izah edilmək istəndiyini qavraya bilməz.

İnsanların bu mənanı görə bilməmələrinin səbəbi də, bütün bunları qəlb gözüylə qiymətləndirəcək zehni və ruhi rahatlığa sahib olmamalarıdır. İnsan diqqətli ola bilməsi, hər təfərrüatı fərq edə bilməsi və bunları doğru bir şəkildə dəyərləndirməsi üçün zehni rahatlığa da sahib olmalıdır. Məhz cahil cəmiyyətdə yaşayan insanların şüurunda, yuxarıda bəhs edilən səbəblərdən ötrü, daima dünyəvi işlərlə doludur. Qarşılaşdıqları problemləri, çətinlikləri həll etmə narahatlığı içərisindədirlər. Özlərini narahat edən bir vəziyyətdən xilas olub xoşbəxt ola bilmənin yolunu, gündəlik həyatda həmişə öz işlərini düşünməkdə, əldə edəcəkləri qazancları hesablamaqda və dünya həyatından maksimum faydanı əldə edə bilmənin yollarını axtarışda görürlər. Buna görə, bütün diqqətlərini bunlar üçün sərf edər və ətraflarındakı yaradılış dəlillərini görə bilməzlər. Ya da görsələr belə, səthi baxış aspektləri səbəbiylə bunları adi hadisəymiş kimi qarşılayarlar. Bütün bunların nə qədər möcüzəvi təfərrüatlar olduğu özlərinə izah edilsə belə, onları əsl maraqlandıran çatmaq istədikləri mənfəətlər olduğundan, bu izah edilənlər onlar üçün bir məna ifadə etməz. Qısacası, bu insanlar görmək istəmədikləri üçün

kor bir insandan daha kor, eşitmək istəmədikləri üçün də, kar bir insandan daha kar hala gəlmişlər. Allah bir ayəsində bu insanları bu şəkildə təsvir etmişdir:

**"...Onların qəlbləri vardır, onunla anlamazlar, gözləri var, onunla görməzlər, qulaqları var, onunla eşitməzlər..." (Əraf surəsi, 179)**

Zehinlərindən əlavə, mənəvi olaraq, yəni ruhi baxımdan da rahat və hüzurlu olmadıqları üçün, Allahın yaradılış dəlillərindəki hikmətləri görə bilməzlər. Allah Quran ayəsində inkar edənlərin ağcaqanaddakı yaradılış dəlillərini görə bilmədikləri üçün verdikləri reaksiyanı belə izah edir:

**Həqiqətən, Allah ağcaqanadı və (istər böyüklükdə, istərsə də kiçiklikdə) ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən gələn haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə demək istədi?" Halbuki O bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır. (Bəqərə surəsi, 26)**

İnkar edənlər pessimizm, sıxıntı və stress içində yaşadıqları üçün, hər gün qarşılaşdıqları, gözlərinin önündəki iman həqiqətlərinin üzərində düşünməzlər. Onlar üçün əhəmiyyətli olan, dünyada əldə edə biləcəkləri ən yüksək mənfəəti qazanmaq olduğundan, bunun xaricindəki mövzulara çox əhəmiyyət verməzlər. Allahın gücünü, Onun yaratdığı bütün varlıqlar üzərindəki hakimiyyətini həqiqi mənada görə bilmədikləri üçün də, Allaha imanın gərəyini və əhəmiyyətini qavraya bilməzlər. Bir az olsun qavramış kimi görünsələr də, bu onların vicdanlarını hərəkətə keçirəcək qədər güclü olmadığı üçün qısa müddətdə təsirini itirər.

Allah bu insanların Allahı xatırladan çoxlu dəlillərlə qarşılaşmalarına baxmayaraq, bunlardan heç təsirlənmədiklərini bir ayədə belə bildirir:

**Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, insanların çoxu onların yanından üz çevirib keçirlər. (Yusif surəsi, 105)**

Bədbəxtliklərinə görə mənəvi mənada rahat və hüzurlu ola bilməzlər; bu da onların ətraflarındakı hər şeyə "hikmətlə baxan daxili göz" ilə baxmalarını əngəlləyər və onları Allaha iman etməkdən uzaqlaşdırar. Allaha səmimi şəkildə iman edərək qazanacaqları xoşbəxtliyi, öz ağılsızlıqları üzündən itirib bədbəxt həyat sürərlər.

Möminlər Allaha iman etdikləri, həmişə Onu düşünüb, Onun rizası üçün çalışdıqları üçün xoşbəxtliyi hər zaman hiss edərlər. Allaha daha çox yaxınlaşmaq üçün Allahın yaratdığı hər şey üzərində dərindən düşünər və araşdırarlar.

Məsələn, möminin ucsuz-bucaqsız səmaya baxması Allahın gücünü və sənətini təqdir etməsinə vəsilə olar. Ya da gözəl bir mənzərəylə qarşılaşdığında bunun Allahın özünə göstərdiyi gözəllik olduğunu düşünərək, şükür edər. Möminlərin ətraflarındakı hər şeyi Allahı zikr etmək üçün fürsət olaraq görmələri, onların Allahın razılığını qazanmalarını və xoşbəxtliyi daha möhkəm şəkildə yaşamalarını təmin edər.

# SONSUZ XOŞBƏXTLİK MƏKANI: CƏNNƏT

Allah, Öz rizasına uyan saleh qullarını içində sonsuza qədər qalacaqları nemətlərlə təchiz edilmiş cənnətlərlə müjdələmiş və insanları dünya həyatına aldanmamaları, dünya həyatını seçib üstün tutmamaları mövzusunda xəbərdar etmişdir. **"...Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər!"** (Ənkəbut surəsi, 64) və **"...gözəl qayıdış yeri isə Allah yanındadır**" (Ali İmran surəsi, 14) ayələri ilə Allah axirətin, dünyadan daha qiymətli və üstün olduğunu və insanların "həqiqi" həyatlarının axirət həyatı olacağını bildirmişdir. Yaxşı, axirət həyatında insanları necə ortam və necə həyat gözləyir?

Burada mövzumuz cənnət və burada yaşanacaq olan xoşbəxtlik olduğundan, Allahın inkar edənlər üçün hazırladığı əzab dolu cəhənnəmdən bəhs etməyəcəyik.

Allah ayələri ilə axirət həyatının insanların "əsl və həqiqi həyat"ı olduğunu bildirmişdir. Cənnətdə, dünya həyatındakı qüsurlar, nöqsanlar heç bir şəkildə olmayacaq. Orada insanların nəfslərinin arzu etdiyi hər şey vardır. Cənnətdəki bu qüsursuzluq və möminlərin cənnətdəki həyatları haqqındakı təfərrüatları Allah Quran ayələri ilə bizlərə bildirmişdir; möminlərin yaşayacaqları ortamlardan yeməklərinə, cənnətdəki təbii gözəlliklərdən möminlərin oradakı yoldaşlarına qədər cənnət haqqında təfəkkür edəcəyimiz bir çox məlumat Quranda bəhs edilir. Cənnətdəki həyatı və burada yaşanılacaq olan sərhədsiz xoşbəxtliyi daha yaxşı anlaya bilmək üçün cənnətin mükəmməlliyini Quran ayələri əsasında qısaca təhlil edək.

İlk olaraq cənnətdəki təbii gözəlliklərə nəzər salsaq, bunları söyləyə bilərik: Cənnət Allahın **"nə günəş, nə də şaxta"** (İnsan surəsi, 13) olaraq təsvir etdiyi, insana heç bir narahatlıq verməyən, çox gözəl iqlimə sahibdir. İnsanı, dünyada tərlədən, ürəyini sıxan istilər, ya da donduran soyuqlar orada yoxdur. Bu da cənnətdəki iqlimin qüsursuzluğuna işarə edən vəziyyətdir. Allahın cənnət ilə əlaqədar olaraq bildirdiyi təbii gözəlliklərdən biri də, **"daim axan sular"**dır (Vaqiə surəsi, 31). Dayanmadan axan suyun, həm görünüşü, həm də səsi insana böyük zövq verir. Eyni zamanda da insanı rahatlaşdırar və sakitləşdirər. Dünya həyatında insanların evlərinin, villalarının bağçalarında hovuzlar, fəvvarələr tikdirmələrinin məqsədi həm estetik görünüş əldə etmək, həm də bu sərinləşdirici mühiti yaratmaqdır. Allah cənnətdəki bu xüsusiyyəti bir başqa ayədə belə xəbər verir: **"İkisində də fəvvarə vuran iki bulaq vardır."** (Rəhman surəsi, 66)

Həmçinin Allah, **"Sözsüz ki, müttəqilər Cənnət bağlarında və çeşmələr başında olacaqlar**" (Hicr surəsi, 45), **"Şübhəsiz ki, müttəqilər kölgəliklərdə və çeşmələr başında"** (Mürsəlat surəsi, 41) ayələriylə də möminlərin hüzur verən sərinləşdirici yerlərdə yaşayacaqlarını xəbər verir. Allahın Quranda bildirdiyi digər gözəllik də, möminlər üçün hazırlanmış olan "cənnət bağçaları"dır. Bu bağçalarda insan ruhunun görməkdən zövq alacağı hər növ çiçək və bitki bir yerdə, uyğunluq içindədir. Bunlardan başqa "**tikansız**" və **"üst-üstə düzülmüş meyvələri sallanmış"** (Vaqiə surəsi, 28-29) olan meyvə ağaclarının

varlığı da ayrı nemətdir. Bunlara əlavə olaraq, Allah cənnətin "**olduqca yamyaşıl**" (Rəhman surəsi, 64) görünüşə sahib olduğunu bildirir.

Bütün bunlar bir yerdə düşünüldüyündə insanın qarşısına ovsunlayıcı gözəllikdə mənzərə çıxır. Bu gözəl görünüşün yox olması, zamanla gözəlliyini itirməsi kimi vəziyyət də mümkün deyil. Sonsuza qədər heç dəyişmədən, xarab olmadan qalacaq. Cənnətdəki möminlər üçün olan gözəlliklər və nemətlər yalnız bunlarla məhdud deyil. Allah Quranda bu təbii gözəlliklərlə yanaşı möminlərin cənnətdə yaşadıqları məkanların gözəlliyi haqqında da məlumat verir:

**Lakin Rəbbindən qorxanları üst-üstə tikilmiş, altından çaylar axan otaqlar gözləyir. Bu, Allahın vədidir. Allah vədinə xilaf çıxmaz. (Zumər surəsi, 20)**

Allahın ayədə bildirdiyi kimi, möminlər cənnətdə yüksək yerlərdə olan köşklərdə təsiredici mənzərəyə qarşı otururlar. Bunların xaricində Allah, möminlərə xidmət etmələri üçün cavanlar yaratmışdır. Allah möminlərə davamlı və fasiləsiz bir şəkildə xidmət edən cavanları bizlərə belə xəbər verir:

**Onların ətrafında xidmətlərinə verilmiş, qorunub saxlanılan mirvari kimi yeniyetmə oğlanlar dolanacaqlar (Tur surəsi, 24)**

Bunlarla yanaşı, Allah "**Taftadan və atlazdan libaslar geyib qarşı-qarşıya əyləşəcəklər**" (Duxan surəsi, 53) və "**...orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcək**" (Həcc surəsi, 23) ayələri ilə möminlərin cənnətdəki geyimlərinin gözəlliyi haqqında da məlumat vermişdir. Bilindiyi kimi ipək və atlas parça, qızıl və mirvari dünyada da çox qiymətlidir. Eyni zamanda da göstəriş və zənginliyin ifadəsi olaraq bilinir. Möminlər cənnətdə bu parçalardan olan paltarları geyəcək, qızıl və inci bəzəkləri taxaraq daha çox estetik və ehtişamlı görünüşə sahib olacaqlar. Allah həmçinin Quranda cənnətdə möminlər üçün tərtəmiz, qüsursuz gözəlliyə sahib və yalnız möminlərə aid olan yoldaşlar verəcəyini də müjdələyir:

**Orada gözlərini öz ərlərinə dikmiş, onlardan əvvəl özlərinə heç bir insan və cin toxunmamış qızlar vardır. (Rəhman surəsi, 56)**

Allah, ayələrdəki "**qorunub saxlanılmış yumurta kimi**" (Saffat surəsi, 49) və **"sədəf içində saxlanılmış mirvariyə bənzər"** (Vaqiə surəsi, 23) ifadəsi ilə, yalnız möminlərə xas olaraq yaratdığı bu zövcələrin qüsursuz gözəlliklərinə də diqqət çəkmişdir. Heç bir dünyəvi əskikliyə sahib deyillər və sonsuza qədər də gözəlliklərindən heç bir şey itirməyəcəklər. Bütün bunlar

cənnətdə möminləri gözləyən bir-birindən gözəl və Allahın yalnız mömin qullarına verəcəyi nemətlərdir. Möminlər bütün bu nemətlərdən məmnun qalacaq, Rəbbimizdən razı olacaqlar. Allah "**Sən onların çöhrəsində səadət parlaqlığı görəcəksən.**" (Mutaffifin surəsi, 24) ayəsi ilə möminlərin duyacaqları sonsuz xoşbəxtlik və sevincin üzlərinə "parıltı" şəklində əks olunduğunu bildirmişdir.

Möminlər üçün digər xoşbəxtlik səbəbi də, Allahın cənnəti hər şeyiylə qüsursuz şəkildə yaratmış olmasıdır. İnsanı dünyada sıxan, narahatlıq verən və bezdirən, bədbəxtliyə səbəb olan heç bir əksiklik və qüsur cənnətdə olmayacaq. Yorulma, ölmə, xəstələnmə, acı çəkmə, qocalma, çirklənmə, susama, acma və bunlara bənzər insanın ağlına gələn dünyəvi əksiklik və qüsurların heç birinin cənnətdə olmayacağını Allah Quranda belə bildirir:

**Sən orada nə ac qalacaq, nə də çılpaq olacaqsan. Sən orada nə susayacaq, nə də bürküdən əziyyət çəkəcəksən!" (Taha surəsi, 118-119)**

Şübhəsiz ki, insanın, özünü sıxan, narahat edən, bədbəxt edən hər cür amildən təmizlənilmiş bir məkanda sonsuza qədər yaşaması ola biləcək ən böyük rahatlıq, lüks və bənzərsiz xoşbəxtlik qaynağıdır.

Cənnətdə həmçinin möminlər üçün "ehtiyac" deyə anlayışın olması da mümkün deyil. Artıq heç bir şeyi ehtiyacdan ötrü etmirlər. Hər şey onların xidmətindədir, nəfslərinin arzu etdiyi hər şey də onlarındır. Allah bütün bu nemətləri mömin qullarının zövq alıb, xoşbəxt olması üçün yaratmışdır. Etdikləri hər şey onlar üçün zövqə və əyləncəyə çevrilir. Bütün bunlardan sonsuza qədər heç bir sıxıntı və bezginlik də hiss etməyəcəklər.

Cənnətdə möminlərə hüzur və xoşbəxtlik verən digər böyük nemət də orada birlikdə yaşayacaqları saleh möminlərdir. Şübhəsiz ki, möminlər cənnətdə, dünyada insanları sıxan, qəzəbləndirən və narahatlıq verən hər cür pis əxlaq xüsusiyyətlərindən təmizlənmiş olacaqlar. Allah bir ayəsində cənnətdəki möminlərin ürəklərində kin və qəzəbin olmayacağını belə bildirmişdir:

**Biz onların köksləründəki kin-küdurəti çıxaracağıq. Onların ayaqları altından çaylar axacaq. Onlar deyəcəklər: "Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik...." (Əraf surəsi, 43)**

Hər cür pis əxlaq və davranışdan təmizlənmiş, tərtəmiz, gözəl əxlaqlı insanlarla yaşamaq və qüsursuz bir əxlaqa sahib olmaq cənnətdə yaşayan bütün saleh möminlər üçün şübhəsiz ki, böyük nemət, hüzur və xoşbəxtlik vəsiləsidir. Allah möminlərin cənnətdə xoşbəxtliklərini belə dilə gətirdiklərini bildirir:

**Onlar deyəcəklər: "Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir. Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə nə bir yorğunluq üz verəcək, nə də bir üzgünlük toxunacaqdır!" (Fatir surəsi, 34-35)**

Ayələrdən də aydın olduğu kimi, Allah cənnətdə, insana ən böyük zövq və ləzzətləri daddırır. Mömini Allahın razılığını və sevgisini qazana bildiyi üçün duyduğu xoşbəxtlik və sevinc isə, bütün bunların üzərində xoşbəxtlik vəsiləsidir. Cənnətdəki bütün bu nemətlər, Allahın saleh qullarına ehtiramıdır. Onları qiymətli və cazibədar edən şey isə, Allahın möminlərdən razı olmuş və onları cənnətinə qəbul etmiş olmasıdır.

Cənnət, Rəbbimiz olan Allahın lütfüdür və bu səbəblə çox qiymətlidir. Cənnət əhli, hədiyyəyə layiq görülmüş qullardan olduqları üçün əbədi xoşbəxtlik və sevincə qovuşarlar. Məhz bir insan üçün "ən böyük xoşbəxtlik və qurtuluş", Allahın razılığını qazanıb, cənnətinə və rəhmətinə qovuşa bilmiş olmasıdır.

# NƏTİCƏ

İstər gənc, istər yaşlı olsun, insanların çoxunun bu dünyadan gözlədiyi, yalnız müvəffəqiyyətli, etibarlı, rahat və lüks həyat deyil; əslində hər kəs bunlara sahib olmaqdan zövq duyar. Lakin hər şeyin üstündə insanlar həyatlarının mənası və məqsədi olmasını istəyərlər. Məhz möminlərlə inkar edənlər bu əhəmiyyətli nöqtədə bir-birlərindən fərqlənirlər. Möminlər üçün bu həyat Allahın razılığını qazana bilmələri üçün tək fürsətləri olduğundan, həyatlarının sonuna qədər özlərinə Allahın razılığını qazanmağı məqsəd bilərlər.

İnkarçılar isə, bu dəyərsiz olan dünyadan mümkün qədər faydalanmaq üçün müxtəlif məqsədlər əldə edərək həyatlarının sonuna qədər dünyanı əldə etmə arzusu yaşayarlar. Buna görə, möminlərin yaşadığı həqiqi xoşbəxtliklə, cahil cəmiyyətin yaşadığı saxta xoşbəxtlik arasında çox böyük fərqlər var. Mömin bu dünyanın həqiqi mahiyyətinin, öz yaradılış məqsədinin, Allahın özünü sınadığının və Ona qulluq etməklə məsul olduğunun şüurundadır. Buna görə, həyatı boyunca həqiqi yurdu olan cənnəti ümid edər və Allahın razılığını qazanıb, Allahın rəhmətinə və mükafatına daha çox layiq olmağa çalışırlar. Xoşbəxtlik isə, Allahın saleh qullarına bu səmimi iman və sədaqətlərinə görə, həm dünyada, həm də cənnətdə verdiyi çox böyük bir nemətdir. Möminlərin xoşbəxtliyinin və rahatlığının qaynağı yalnız imanlarıdır. Allah səmimi imanlarına qarşılıq, onların qəlblərinə xoşbəxtlik və hüzuru nemət olaraq hiss etdirir. Möminlərin yaşadığı, şərtlərə bağlı xoşbəxtlik deyil, imanın gətirdiyi mənəvi xoşbəxtlikdir. İnkar edənlər isə, iman etmədikləri müddətcə həmişə bədbəxt olacaqlar. Allah inkarlarına qarşılıq olaraq bu insanların qəlblərini bədbəxt və sıxıntılı edəcəyini bildirmişdir:

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar; kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə rəzalətə salar. (Ənam surəsi, 125)**

İnkar edənlər, dünyaya qarşı olan ehtiraslı sevgilərini tərk etmədikləri müddətcə, imanın özlərinə verəcəyi hüzuru və xoşbəxtliyi, əsla yaşaya bilmir və bilməyəcəklər. Allah bu kəslərin axirət günü buna görə duyacaqları peşmanlıqlarını **"Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!""** (Mülk surəsi, 10) sözləriylə dilə gətirəcəklərini və iman etməmələrinə səbəb olaraq dünya həyatlarındakı bədbəxtliklərini irəli sürəcəklərini bildirmişdir:

**Məgər Mənim ayələrim sizə oxunmurdumu, siz də onları yalan hesab etmirdinizmi? Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq. (Muminun surəsi, 105-106)**

Möminlər isə, Allahın rizasına uyğun həyat sürdükləri üçün, Allah axirət günü onları içində sonsuza qədər qalacaqları, nemətlərlə təchiz edilmiş cənnətlərə sövq edəcək və möminlər cənnət gözətçiləri tərəfindən bu şəkildə qarşılanacaqlar:

**Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!" (Zumər surəsi, 73)**

Xoşbəxtlikləri daha dünyada başlayan möminlər Cənnətə girmələri ilə birlikdə, xoşbəxtliyin və qurtuluşun ən böyüyünə qovuşacaqlar. Allahın özləri üçün hazırladığı cənnətlərdə, Rəbbimizin razılığını, sevgisini və rəhmətini qazanmağın verdiyi xoşbəxtlik və sevinc ilə sonsuza qədər bənzərsiz nemətlər içində yaşayacaqlar ...

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli

əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı.

*("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, – deməк məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr:

"*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət

qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün

gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" – deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində

təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

# ARXA ÜZ

Zəmanəmizdə bir çox insan heç cürə həqiqi hüzuru əldə edə bilmir, o qədər səyə, işə və yorğunluğa baxmayaraq heç cürə xoşbəxt ola bilmədiyindən şikayət edir. Bu kəslərin axtardıqları və tapa bilmədikləri ən əhəmiyyətli şey xoşbəxtlikdir. Bu cür nəticə ilə qarşılaşmalarının səbəbi isə, xoşbəxtliyi səhv yerdə, səhv insanlarda tapa biləcəklərinə inanmış olmalarıdır.

Kimisi üçün xoşbəxtlik, əldə edəcəyi maddi zənginlikdir. Kimi insan üçünsə xoşbəxtlik, hər kəs tərəfindən tanınmaq, hər kəsin sevdiyi, bəyəndiyi, arxasından qaçdığı bir adam olmaqdır. Kimiləri üçünsə xoşbəxtlik, yaşadığı çətin və monoton həyatdan bir az olsun xilas olmaq, problemlərini unutmaqdır. Ancaq bütün bu insanların əldə etdikləri xoşbəxtliklər saxta və keçicidir. Sadəcə yaşanılan həmin zamana məxsusdur; bu zaman bitəndə duyulan xoşbəxtlik də sona çatar və insan yenə əvvəlki çətin həyatına geri dönər.

Bütün insanların axtardığı həqiqi xoşbəxtliyi tapa bilmək isə əslində çox asandır. Nə var ki, insanların bir çoxu özlərini əsl xoşbəxtliyə çatdıracaq yolu göz ardı edirlər. Bu kitabda həqiqi xoşbəxtliyin qaynağının Allaha təslim olmaq, Onun Quranda əmr etdiyi gözəl əxlaqı yaşamaq və yaşatmaq olduğu izah edilir.

**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya təxəllüsünü istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bu yana, imanı, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunların yanında, yazarın təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Yazarın bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqlərini gözlər önünə gətirməkdir. Necə ki, yazarın bu günə qədər 76 ayrı dilə tərcümə edilən 300-ü aşan əsəri, dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən təqib edilməkdədir.

Harun Yəhya külliyyatı, Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.